12 Noyabr Konstitusiya Günüdür

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

№ 208 (10228) 12 noyabr 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





Prezident İlham Əliyev Türkiyəyə səfər edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammitində iştirak etmək üçün noyabrın 10-da Türkiyəyə səfərə gedib.

AZƏRTAC xəbər verir ki, Antalya Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlu, Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komissiyasının sədri Fuat Oktay, Türkiyə Böyük Millət Məclisinin üzvü Mövlud Çavuşoğlu, Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşıladılar.



Azərbaycanın COP29 təcrübəsi bütün COP-lara nümunədir

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva COP31-in Liderlər Sammitində iştirak ediblər

Noyabrın 11-də Türkiyənin Antalya şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammiti keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.

2

Səfər başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri noyabrın 11-də başa çatıb.



AZƏRTAC xəbər verir ki, Antalya Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlu, Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər yola saldılar.

Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Konstitusiya Günü ilə bağlı paylaşım edilib



Azərbaycan-Türkiyə: sarsılmaz birlik, əbədi qardaşlıq, ortaq maraq



Son dövrlər müəyyən bədxah qrupların iki ölkə arasında məqsədli kampaniya apararaq bu münasibətlərə xələl gətirmək cəhdlərinə ən tutarlı cavab isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 8 Noyabr - Zəfər Günündə Azərbaycana, ardınca Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının - COP31-in Liderlər Sammitində iştirak etmək üçün Türkiyəyə səfəri oldu. Zəfər Günündə Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağdan - Şuşadan verdikləri bəyanatlar iki qardaş ölkə arasındakı münasibətlərin mövcud vəziyyəti ilə yanaşı, həm də gələcək inkişaf istiqamətlərini aydın şəkildə ortaya qoydu. Hər iki dövlət başçısı Azərbaycan-Türkiyə birliyinin möhkəmliyini vurğulayaraq bu münasibətləri zəiflətmək cəhdlərinin nəticəsiz qalacağına dair qətiyyətli mövqe nümayiş etdirdilər. Bir daha sübut olundu ki, Türkiyənin və Azərbaycanın ali rəhbərliyi üçün də iki qardaş ölkə arasındakı strateji müttəfiqlik münasibətlərinin qorunması son dərəcə vacibdir.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin tarixi əsaslarına toxunaraq bu birliyin sarsıdılmasına yönələn cəhdlərə belə münasibət bildirdi: "Türkiyə və Azərbaycan xalqları qardaş xalqlardır və dəfələrlə demişəm ki, dünyada bizim qədər bir-birinə bağlı olan xalqlar da yoxdur, dövlətlər də yoxdur. Bu, bizim böyük sərvətimizdir. Bizim birliyimiz, qardaşlığımız sarsılmazdır. Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaqlar".

5

Əbədi Zəfərin Xankəndi sədası



Prezident İlham Əliyevin 2019-cu ildə bəyan etdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" kəlamının son işarəsi də məhz Xankəndidə qoyuldu. Ölkəmizin rəhbəri Zəfərin altıncı ili münasibətilə xalqa təbrikində bu mühüm tarixi məqama toxunaraq bildirdi: "O vaxt Ermənistan rəhbərliyinin yersiz açıqlamalarına biz də açıqlamalar vermişdik. Mən bildirmişdim ki, "Qarabağ Azərbaycandır və nida". O nida işarəsini biz 2023-cü il sentyabrın 20-də bax, burada - Xankəndidə qoyduq. Birgünlük antiterror əməliyyatı Ermənistanın işğalçı ordusunun 15 minlik işğalçı korpusunu tamamilə iflic vəziyyətə salmışdır, çox dəqiq və peşəkarcasına aparılmış hərbi əməliyyat nəticəsində Ermənistan məcburən ikinci dəfə təslim olmuşdur".

Bu Zəfər həm də illərlə Azərbaycana qarşı aparılan şər-böhtan kampaniyalarına, təcavüzkar siyasətə verilən ən kəsərli cavab idi. Vaxtilə Xankəndidə oturub separatizmlə məşğul olanlar, Bakını hədələyənlər bu gün öz layiq olduqları cəzanı çəkirlər.

8

Azad torpaqlarda başlayan yeni həyat



Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra qarşıda duran ən mühüm vəzifələrdən biri doğma yurdlarından didərgin salınmış insanların əzəli torpaqlarına qovuşmasıdır. Bu məqsədlə icra olunan "Böyük qayıdış" proqramı artıq minlərlə ailənin həyatında yeni mərhələnin başlanmasına səbəb olub. Vaxtilə yurd həsrəti ilə yaşayan insanlar indi doğma şəhərlərində, kəndlərində yeni evlərinin qapılarını açır, həyatlarını yenidən qururlar. Bu qayıdış təkcə məskunlaşma prosesi deyil, həm də tarixi ədalətin bərpasının, milli yaddaşın və mənəvi bağlılığın zəfəridir.

Noyabrın 6-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonunun Cahangirbəyli, Cəbrayıl rayonunun isə Soltanlı kəndlərinə səfərləri, hər iki yaşayış məntəqəsinin birinci mərhələsinin açılışında iştirak etmələri quruculuq salnaməsinə yeni səhifə əlavə etdi. Dövlət başçısının və birinci xanımın doğma yurdlarına köçən sakinlərlə görüşləri bu prosesin mərkəzində məhz insan amilinin dayandığını göstərdi.

7

◆ Prezident İlham Əliyevin Türkiyəyə səfəri

Azərbaycanın COP29 təcrübəsi bütün COP-lara nümunədir

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva COP31-in Liderlər Sammitində iştirak ediblər

Əvvəli 1-ci səh.

Dövlətimizin başçısı sammitdə iştirak etmək üçün Antalyadakı Ekspo Mərkəzinə gəldi.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və BMT-nin Baş katibi Antonio Quterreş Prezident İlham Əliyevi, sammitdə iştirak edən digər dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammitinin iştirakçıları birgə foto çəkdirdilər.

Sammit bədii hissə ilə başladı.

Sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş, Avstraliya İttifaqının Baş naziri Entoni Albaniz, Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli, Braziliya Federativ Respublikasının Prezidenti Luiz İnasio Lula da Silva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdilər.

Türkiyə Prezidenti çıxışında əvvəlki COP sədrliklərinin təcrübələrini bölüşdüklərinə görə Azərbaycana və Braziliyaya təşəkkürünü bildirdi.















Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

İzmir vilayətindəki metallurgiya zavodunda baş vermiş partlayış nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 noyabr 2026-cı il

Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri xanım İliyana Yotovaya

Hörmətli xanım Prezident!

Bolqarıstanda baş vermiş ağır yol-nəqliyyat hadisəsi nəticəsində insanların həlak olması və yaralanması xəbəri bizi dərindən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 noyabr 2026-cı il

Polşa Respublikasının Prezidenti zati-aliləri cənab Karol Navrotskiyə

Hörmətli cənab Prezident!

Krakov şəhərində törədilmiş qanlı hadisə nəticəsində həlak olanlar və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Polşa xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 noyabr 2026-cı il

Draqan Vladisavljeviçin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Draqan Vladisavljeviç "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 noyabr 2026-cı il

Kambocanın Kralı əlahəzrət Norodom Sihamoniyə

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Kamboca arasında münasibətlərin yüksələn xətt üzrə inkişafı bizi sevindirir. Bu yaxınlarda Baş nazir cənab Hun Manetin ölkəmizə rəsmi səfəri dövlətlərarası əlaqələrimizdə yeni səhifə açaraq əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi üçün əlverişli zəmin formalaşdırmışdır.

İnanıram ki, sağlam təməllər üzərində qurulmuş Azərbaycan-Kamboca dostluq əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Kamboca xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 noyabr 2026-cı il

Yeni Partiyanın sədri Özgür Özəl Prezident İlham Əliyevə zəng edib

Yeni Partiyanın sədri Özgür Özəl Prezident İlham Əliyevə zəng edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin "X" hesabında məlumat paylaşılıb.

Məlumatda qeyd olunub ki, Özgür Özəl Zəfər Günü münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb. Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib.

"Telefon danışığı əsnasında Azərbaycan və Türkiyə dövlətləri və xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin sarsılmaz olduğu bir daha qeyd olunmuşdur", - deyə məlumatda vurğulanıb.

Milli Məclisin komitələrinin birgə iclasında 2027-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi müzakirə edilib



Noyabrın 11-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Regional məsələlər komitələrinin birgə iclası keçirilib. İclasda "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.

Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov iclası açaraq bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsi, beynəlxalq mövqelərinin möhkəmləndirilməsi və işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin davam etdirilməsi ölkəmizin gələcək inkişafı üçün mühüm imkanlar yaradır. Yeni geosiyasi reallıqlar fonunda regional sülh və əməkdaşlıq perspektivlərinin genişlənməsi də bu prosesə əlavə təkan verir.

Qeyd olunub ki, makroiqtisadi dayanıqlılığın gücləndirilməsi, ölkəmizin hərbi qüdrətinin yüksəldilməsi, dövlət xərclərinin səmərəliliyinin artırılması, qeyri-neft-qaz sektorunun inkişafı və sosial öhdəliklərin maliyyələşdirilməsi büdcə siyasətinin əsas prinsipləri kimi müəyyən edilib. Eyni zamanda işğaldan azad edilmiş ərazilərin bərpası, Böyük qayıdışın davam etdirilməsi büdcənin prioritet istiqamətlərini təşkil edir.

Vitse-spiker nəzərə çatdırıb ki, 2027-ci il dövlət büdcəsinin gəlirlərinin 39,25 milyard manat, xərclərinin isə 42,4 milyard manat olacağı proqnozlaşdırılır. Sosialyönümlü xərclər büdcədə ən böyük paya malik olacaq. Bu isə əhalinin sosial rifahının qorunmasının və yüksəldilməsinin hər zaman dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu göstərir. 2027-ci ilin dövlət büdcəsində təhsil sahəsi üzrə nəzərdə tutulan vəsaitlər təhsilin yalnız davamlı maliyyələşdirilməsini deyil, eyni zamanda onun keyfiyyətinin yüksəldilməsini, əhatəliliyinin genişləndirilməsini və əmək bazarının tələblərinə uyğun kadr yetişdirilməsini hədəfləyir. Elm xərclərinin artırılması isə elmi tədqiqatların və tətbiqi elmin inkişafına ayrılan resursların genişləndirilməsinə imkan yaradacaq.

Müasir beynəlxalq münasibətlər sistemində müşahidə olunan geosiyasi gərginliklər, regional münaqişələr və kiberhücumlar şəraitində Azərbaycanın müdafiə potensialının möhkəmləndirilməsinin xüsusi əhəmiyyət daşıdığını deyən Ziyafət Əsgərov bu baxımdan, müdafiə və milli təhlükəsizlik xərclərinin artırılmasının, hərbi qulluqçuların sosial təminatının gücləndirilməsinin ölkənin təhlükəsizlik ehtiyaclarının qarşılanmasına xidmət etdiyini bildirib. O, işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin davam etdirilməsinin, Böyük qayıdışın təmin olunmasının və həmin ərazilərdə dayanıqlı yaşayış şəraitinin yaradılmasının dövlət büdcəsinin mühüm istiqamətləri olduğunu qeyd edib.

Sonra maliyyə naziri Sahil Babayev "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib.

O, növbəti ildə və ortamüddətli dövrdə dayanıqlı iqtisadi artımın dəstəklənməsinin və makroiqtisadi sabitliyin qorunmasının, əhalinin rifahı və sosial tədbirlərin tam maliyyələşdirilməsinin, müdafiə qabiliyyətinin və təhlükəsizliyin təminatının gücləndirilməsinin, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafının, rəqəmsal texnologiyaların və innovasiyaların tətbiqinin genişləndirilməsinin, təhsil və səhiyyə sektorlarının inkişafının dəstəklənməsinin, fiskal intizam qorunmaqla büdcə qaydasına əməl edilməsinin, real sektorun inkişafının sürətləndirilməsinin büdcə siyasətinin əsas istiqamətləri olaraq müəyyən edildiyini söyləyib.

Nazir çıxışında dövlət büdcəsinin əsas məqamlarına toxunaraq bildirib ki, burada nəzərə çarpan əsas amil neftdən asılılığın davamlı olaraq azalmasıdır. Belə ki, növbəti ildə qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti 17,1 faiz olaraq proqnozlaşdırılır ki, bu da 2026-cı illə müqayisədə 1,7 faiz aşağıdır. Proqnoza əsasən cari xərclərin qeyri-neft gəlirləri ilə örtülmə nisbəti 90,1 faizə çatacaq. Əsas hədəflərdən biri isə ortamüddətli dövrün sonuna cari xərclərin 100 faiz qeyri-neft gəlirləri hesabına örtülməsini təmin etməkdir. Bununla yanaşı, icmal büdcə xərclərinin qeyri-neft ÜDM-in 46,2 faizinə bərabər olması planlaşdırılır. Dövlət büdcəsinin 32,5 faizinin investisiyayönümlü olduğu deyilib. Habelə, qeyd olunub ki, təhsil xərclərinin ÜDM-də payı 3,6 faizə, təhsil və elm xərclərinin birlikdə ÜDM-də payı 3,8 faizə çatacaq. Səhiyyə xərclərinin ÜDM-də payı 1,5 faiz olacaq. Aqrar sektora ayırmalar 15,8 faizə çatacaq. Rayonların dotasiyadan asılılığı tam şəkildə aradan qalxacaq, Naxçıvan Muxtar Respublikasına dotasiya isə 198 milyon manat məbləğində nəzərdə tutulur.

2027-ci ilin gəlirləri ilə bağlı bildirilib ki, icmal büdcə gəlirləri 47,6 milyard manat, icmal büdcədə qeyri-neft gəlirlərinin payı 64,5 faiz olacaq. Dövlət büdcəsinin gəlirləri isə 39,3 milyard manat olacaq. Qeyri-neft sektoru üzrə gəlirlər 23,8 milyard manat və ya gəlirlərin 60,6 faizini təşkil edəcək. Qeyri-neft gəlirlərinin qeyri-neft ÜDM-ə nisbəti 21,8 faiz olacaq. Neft-qaz sektoru üzrə gəlirlər 15,5 milyard manat və ya büdcə gəlirlərinin 39,4 faizi olacaq.

Növbəti ilin xərclərinə dair məlumatda diqqətə çatdırılıb ki, icmal büdcənin xərcləri 50,4 milyard manat, icmal büdcə xərclərinin ÜDM-də payı 35,7 faiz, qeyri-neft ÜDM-də payı isə 46,2 faiz olacaq. Dövlət büdcəsinin xərcləri 42,4 milyard manat proqnozlaşdırılır. Cari xərclər 26,4 milyard manat, sosialyönümlü xərclər 18,7 milyard manat, əsaslı xərclər 13,8 milyard manat, dövlət borclarına xidmətlə bağlı xərclər isə 2,2 milyard manat nəzərdə tutulub.

Sahil Babayev çıxışında büdcənin funksional təsnifatı barədə də məlumat verib. Qeyd olunub ki, növbəti ildə ümumi dövlət xidmətləri 5,5 milyard manat, müdafiə və milli təhlükəsizlik xərcləri 8,8 milyard manat, məhkəmə, hüquq-mühafizə və prokurorluq orqanları üzrə xərclər 3,4 milyard manat məbləğində proqnozlaşdırılır. Təhsil xərcləri 5,1 milyard manat, səhiyyə xərcləri 2,1 milyard manat, icmal səhiyyə xərcləri 4 milyard manat, sosial müdafiə və sosial təminat xərcləri 4,9 milyard manat, icmal sosial təminat xərcləri 12,9 milyard manat, iqtisadi fəaliyyət xərcləri 8,9 milyard manat təşkil edəcək. Yerli gəlirlər və yerli xərclər isə 735,6 milyon manat olaraq proqnozlaşdırılıb.

Bildirilib ki, dövlət büdcəsinin kəsiri 2027-ci ildə 3,1 milyard manat, icmal büdcənin kəsiri isə 2,8 milyard manat, kəsirin ÜDM-ə nisbətinin icmal büdcədə 2 faizə, dövlət büdcəsində isə 2,2 faizə bərabər olacağı gözlənilir.

Sahil Babayev 2027-ci il üzrə həm dövlət, həm icmal büdcələrin dövlətimizin prioritetlərinə uyğun şəkildə tərtib olunduğunu, müdafiə qabiliyyətimizin gücləndirilməsi, "Böyük qayıdış" proqramının həyata keçirilməsi, regionların inkişafı, kənd təsərrüfatına dəstəklə bağlı layihələrin reallaşdırılması və ümumilikdə ölkəmizin sosial-iqtisadi inkişafının həyata keçirilməsi üçün maliyyə təminatı yaratdığını vurğulayıb.

İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Azər Bayramov bildirib ki, əldə edilmiş tarixi nailiyyətlər, formalaşmış iqtisadi potensial və müasir infrastruktur ölkəmizin yeni strateji inkişaf mərhələsinə daha geniş imkanlarla daxil olması üçün möhkəm zəmin yaradıb. Məhz bu əsaslarda hazırlanmış 2027-ci ilin dövlət büdcəsi layihəsi yeni mərhələnin hədəflərinə nail olunmasında mühüm rol oynayacaq.

Nazir müavini cari ilin 9 ayında ümumi daxili məhsulun qeyri-neft sektorunda 2,6 faiz artdığını, ilin yekununa ÜDM-in bütövlükdə 1,7 faiz, qeyri-neft-qaz ÜDM-in isə 3,1 faiz artacağını qeyd edib. Artımın əsasən qeyri-neft-qaz sənayesi, nəqliyyat və rəqəmsal xidmətlər hesabına təmin olunduğunu deyib. Cari ilin 9 ayının nəticələrinə görə ölkənin qeyri-neft-qaz sənayesinin 6,3 faiz, nəqliyyat sektorunun 10 faiz, informasiya və rabitə sahəsinin 11,1 faiz artdığını bildirib. O, iqtisadiyyatın dayanıqlığının artırılmasında rəqəmsallaşmanın xüsusi əhəmiyyətindən bəhs edib.

Azər Bayramov bildirib ki, qarşıdakı dövrdə əsas vəzifələr özəl investisiyaların artırılması, strateji layihələrin sürətləndirilməsi, qeyri-neft-qaz ixracının genişləndirilməsi, beynəlxalq nəqliyyat dəhlizləri boyunca logistika və emal klasterlərinin formalaşdırılması, eləcə də 2027-2030-cu illər üzrə sosial-iqtisadi inkişaf strategiyasının və Böyük Qayıdışa dair II Dövlət Proqramının icrası olacaq.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinə dair Palatanın rəyini təqdim edib.

O qeyd edib ki, Hesablama Palatasının rəyi 2027-ci ilin dövlət büdcəsinə dair qanun layihəsi və layihə ilə birlikdə hazırlanan və təqdim olunan aidiyyəti sənədlərin mövcud qanunvericilik aktlarına uyğunluğu, nəzərdə tutulmuş büdcənin gəlirləri və xərcləri, büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, həmçinin bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə kənar dövlət maliyyə nəzarəti orqanının mövqeyini ifadə edir.

Nəzərə çatdırılıb ki, 2027-ci ilin büdcə zərfində büdcə-vergi siyasəti üzrə məlumatlılıq artırılıb, büdcə-vergi siyasətində ilk dəfə olaraq gəlirlər üzrə ortamüddətli hədəflər müəyyənləşdirilib. Fiskal diaqnostika alətlərinin tələblərindən irəli gələrək analoji təcrübənin xərclər üzrə də tətbiqinin məqsədəuyğunluğu qeyd olunub. Növbəti ilin dövlət büdcəsinin layihəsinə dair sənədlərdə bəzi yeniliklərin təqdim edildiyi, son illər ərzində məlumatlılığın yüksəldilməsi istiqamətində müəyyən addımların atıldığı, fiskal dayanıqlığa təsir edən risklər üzrə təhlilin aparıldığı söylənilib.

Palata sədrinin sözlərinə görə, növbəti ildə iqtisadi artım və inflyasiya gözləntiləri, vergi inzibatçılığı və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, habelə qanunvericiliyə təklif olunan dəyişikliklər hesabına əlavə gəlir potensialının formalaşması sayəsində proqnozlaşdırılan daxilolmaların cari ilin göstəricisini əhəmiyyətli dərəcədə üstələyəcəyi gözlənilir.

Vüqar Gülməmmədov çıxışında, Hesablama Palatasının rəyində 35 tövsiyənin təklif edildiyini bildirib və onları nəzərə çatdırıb.

Tədbirdə çıxış edən İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafına, əhalinin rifahının yüksəldilməsinə, dövlət idarəçiliyinin təkmilləşdirilməsinə və insan hüquqlarının daha səmərəli təminatına mühüm töhfələr verir.

Ombudsman insan hüquq və azadlıqlarının daha effektiv qorunması məqsədilə dövlət büdcəsindən vəsaitin ayrılmasının nəzərə alınması üçün bəzi təkliflərini səsləndirib. O, sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, regionlarda tibbi infrastrukturun və ixtisaslı kadr təminatının gücləndirilməsi, onkoloji xəstələrin müasir müalicə üsullarına və dərman preparatlarına əlçatanlığının artırılması, süni intellekt əsaslı diaqnostika və klinik qərarların dəstəklənməsi texnologiyalarının səhiyyə sistemində təhlükəsiz və mərhələli tətbiqinin vacibliyindən danışıb. Bununla yanaşı, uşaqların hüquqlarının müdafiəsi, onların təhlükəsiz və sağlam mühitdə inkişafının təmin edilməsi, keyfiyyətli təhsilə bərabər çıxış imkanlarının genişləndirilməsi, uşaqların kibertəhdidlərdən, onlayn zorakılıqdan və fərdi məlumatların qanunsuz istifadəsindən müdafiəsinə yönəlmiş maarifləndirmə proqramlarının maliyyələşdirilməsinin önəmini qeyd edib. Habelə rəqəmsal bacarıqların inkişafı üzrə proqramlara maliyyə dəstəyinin, iqlim dəyişmələri və təbii fəlakət riskləri ilə bağlı tədbirlərin maliyyələşdirilməsində sosial yardım imkanlarının nəzərə alınmasının əhəmiyyətindən bəhs edib. Səbinə Əliyeva, eyni zamanda Ombudsman Aparatının strukturunun təkmilləşdirilməsi və fəaliyyətinin daha səmərəli təşkili məqsədilə bir sıra təkliflərini diqqətə çatdırıb.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, İntizam komissiyasının sədri Eldar İbrahimov çıxış ediblər.

Çıxışlarda qlobal qeyri-müəyyənliklər fonunda Azərbaycan iqtisadiyyatının dayanıqlılığının qorunmasının, iqtisadiyyatın şaxələndirilməsinin və qeyri-neft sektorunun inkişafının əsas prioritetlər olduğu vurğulanıb.

Bildirilib ki, növbəti ilin dövlət büdcəsində müdafiə qabiliyyətinin gücləndirilməsi, hərbi-sənaye kompleksinin inkişafı, Qarabağ və Şərqi Zəngəzurun bərpası, eləcə də əhalinin sosial rifahının yaxşılaşdırılması üçün kifayət qədər vəsait nəzərdə tutulub. Müasir ordu quruculuğu, müdafiə sənayesinin gücləndirilməsi, sərhədlərin təhlükəsizliyinin təmin edilməsi, hərbi qulluqçuların və şəhid ailələrinin sosial müdafiəsi də əsas prioritetlər sırasındadır.

Eyni zamanda regionlarda investisiyaların təşviqi, işğaldan azad edilmiş ərazilərdə yeni müəssisələrin yaradılması və kənd təsərrüfatının inkişafının iqtisadi yüksəlişə və büdcə gəlirlərinin artırılmasına töhfə verdiyi qeyd olunub.

Müzakirələrdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Qüdrət Həsənquliyev, deputatlar Razi Nurullayev, Elman Nəsirov, Naqif Həmzəyev, Samir Vəliyev, Hikmət Məmmədov, Qaya Məmmədov, Məzahir Əfəndiyev, Gülşən Paşayeva çıxış edərək məsələ ilə bağlı fikirlərini bildiriblər, qeydlərini və suallarını səsləndiriblər.

Maliyyə naziri Sahil Babayev və Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

"Azərbaycan"

Saatlıq əməkhaqqı sisteminin tətbiqi nəzərdə tutulur



Noyabrın 11-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Musa Quliyev gündəliyə iki məsələnin daxil edildiyini bildirib.

Komitə sədri birinci məsələ olan Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Mülki Məcəllədə, Seçki Məcəlləsində, Rəqabət Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yaşayış minimumu haqqında", "Sosial müavinətlər haqqında", "Təhsil haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Məktəbəqədər təhsil haqqında", "İşsizlikdən sığorta haqqında", "Ümumi təhsil haqqında", "Siyasi partiyalar haqqında", "Diplomatik xidmət haqqında" və "Xüsusi icra məmurları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib.

O bildirib ki, layihədə əməkhaqqı təminatlarının gücləndirilməsi, ödənişlərdə şəffaflığın artırılması, sosial sığorta mexanizmlərinin təkmilləşdirilməsi və istirahət hüququnun real təmin olunması üzrə dörd əsas istiqamət müəyyən edilib.

Belə ki, layihədə müəyyən fəaliyyət sahələrində çalışan işçilərin əməyinin ödənilməsində bərabər və ədalətli yanaşmanın təmin edilməsi məqsədilə saatlıq əməkhaqqı sisteminin tətbiqi nəzərdə tutulub. Digər dəyişikliklər əməkhaqqı ödənişlərinin elektronlaşması ilə bağlıdır. Bu sistemin tətbiqi əməyin ödənişlərində yarana biləcək bəzi neqativ halların qarşısını alacaq. Dəyişikliklərin üçüncü istiqaməti uşağa qulluğa görə müavinət almaq hüququnun tənzimlənməsi ilə bağlıdır. Sənəddə üç yaşınadək uşağa qulluğa görə müavinət almaq üçün ən azı 6 ay sosial sığorta stajının olması təklif edilir. Əlaqəli qanunlarda sosial məzuniyyət və müavinətlə bağlı müddəalar da bu yanaşmaya uyğunlaşdırılır. Bundan başqa, həm hamiləliyə və doğuma görə müavinət, həm də üç yaşınadək uşağa qulluğa görə müavinət bundan sonra sosial sığorta müavinəti kimi təyin edilir və ödənilir. Beləliklə, bu ödəniş sığortaolunanın ödədiyi sosial sığorta haqları ilə birbaşa əlaqələndirilir və vahid sosial sığorta sisteminə daxil olur.

Layihədə əmək məzuniyyəti hüququnun real təminatı istiqamətində təklif olunan dəyişiklikləri diqqətə çatdıran komitə sədri bildirib ki, Əmək Məcəlləsinin 134-cü maddəsində məzuniyyətin başqa vaxta keçirilməsi halları yeni redaksiyada verilir. Eyni zamanda əmək münasibətlərinə xitam verilməsi halı istisna olmaqla, 21 günlük minimum əmək məzuniyyətinin pul kompensasiyası ilə əvəzlənməsinə yol verilmir. Komitə sədri vurğulayıb ki, təqdim olunan layihənin əsas mahiyyəti əmək qanunvericiliyini müasir əmək bazarının reallıqlarına uyğunlaşdırmaq və işçinin hüquqlarını daha etibarlı qorumaqdır.

Sonra layihə ilə bağlı əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Zaur Əliyev çıxış edərək, layihənin üstünlüklərini diqqətə çatdırıb. O bildirib ki, müəyyən fəaliyyət sahələrində qısamüddətli və natamam iş vaxtı ilə çalışan işçilər üçün saatlıq əməkhaqqı sisteminin tətbiqi əməkhaqqı hesablamalarında şəffaflığın artırılmasına imkan yaradacaqdır. Həmçinin layihədə işçilərə ödənilən əməkhaqqı və digər ödənişlərin tamamilə elektronlaşması da əmək münasibətlərində şəffaflığı və nəzarəti gücləndirəcəkdir.

Vurğulanıb ki, layihədə üç yaşınadək uşağa qulluğa görə müavinət almaq üçün sosial sığorta stajının tələb edilməsi sistemin maliyyə dayanıqlığının gücləndirilməsinə, gələcəkdə müavinətin məbləğinin artırılması üçün etibarlı əsasların yaradılmasına xidmət edir. Sənəddə işçilərin əmək məzuniyyətinin pul kompensasiyası ilə əvəzlənməsi və məzuniyyətin başqa vaxta keçirilməsi hallarının dəqiqləşdirilməsi isə istirahət hüququnun real tətbiqində vahid yanaşmanın formalaşmasına imkan verəcək.

Gündəliyin ikinci məsələsi olan Mülki Prosessual Məcəllədə, Miqrasiya Məcəlləsində, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Pasportlar haqqında", "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müflisləşmə və iflas haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı da komitə sədri Musa Quliyev diqqətə çatdırıb.

Layihənin əsas məqsədi dövlət rüsumlarının ödənilməsi və bu ödənişlərdən azadolma hallarının vahid mənbədə - "Dövlət rüsumu haqqında" qanunda təsbit olunmasıdır. Həmçinin sənəddə vətəndaşların bəzi dövlət xidmətləri üzrə əlavə ödənişlərdən azad edilməsi nəzərdə tutulur. Ümumilikdə, təqdim olunan qanun layihəsi dövlət rüsumlarının tənzimlənməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsini, sosial güzəştlərin qorunması və dəqiqləşdirilməsini, texniki səhvlərə görə vətəndaşların əlavə ödənişlərdən azad edilməsini, habelə bəzi dövlət xidmətləri üzrə rüsum güzəştlərinin dəqiqləşdirilməsini nəzərdə tutur.

Müzakirədə komitə sədri Musa Quliyev, komitə üzvləri Vüqar Bayramov, Jalə Əliyeva, Ziyad Səmədzadə, Nigar Məmmədova və Səttar Möhbalıyev çıxış edərək, təklif olunan dəyişikliklərlə bağlı qeyd və suallarını səsləndiriblər.

Deputatların suallarını əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Zaur Əliyev, nazirliyin Əmək siyasəti şöbəsinin müdiri Fuad Heydərov və Dövlət Əmək Müfəttişliyinin rəisi Vəli Quliyev cavablandırıblar.

Sonra gündəlikdəki qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

"Azərbaycan"

Leyla Əliyeva COP31 çərçivəsində Azərbaycan pavilyonunda olub









Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkiyənin Antalya şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində noyabrın 11-də Azərbaycan pavilyonunda olub.

AZƏRTAC xəbər verir ki, pavilyonla tanış olan Leyla Əliyevaya burada nümayiş etdirilən stendlər və təqdim edilən layihələr barədə məlumat verilib. Xatırladaq ki, pavilyonda Azərbaycanın şəhərləri, təbiəti, iqlimi, təhsil və səhiyyə sistemləri, turizm imkanları, nəqliyyat infrastrukturu barədə məlumatlar qabaqcıl texnoloji imkanlar vasitəsilə təqdim olunur. Burada ziyarətçilər Azərbaycanın milli mətbəx nümunələrindən də dadırlar.

Heydər Əliyev Fondu COP31 çərçivəsində pavilyonla təmsil olunur









Heydər Əliyev Fondu Antalyada davam edən COP31 çərçivəsində pavilyonla təmsil olunur.

AZƏRTAC xəbər verir ki, pavilyon Heydər Əliyev Fondu ilə Türkiyənin Sıfır Tullantı Fondunun birgə təşəbbüsü əsasında yaradılıb.

Belə birgə pavilyonun yaradılması ideyası ilk dəfə 2024-cü ildə Bakıda keçirilən COP29 zamanı yaranıb. Həmin konfrans çərçivəsində təşkil edilən pavilyon ən çox ziyarət edilən pavilyonlardan biri olub.

Pavilyonda Heydər Əliyev Fondunun sosial, mədəniyyət, təhsil, səhiyyə, yenidənqurma və bərpa, ətraf mühitin mühafizəsi və digər istiqamətlərdə həyata keçirdiyi layihələr foto və videomateriallar vasitəsilə təqdim olunur.

Burada hər iki fondun fəaliyyətinə dair müxtəlif materiallarla yanaşı, interaktiv layihələr də nümayiş etdirilir.

Qeyd edək ki, COP31-də "Dialoq Dəhlizi" ("Corridor of Dialogue") konsepsiyası əsasında hazırlanan Azərbaycan pavilyonu isə Heydər Əliyev Mərkəzi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə əməkdaşlığı nəticəsində ərsəyə gəlib.

Pavilyon Azərbaycanın beynəlxalq dialoq və əməkdaşlıq üçün platformalar yaratmaq ənənəsini davam etdirir. Burada əsas diqqət əldə edilən razılaşmaların dialoq vasitəsilə konkret nəticələrə və praktik əməkdaşlığa çevrilməsi imkanlarına yönəldilir.

Leyla Əliyeva "Qlobal Sıfır Tullantı Alyansı - Dövlət və Hökumət Başçılarının Həyat Yoldaşlarının Yüksəksəviyyəli Toplantısı"nda iştirak edib



Noyabrın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkiyənin Antalya şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində təşkil olunan "Qlobal Sıfır Tullantı Alyansı - Dövlət və Hökumət Başçılarının Həyat Yoldaşlarının Yüksəksəviyyəli Toplantısı"nda iştirak edib.

AZƏRTAC xəbər verir ki, toplantıda iqlim böhranına qarşı mübarizədə konkret fəaliyyət mexanizmləri, sıfır tullantı siyasətinin təşviqi, tullantıların idarə olunmasında beynəlxalq təcrübə mübadiləsi, ölkələr arasında birgə ekoloji layihələrin hazırlanması və yerli təşəbbüslərin qlobal səviyyədə genişləndirilməsi məsələləri diqqət mərkəzində olub.

Tədbirdə çıxış edən Türkiyə Prezidentinin xanımı Əminə Ərdoğan Qlobal Sıfır Tullantı Alyansı vasitəsilə ölkələrin uğurlu təcrübələrini bölüşdüyü, birgə layihələr hazırladığı və yerli həll yollarını qlobal miqyasda yaymaq üçün güclü əməkdaşlıq platforması yaratmağı hədəflədiklərini bildirib.

Qobustanın Təklə kəndi ərazisində mindən çox şam ağacı əkilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl Marafon" kütləvi ağacəkmə kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyası təşkil edilib.



AZƏRTAC xəbər verir ki, Qobustan rayonunun Təklə kəndi ərazisində keçirilən aksiyada IDEA könüllülərinin iştirakı ilə 1000-dən çox şam ağacı əkilib.

Kampaniya çərçivəsində təşkil olunan ağacəkmə aksiyalarında hər bir regionun torpaq-iqlim şəraitinə uyğun olaraq ərik, iydə, şam, fıstıq, sərv, akasiya, ağcaqayın, göyrüş, qoz, palıd və şabalıd cinsindən olan ağaclar əkilir.

Qeyd edək ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun ("Yaşıl Marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə, eləcə də yaşıllıqların qorunması ilə bağlı maarifləndirmə işlərinə töhfə verməkdir.

"Yaşıl Marafon" çərçivəsində 2026-cı ilin payız və 2027-ci ilin yaz əkin mövsümləri ərzində ölkə üzrə 2 milyondan çox ağacın əkilməsi nəzərdə tutulur.

Beynəlxalq iqlim gündəliyində növbəti səhifə - COP31:
Türkiyə ev sahibi, Azərbaycan fəal iştirakçıdır

İqlim dəyişmələrinin təsirinin artdığı, ətraf mühitin qorunması və dayanıqlı inkişafın getdikcə daha çox əhəmiyyət qazandığı bir zamanda beynəlxalq əməkdaşlığın rolu get-gedə artır. İqlim böhranı ilə mübarizə artıq ayrı-ayrı ölkələrin deyil, bütün dünyanın ortaq məsuliyyətinə çevrilib. Bu baxımdan, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) qlobal iqlim gündəliyinin formalaşdığı, mühüm qərarların müzakirə edildiyi əsas beynəlxalq platformadır.

Noyabrın 9-dan başlayaraq 20-dək Türkiyənin Antalya şəhərində davam edəcək COP31 qlobal iqlim gündəliyində önəmli hadisədir. Tədbirin Türkiyədə təşkili ölkənin beynəlxalq iqlim müzakirələrində rolunu artırmaqla yanaşı, regionun ekoloji problemlərinin və enerji təhlükəsizliyi məsələlərinin də diqqət mərkəzinə gətirilməsi baxımından əhəmiyyətlidir. Məlumdur ki, Aralıq dənizi hövzəsində yerləşən Türkiyə iqlim dəyişmələrinin təsirlərini, o cümlədən quraqlıq, meşə yanğınları və su ehtiyatları ilə bağlı problemləri yaxından hiss edən ölkələrdəndir.

Bu baxımdan, COP31-in miqyası və qarşıya qoyulan hədəflər diqqət çəkir. Sammit Türkiyənin Antalya şəhərində yerləşən Ekspo Mərkəzində keçirilir. Ümumilikdə 1,1 milyon kvadratmetr ərazini əhatə edən məkan Mavi və Yaşıl zonalara bölünüb. Mavi Zona rəsmi danışıqların və dövlətlərarası müzakirələrin aparıldığı, Yaşıl Zona isə müxtəlif təşəbbüslərin, innovativ həllərin və ictimai iştirakın təqdim olunduğu platformadır.

Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişmələri naziri Murat Kurumun sədrliyi ilə keçirilən sammitdə əsas məqsəd iqlim sahəsində qəbul edilən qərarların real fəaliyyətə çevrilməsinə nail olmaqdır. Təsadüfi deyil ki, Türkiyə COP31-i "İcra COP-u" kimi təqdim edir. Bu yanaşma iqlim öhdəliklərinin konkret layihələr və praktiki addımlarla dəstəklənməsini nəzərdə tutur.

COP31-in beynəlxalq miqyası iştirakçıların sayı və təmsilçilik səviyyəsində də özünü göstərir. Antalya şəhərində keçirilən sammitdə iştirak etmək üçün 95 mindən çox nümayəndə rəsmi qeydiyyatdan keçib. Onlardan 92 mindən çoxu tədbirə əyani, 3 mindən çoxu isə onlayn formatda qatılır. Ev sahibi ölkənin proqnozlarına görə, Yaşıl Zona ziyarətçiləri də nəzərə alınmaqla, qarşıdakı günlərdə konfransın ümumi iştirakçı sayının 100 minə çatacağı gözlənilir. İştirakçıların tərkibi sammitin geniş beynəlxalq əhatəsini göstərir.

Ölkələrin nümayəndə heyətlərinin sayına gəldikdə, ən geniş tərkiblə ev sahibi Türkiyə təmsil olunur. Belə ki, Türkiyənin nümayəndə heyətində 2950 nəfər yer alır. Bu göstərici ilə Braziliya 1994 nəfərlə ikinci, Nigeriya 1506 nəfərlə üçüncü, Çin 1021 nəfərlə dördüncü, İndoneziya isə 978 nəfərlə beşinci sırada qərarlaşıb. Rəqəmlər COP31-in dövlətlərin, beynəlxalq təşkilatların və müxtəlif tərəfdaşların fəal iştirak etdiyi genişmiqyaslı qlobal platforma olduğunu göstərir.

Qeyd edək ki, COP31-in Türkiyədə keçirilməsi ölkə üçün beynəlxalq nüfuzun möhkəmləndirilməsi ilə yanaşı, iqtisadi və ekoloji prioritetlərin irəli aparılması baxımından da əhəmiyyətlidir. Sammit Türkiyəyə qlobal iqlim diplomatiyasında mövqeyini gücləndirmək, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığı genişləndirmək imkanı yaradır. Tədbirin ölkəyə çoxsaylı xarici nümayəndə və qonaq cəlb etməsi turizm, nəqliyyat, yerləşdirmə və xidmət sektorlarında iqtisadi fəallığın artmasına təkan verir. Üstəlik, COP31 Türkiyənin özünün "yaşıl transformasiya" hədəflərini və 2053-cü ilədək karbon neytrallığına nail olmaq strategiyasını beynəlxalq ictimaiyyətə təqdim etməsi üçün geniş meydandır.

Azərbaycan COP31-də "Dialoq Dəhlizi" ("Corridor of Dialogue") konsepsiyası əsasında hazırlanan pavilyonla təmsil olunur. Heydər Əliyev Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə əməkdaşlığı ilə yaradılan pavilyon ölkəmizin həm "yaşıl enerji" potensialını, həm də beynəlxalq dialoq və əməkdaşlıq təşəbbüslərini nümayiş etdirir. Ümumi sahəsi 244 kvadratmetr olan pavilyonda iki həftə ərzində 40-dan çox tədbir, dialoq və görüşün keçirilməsi nəzərdə tutulur. Burada Azərbaycanın bərpaolunan enerji sahəsində həyata keçirdiyi layihələr, "yaşıl enerji" dəhlizlərinin inkişafı, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialı, eləcə də Xəzər dənizinin ekoloji mühafizəsi ilə bağlı təşəbbüslər təqdim olunur.

"Dialoq Dəhlizi" pavilyonu Azərbaycanın COP29-dan sonra da qlobal iqlim gündəliyində fəal iştirakını davam etdirdiyini, "yaşıl enerji" və ekoloji əməkdaşlıq sahəsində regional və beynəlxalq təşəbbüslərə töhfə vermək niyyətini nümayiş etdirir. Yeri gəlmişkən, qlobal tədbirin açılış mərasimində Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişmələri naziri Murat Kurum və COP30-un prezidenti Andre Korrea do Laqonun Azərbaycanın beynəlxalq iqlim əməkdaşlığına verdiyi töhfələri və dəstəyini xüsusi qeyd etməsi də ölkəmizin bu prosesdəki iştirakına verilən diqqətin göstəricisidir.

COP31-in yaratdığı beynəlxalq imkanlar və əməkdaşlıq platforması tədbirdə iştirak edən ölkələr, o cümlədən Azərbaycan üçün də yeni perspektivlər açır. COP31 çərçivəsində keçirilən ən mühüm tədbirlərdən biri isə dünya liderlərinin iştirakı ilə təşkil olunan İqlim Fəaliyyəti Zirvəsidir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının ilkin məlumatlarına və "Carbon Brief" nəşrinin təhlillərinə əsasən, Liderlər Sammitində altı qitəni təmsil edən 95 ölkənin dövlət və hökumət başçıları, eləcə də 7 beynəlxalq təşkilatın rəhbəri olmaqla, ümumilikdə 102 lider iştirak edir. Bununla yanaşı, tədbirə 300-dən çox nazir və 34 mindən artıq rəsmi ölkə nümayəndəsi qatılıb.

Prezident İlham Əliyevin bu Zirvədə iştirakı ölkəmizin qlobal iqlim gündəliyinə verdiyi önəmin və beynəlxalq əməkdaşlıqda iştirakının davamlı xarakter daşıdığını göstərir. Xüsusilə COP29-a evsahibliyi etmiş Azərbaycanın təcrübəsi, "yaşıl enerji" sahəsində həyata keçirdiyi layihələr və regional enerji bağlantılarının inkişafı istiqamətindəki təşəbbüsləri belə yüksəksəviyyəli müzakirələr üçün aktual mövzulardır.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"



Azərbaycan-Türkiyə: sarsılmaz birlik, əbədi qardaşlıq, ortaq maraq

Azərbaycan və Türkiyə əlaqələri tarixboyu müxtəlif mərhələlərdən keçərək bugünkü strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş, ortaq tarixə, milli-mənəvi dəyərlərə, qarşılıqlı etimada, strateji maraqlara əsaslanan sarsılmaz münasibətdir, nadir qardaşlıq nümunəsidir. Bu münasibətlər Azərbaycan və Türkiyə ilə yanaşı, bütövlükdə regionun və TDT-nin siyasi-iqtisadi, mədəni həyatında əhəmiyyətli rol oynayır.

Son dövrlər müəyyən bədxah qrupların iki ölkə arasında məqsədli kampaniya apararaq bu münasibətlərə xələl gətirmək cəhdlərinə ən tutarlı cavab isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 8 Noyabr - Zəfər Günündə Azərbaycana, ardınca Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının - COP31-in Liderlər Sammitində iştirak etmək üçün Türkiyəyə səfəri oldu. Zəfər Günündə Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağdan - Şuşadan verdikləri bəyanatlar iki qardaş ölkə arasındakı münasibətlərin mövcud vəziyyəti ilə yanaşı, həm də gələcək inkişaf istiqamətlərini aydın şəkildə ortaya qoydu. Hər iki dövlət başçısı Azərbaycan-Türkiyə birliyinin möhkəmliyini vurğulayaraq bu münasibətləri zəiflətmək cəhdlərinin nəticəsiz qalacağına dair qətiyyətli mövqe nümayiş etdirdilər. Bir daha sübut olundu ki, Türkiyənin və Azərbaycanın ali rəhbərliyi üçün də iki qardaş ölkə arasındakı strateji müttəfiqlik münasibətlərinin qorunması son dərəcə vacibdir.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin tarixi əsaslarına toxunaraq bu birliyin sarsıdılmasına yönələn cəhdlərə belə münasibət bildirdi: "Türkiyə və Azərbaycan xalqları qardaş xalqlardır və dəfələrlə demişəm ki, dünyada bizim qədər bir-birinə bağlı olan xalqlar da yoxdur, dövlətlər də yoxdur. Bu, bizim böyük sərvətimizdir. Bizim birliyimiz, qardaşlığımız sarsılmazdır. Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaqlar".

Prezident İlham Əliyevin çıxışının davamında səsləndirdiyi fikirlər də olduqca əhəmiyyətli idi. Azərbaycan Prezidenti bəyan etdi ki, Azərbaycan və Türkiyə liderləri bu tarixi sərvəti qoruyur və heç kimə şəxsi maraqları naminə iki ölkənin qardaşlığına və həmrəyliyinə kölgə salmağa imkan verməyəcəklər. Bu bəyanat mahiyyətcə belə bir həqiqəti ortaya qoyur ki, Azərbaycan-Türkiyə münasibətləri ayrı-ayrı siyasi dairələrin mövqeyindən, informasiya mühitində yaranan müvəqqəti fikir ayrılıqlarından daha möhkəm tarixi-strateji təmələ, gələcəyə birgə strateji baxışa malikdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da eyni məzmunda mesaj verdi və xüsusi vurğuladı ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər tarixin müxtəlif sınaqlarından keçərək bugünkü yüksək səviyyəyə çatmışdır: "Bir millət, iki dövlət" şüarı ilə tərif etdiyimiz bu könül birliyi ortaq keçmişimizdən aldığı güclə sabahlarımıza işıq tutan sönməz bir məşəldir. Qardaşlığımız ortaq dilin, tarixin və mədəniyyətin daha çox fövqündədir. Bakının sevincini Ankaranın sevinci, Şuşanın qürurunu bütün millətimizin qüruru bilməyimiz bundan irəli gəlir". Türkiyə lideri daha sonra Şuşa Bəyannaməsi ilə rəsmiləşmiş müttəfiqliyin tarixi əhəmiyyətini xatırladaraq iki ölkənin qardaşlığını zəiflətmək istəyənlərin məqsədlərinə nail ola bilməyəcəklərini bildirdi.

Beləliklə, Şuşada verilən bəyanatların ən mühüm siyasi məqamlarından biri hər iki dövlət başçısının münasibətlərə zərər vura biləcək cəhdlərə qarşı ortaq mövqe nümayiş etdirməsi oldu. Prezidentlərin açıqlamaları həm Azərbaycan və Türkiyə ictimaiyyətinə, həm də regiondakı prosesləri izləyən beynəlxalq dairələrə ünvanlanmış aydın mesaj idi: iki ölkə arasındakı strateji müttəfiqlik sarsılmazdır və tərəflər bu münasibətlərin qorunmasında qərarlıdırlar. Cənab Rəcəb Tayyib Ərdoğanın səfərdən sonra - noyabrın 9-da jurnalistlərə açıqlamasında Azərbaycanla Türkiyənin sevincdə də, kədərdə də bir ürək olan iki qardaş dövlət olduğunu vurğulaması Şuşada səsləndirilən fikirlərin davamı idi.

Əbədi birlik

Türkiyə Prezidentinin Şuşaya səfərinin Zəfər Gününə təsadüf etməsi də xüsusi rəmzi əhəmiyyət daşıyırdı. 6 il əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Qarabağı və Şərqi Zəngəzuru erməni işğalçılarından azad etdi. 44 gün ərzində qardaş Türkiyə hər an Azərbaycanın yanında oldu, siyasi və mənəvi dəstəyini açıq ifadə etdi. Prezident İlham Əliyev Şuşadakı çıxışında bu tarixi məqamı xüsusi xatırladaraq müharibənin ilk saatlarında Rəcəb Tayyib Ərdoğanın səsləndirdiyi "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözlərinin heç vaxt unudulmayacağını bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Türkiyə Prezidentinin sıx qrafikinə baxmayaraq, Zəfər Günündə Qarabağda olması bütün dünyaya bizim birliyimizi bir daha göstərir: "Əminəm ki, bu birlik əbədi olacaq. Bilirəm ki, heç kimdə - nə Türkiyədə, nə Azərbaycanda bununla bağlı şübhə yoxdur. Biz keçmişdə də bir yerdə olmuşuq, müharibə dövründə də bir yerdə idik, bu gün də bir yerdəyik və gələcəkdə də bir yerdə olacağıq. Hesab edirəm ki, bu tarixi səfərin əsas nəticəsi məhz budur.

Təbii ki, ikitərəfli əlaqələr haqqında danışarkən bir çox məsələlər haqqında danışa bilərik. Bütün bu məsələlər bəllidir, siyasi, iqtisadi əlaqələr, sərmayə qoyuluşu, enerji, nəqliyyat dəhlizləri, Zəngəzur dəhlizi - bütün bunlar bu gün geniş müzakirə olundu. Amma hesab edirəm ki, səfərin əsas nəticəsi məhz dediyim kimidir: "Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır".

Bu fikirlər Azərbaycan-Türkiyə münasibətlərinin mahiyyətini anlamaq baxımından çox mühüm önəm daşıyır. İki qardaş ölkə arasındakı münasibətlər yalnız siyasi bəyanatlardan, ənənəvi diplomatik münasibətlərdən ibarət deyil. Bu birlik çətin tarixi məqamlarda nümayiş etdirilən qarşılıqlı dəstək, xalqların mənəvi bağlılığı və ortaq maraqlar üzərində formalaşıb. Bu baxımdan cənab Rəcəb Tayyib Ərdoğanın Qarabağ Zəfərini bütün türk dünyasının qürur mənbəyi kimi xarakterizə etməsi təsadüfi deyildi.

Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü səviyyəsini müəyyən edən əsas sənədlərdən biri 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsidir. Bu sənəd ölkələrimiz arasında tərəfdaşlığı rəsmən müttəfiqlik səviyyəsinə yüksəldərək siyasi, hərbi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə münasibətlərin inkişafı üçün hüquqi-strateji əsas yaradıb. Prezident İlham Əliyev Şuşadakı bəyanatında bu məqama toxunaraq iki xalqın tarixən müttəfiq olduğunu, Şuşa Bəyannaməsinin isə həmin qardaşlığı rəsmi çərçivəyə saldığını bildirdi.

Bu gün Azərbaycan və Türkiyə arasında əlaqələr bütün sahələri əhatə edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələr iki ölkənin strateji tərəfdaşlığının regional və beynəlxalq əhəmiyyətini göstərir. Enerji təhlükəsizliyi, nəqliyyat-logistika imkanlarının genişləndirilməsi, qarşılıqlı sərmayələr, ticarət əlaqələri bu əməkdaşlığın iqtisadi əsaslarını daha da möhkəmləndirməkdədir. Şuşadakı görüşlərdə Zəngəzur dəhlizi, (TRIPP) nəqliyyat bağlantıları və digər regional məsələlərin müzakirə olunması da uzunmüddətli strateji hədəflərin tərəflər üçün mühüm əhəmiyyət daşıdığını göstərdi.

Eyni zamanda işğaldan azad edilmiş Azərbaycan ərazilərində aparılan bərpa-quruculuq işlərində Türkiyənin iştirakı münasibətlərin mühüm istiqamətlərindəndir. Bu layihələr iki ölkə arasında müttəfiqliyin konkret nəticələrini əks etdirməklə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun iqtisadi-sosial həyatının dirçəldilməsinə də töhfə verir.

Regional sülh və türk dünyasının gələcəyi

Azərbaycan və Türkiyə arasında strateji müttəfiqlik Cənubi Qafqazın gələcəyi üçün də vacib amildir. Azərbaycanın 2020-ci ildə qazandığı qələbədən sonra regionda yaranmış yeni siyasi reallıqlar sülh, təhlükəsizlik və əməkdaşlıq üçün real imkanlar açıb. Cənab İlham Əliyev qeyd etdi ki, Türkiyənin güclü iqtisadiyyatı, güclü sənaye potensialı, siyasi çəkisi bu gün reallıqdır və bizi çox sevindirir, gücləndirir: "Azərbaycan da son illər ərzində böyük inkişaf yolu keçmişdir və bu gün bu yolla inamla irəliləyir. Biz birlikdə daha da güclüyük. Böyük coğrafiyanı əhatə edən ərazidə Türkiyə-Azərbaycan birliyi önəmli bir amildir. Bu, sabitlik, istiqrar, əməkdaşlıq, təhlükəsizlik amilidir".

Prezident İlham Əliyev Şuşadakı bəyanatında Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin davam etdiyini, sülh sazişinin paraflanmasına baxmayaraq, Türkiyə və Azərbaycan ictimaiyyətinə bəlli səbəblərdən yekun imzanın hələ atılmadığını bildirdi, eyni zamanda bu prosesin konkret nəticələr verəcəyinə ümidli olduğunu vurğuladı.

Türkiyə Prezidenti isə Azərbaycanın regional sülhün təmin olunmasına yönəlmiş səylərini dəstəklədiklərini ifadə etdi, qarşıda duran əsas vəzifənin əldə olunmuş nəticələri dayanıqlı sülh və sabitliklə möhkəmləndirmək olduğunu diqqətə çatdırdı. Bu məqam Azərbaycan-Türkiyə münasibətlərinin daha geniş geosiyasi əhəmiyyətini ortaya qoyur. Başqa sözlə, iki güclü dövlətin əməkdaşlığının nəqliyyat əlaqələrinin inkişafı, iqtisadi inteqrasiya və regional təhlükəsizlik baxımından mühüm imkanlar yaratdığını təsdiqləyir.

Azərbaycan və Türkiyənin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyəti də ortaq strateji maraqların mühüm istiqamətlərindəndir. Prezident Rəcəb Tayyib Ərdoğanın Şuşadakı bəyanatındakı türk dünyasının inteqrasiyasına xüsusi yer ayırması iki ölkənin münasibətlərinin daha geniş coğrafiyanı əhatə edən əməkdaşlıq perspektivlərinə malik olduğunu göstərir.

Şuşadan Antalyaya - yüksəksəviyyəli siyasi dialoqun davamı

Azərbaycan və Türkiyə arasında strateji müttəfiqliyin möhkəmliyini nümayiş etdirən növbəti mühüm hadisə Şuşa görüşündən cəmi iki gün sonra baş verdi. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının - COP31-in Liderlər Sammitində iştirak etmək üçün Türkiyəyə səfər etdi. Antalyada keçirilən COP31 çərçivəsində Liderlər Sammiti Azərbaycan-Türkiyə əməkdaşlığının yeni istiqamətlərini ön plana çıxarır. Azərbaycanın 2024-cü ildə COP29-a evsahibliyi etməsi və Türkiyənin COP31-ə sədrliyi iki ölkənin iqlim diplomatiyası, "yaşıl enerji", ekoloji dayanıqlılıq və beynəlxalq əməkdaşlıq sahələrində təcrübə mübadiləsi aparması üçün əlavə imkanlar yaradır. Bu baxımdan Şuşa və Antalya səfərləri vahid diplomatik ardıcıllığın iki mühüm hadisəsi kimi diqqət çəkir. Şuşada ortaq tarix, strateji müttəfiqlik və regional təhlükəsizlik məsələləri ön plana çıxdığı halda Antalya səfəri beynəlxalq iqlim gündəliyi çərçivəsində yüksəksəviyyəli əməkdaşlığın davamını əks etdirir.

Bütün bunlar isə o deməkdir ki, Azərbaycan və Türkiyə arasındakı münasibətlərin ən mühüm xüsusiyyəti onların təkcə tarixi bağlılığa deyil, eyni zamanda müasir dövrün siyasi və iqtisadi reallıqlarına əsaslanmasıdır. İki ölkəni ortaq keçmişlə yanaşı, regional təhlükəsizlik, enerji, nəqliyyat, ticarət, investisiya və beynəlxalq əməkdaşlıq sahələrində geniş strateji maraqlar birləşdirir.

Bu gün dünya sürətlə dəyişir, beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzləri formalaşır və tarixin axarı yenidən yazılır. Belə bir mürəkkəb və həlledici dövrdə Azərbaycan-Türkiyə birliyi həm də bütün regionun sabitlik, sülh və rifah sütunudur. Bu ittifaq nə konyunktur maraqlara, nə də müvəqqəti siyasi hədəflərə söykənir, onun kökündə xalqlarımızın sarsılmaz iradəsi və əsrlərin sınağından çıxmış böyük bir sevgi dayanır. Belə bir birlik bu gün olduğu kimi, sabah da türk dünyasının yüksəlişinə, Avrasiyada ədalətli sülhün bərqərar olmasına və xalqlarımızın əbədi rifahına xidmət edəcəkdir.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Azərbaycan-Türkiyə müttəfiqliyinin sarsılmazlığı bir daha təsdiq olundu

Azərbaycan və Türkiyə "bir millət iki dövlət"dir. Eyni soy-kökə, dəyərlərə, ənənələrə sahib olan xalqlarımız müasir dövrdə daha da sarsılmaz birlik nümayiş etdirirlər. Bu birlik dövlət səviyyəsində də ifadə olunur. Zəfər Günündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana - Qarabağa səfəri, bu bayramı xalqımızla birlikdə qeyd etməsi qardaşlığımızın parlaq göstəricisidir.



Milli Məclisin deputatı Samir VƏLİYEV qəzetimizə açıqlamasında dedi ki, hər iki xalq ortaq soy-kökə, bənzər adət-ənənələrə və milli-mənəvi irsə malik olmaqla yanaşı, zamanın sınaqlarından çıxaraq dostluq və qardaşlıq münasibətlərini bu gün də eyni sədaqətlə yaşatmaqda davam edir: "Azərbaycan və Türkiyə geosiyasi baxımdan mühüm regionlarda yerləşməklə qlobal təhlükəsizlik, enerji layihələri və iqtisadi əməkdaşlıq sahələrində strateji tərəfdaş kimi çıxış edirlər. Eyni zamanda hər iki dövlət türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsində fəal rol oynayır, ortaq layihələr və təşəbbüslərlə bu birliyin gələcək inkişafına töhfə verir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın 8 Noyabr - Zəfər Gününün altıncı ildönümündə Qarabağa səfəri Azərbaycan-Türkiyə münasibətlərinin strateji mahiyyətini nümayiş etdirən mühüm siyasi və diplomatik hadisədir. Bu səfər təkcə iki ölkə arasında qardaşlıq münasibətlərinin ifadəsi deyil, həm də Cənubi Qafqazın gələcək geosiyasi mənzərəsinə ünvanlanan mühüm mesajdır".

S.Vəliyevin fikrincə, səfərin məhz Şuşada və Zəfər Günündə keçirilməsi xüsusi rəmzi məna daşıyır. Şuşa Azərbaycan xalqının tarixi yaddaşının, milli iradəsinin və Zəfərinin simvoludur. Türkiyə Prezidentinin bu əlamətdar gündə Prezident İlham Əliyevlə birlikdə Qarabağda olması rəsmi Ankaranın Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və milli maraqlarına verdiyi dəstəyin növbəti təzahürüdür. Eyni zamanda bu, 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsinin ruhuna və strateji müttəfiqlik prinsipinə sadiqliyin nümayişidir.

Deputat qeyd etdi ki, digər mühüm amil Azərbaycan-Türkiyə münasibətlərinin yalnız siyasi və diplomatik müstəvidə deyil, müdafiə, təhlükəsizlik, iqtisadiyyat, enerji, nəqliyyat və regional kommunikasiya sahələrində də dərinləşdirilməsidir: "Hesab edirəm ki, bu səfər iki ölkə arasında mövcud əməkdaşlığın yeni mərhələyə yüksəldilməsi üçün əlavə imkanlar yaradacaq. Xüsusilə hərbi-texniki əməkdaşlığın genişləndirilməsi, müdafiə sənayesi sahəsində birgə layihələrin həyata keçirilməsi və enerji təhlükəsizliyi məsələlərində koordinasiyanın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır".

S.Vəliyevin sözlərinə görə, Prezident Ərdoğanın Şuşaya səfəri Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin sarsılmazlığını təsdiqləyən, regionda yeni geosiyasi və geoiqtisadi imkanların formalaşmasına dəstək verən mühüm hadisədir. Bu səfər göstərir ki, Azərbaycan və Türkiyə yalnız keçmişin ortaq tarixi ilə deyil, həm də gələcəyə dair strateji baxışları ilə bir-birinə bağlıdır. "Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün təkcə dövlətlərarası əməkdaşlıq müstəvisində deyil, xalqlar arasında da səmimi dostluq və qarşılıqlı etimada əsaslanır. Məhz bu qardaşlıq və birlik ruhu Azərbaycan ilə Türkiyəni təkcə regionda deyil, bütün dünyada nümunəvi dövlətlərdən birinə çevirib. Hər iki lider Şuşadan birlik və qardaşlığımızın sarsılmazlığının mesajını verdi. Bəyan olundu ki, heç bir qüvvə bu birliyimizi poza bilməz. Azərbaycan-Türkiyə qardaşlığı möhkəm təməllərə əsaslanır. Səfər zamanı liderlər həmçinin Şuşa şəhərində görülən işlərlə tanış oldular, Xocalı Soyqırımı Memorialını, Xankəndi şəhərində Zəfər abidəsini ziyarət etdilər", - deyə o bildirdi.

Bu gün iki ölkə arasında enerji, nəqliyyat və ticarət sahələrində də əlaqələrin uğurla davam etdirildiyini deyən deputat vurğuladı ki, 2000-ci illərdə həyata keçirilən iri enerji və infrastruktur layihələri, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu, daha sonra "Cənub qaz dəhlizi" Azərbaycanın Avropaya enerji ixracını təmin etməklə yanaşı, Türkiyəni regionda mühüm enerji tranzit mərkəzinə çevirib: "Bu əməkdaşlıq hər iki ölkənin iqtisadi dayanıqlılığını və regional mövqeyini gücləndirib. Bununla yanaşı, hərbi sahədə də tərəfdaşlıq möhkəm təməl üzərində qurulub. 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı dəstəkləməsi isə iki ölkə arasındakı siyasi münasibətləri daha da möhkəmləndirib. 2021-ci ilin iyun ayında liderlər tərəfindən imzalanmış müttəfiqlik haqqında Şuşa Bəyannaməsi isə münasibətlərimizin zirvəsini təşkil edir".

S.Vəliyev qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında hərbi və təhlükəsizlik sahəsində qurulan əməkdaşlıq yalnız iki ölkənin milli maraqları çərçivəsində deyil, bütövlükdə, regionun sabitliyinin, təhlükəsizliyinin təmin olunması baxımından da xüsusi önəm daşıyır. Bu tərəfdaşlıq əsrlər boyu qardaş xalqlarımızın ortaq iradəsinin və siyasi uzaqgörənliyinin nəticəsi kimi müasir dövrdə yeni məzmun və mahiyyət qazanıb. Prezident Rəcəb Tayyib Ərdoğanın bu səfəri iki qardaş ölkə arasındakı münasibətləri daha da gücləndirəcək.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Abdulkadir URALOĞLU: "Zəngəzur dəhlizinin bütün hissələrinin dörd ildən sonra istifadəyə verilməsi planlaşdırılır "

"Azərbaycan və Türkiyə prezidentlərinin Şuşada verdikləri mesajlar olduqca aydın idi. Onlar bütün dünyaya Türkiyə ilə Azərbaycanın mövqeyini, qardaşlığını və çiyin-çiyinə dayandığını nümayiş etdirdilər. Əslində, dövlət başçılarının çıxışlarından sonra əlavə söz deməyə ehtiyac yoxdur".



AZƏRTAC xəbər verir ki, bu fikirləri **Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir URALOĞLU** Azərbaycan mətbuatına açıqlamasında bildirib.

Nazir vurğulayıb: "Azərbaycan bizim qardaşımızdır və əbədi olaraq qardaşımız kimi qalacaq. Qarabağ uğrunda apardığınız mübarizəni yaxından izləmişik və sizi Zəfər münasibətilə ürəkdən təbrik edirik. Türkiyə Prezidentinin nümayəndə heyəti ilə birlikdə Şuşaya səfəri zamanı aramıza nifaq salmaq istəyənlərə həm Prezident İlham Əliyev, həm də bizim Prezidentimiz çox aydın mesajlar verdilər. Türkiyə və Azərbaycan olaraq bütün sahələrdə əməkdaşlığımızı və bir-birimizi dəstəkləməyi davam etdirəcəyik. İndiyədək aramızda heç bir ayrı-seçkilik olmayıb və bundan sonra da olmayacaq".



Zəngəzur dəhlizi layihəsinə toxunan A.Uraloğlu bildirib ki, dəhliz üzrə işlərin tamamlanması diqqət mərkəzindədir: "Azərbaycanın öz ərazisindəki işləri artıq başa çatdırmaq üzrə olduğunu bilirik və prosesi yaxından izləyirik. Planlaşdırırıq ki, təxminən dörd ildən sonra dəhlizin bütün hissələrini tamamlayaraq istifadəyə verək".

Türkiyəli nazir Türkiyə-Ermənistan sərhəd-keçid məntəqələrinin açılması məsələsinə də münasibət bildirib: "Zaman bizim xeyrimizə işləyir. Ermənistanın müvafiq naziri ilə şəxsən görüşürəm. Həm dəmir yolu, həm də "Əlican" avtomobil yolu sərhəd-keçid məntəqəsinin açılması istiqamətində zəruri hazırlıq işlərini görmüşük. Qarşılıqlı razılıq əldə olunacağı təqdirdə, Azərbaycanın həssas məqamlarını da nəzərə alaraq, bu prosesin çox uzanacağını düşünmürəm. Qısa müddətdə həmin keçidləri də açmış olacağıq".

Konstitusiya Günü: hüquqi ənənələr və gələcəyə baxış

"Konstitusiyamızda dünya konstitusiya təcrübəsindən istifadə olunmuşdur. Ancaq eyni zamanda bizim Konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini, bu gününü və gələcəyini özündə əks etdirir. Bu, heç bir başqa dövlətin Konstitusiyasına bənzəməyən Konstitusiyadır. Bu, bizim özümüzün, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır".

Heydər ƏLİYEV,
Azərbaycan xalqının Ümummilli Lideri

"Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan 1996-cı il 1 noyabr tarixli fərmana əsasən, hər il noyabrın 12-si müstəqil Azərbaycanda Konstitusiya Günü kimi qeyd edilir. Ümummilli Liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanaraq referendum yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası xalqın dövlətçilik iradəsini və suverenliyini əks etdirən fundamental hüquqi sənəddir. Konstitusiyanın qəbul edilməsi demokratik inkişaf, hüquqi dövlətçilik və insan hüquqları sahəsində mütərəqqi dünya təcrübəsinin başlıca nailiyyətlərini özündə ehtiva edən mühüm tarixi hadisədir.

Təsadüfi deyil ki, Əsas Qanunumuzun preambulasında bəyan edilən altı niyyətdən məhz birincisi Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağı hər birimizin vəzifəsi kimi irəli sürmüşdür. Bununla yanaşı, preambulada demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər də bəyan edilmişdir.

Qeyd olunmalıdır ki, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə demokratik dəyərlərə əsaslanan yeni konstitusion quruluşun formalaşdırılması və hüquqi islahatların aparılması zərurəti meydana gəlmişdi. Bununla belə, müstəqilliyin ilk illərində mövcud olan siyasi böhran və daxili qarşıdurmalar, eləcə də xarici təzyiqlər bu mühüm prosesin həyata keçirilməsinə ciddi maneələr törədirdi.

1993-cü ildə xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev zəngin siyasi təcrübəsi və uzaqgörənliyi ilə ölkədə mövcud olan ağır ictimai-siyasi vəziyyəti aradan qaldırmağa, ölkəni vətəndaş müharibəsi təhlükəsindən qurtarmağa və xalqın birliyini təmin etməyə nail oldu. Onun həyata keçirdiyi siyasi strategiya milli həmrəyliyin gücləndirilməsinə, dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə və ölkənin inkişafına şərait yaradan genişmiqyaslı islahatlar aparılmasına yönəlmişdi. Lakin həmin dövrdə qüvvədə olan qanunvericilik sistemi hüquqi dövlət quruculuğunun tələblərinə tam cavab vermir, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsini lazımi səviyyədə təmin etmirdi. Bu səbəbdən qanunvericilik sisteminin müasir tələblərə uyğun formada yenidən qurulması, hüquqi islahatların ardıcıl şəkildə həyata keçirilməsi və dövlətin konstitusion əsaslarını müəyyən edən Əsas Qanunun qəbul edilməsi zəruri bir hal almışdı. Şübhəsiz ki, belə olan halda qarşıda duran ən vacib məsələlərdən biri məhz yeni Konstitusiya layihəsinin hazırlanması və ümumxalq səsverməsinə çıxarılması idi.

Bununla əlaqədar olaraq, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə, Ümummilli Liderimiz Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq edildi. Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirildi. İclasda çıxış edən Ümummilli Lider Heydər Əliyev Azərbaycanın konstitusiya quruculuğu tarixini geniş təhlil etmiş, müstəqilliyin bərpasından sonrakı dövrdə baş verən ictimai-siyasi proseslərə ətraflı şəkildə toxunmuşdur. Ulu Öndər müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasını dövlətçilik tariximizin mühüm hadisəsi kimi səciyyələndirərək söyləmişdir: "Konstitusiya yaratmaq üçün tarixi keçmişimizə nəzər salmalıyıq, eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən istifadə etməli, bəhrələnməliyik. Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, icra, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir".

Nəhayət, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş və 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir. Əsas Qanun preambula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olmaqla, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil dövlətimizdə vətəndaş cəmiyyətinin formalaşması, insanların sağlam və təhlükəsiz yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ bazanın yaradılmasına əsas yaratdı.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasında hakimiyyətin yeganə mənbəyinin xalq olması prinsipi bəyan edildi. Ümumilikdə, Konstitusiyamızın əsasında xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi kimi tanınması, xalqın suverenliyi, vahidliyi, ərazi bütövlüyünün qorunması, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olaraq bəyan edilməsi kimi mütərəqqi ideyalar dayanmışdır. 1995-ci il Konstitusiyası hüquqi dövlət quruculuğunun fundamental prinsiplərini müəyyən etməklə yanaşı, onların müasir hüquqi yanaşmalar əsasında inkişafına da zəmin yaratmışdır. Eyni zamanda Konstitusiyada təsbit olunmuş prinsiplər milli-mənəvi dəyərlər və müasir hüquqi yanaşmalar əsasında inkişaf etdirilərək dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə yönəlmişdir.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Konstitusiyasının əsasını insan şəxsiyyətinə hörmət, insan və vətəndaş hüquq və azadlıqlarının ali dəyər kimi tanınması, onların hüquqi təminat mexanizmlərinin formalaşdırılması təşkil edir. İnsan ləyaqətinə hörmət, təhlükəsiz yaşamaq, azadlıq hüquqları, şəxsi toxunulmazlıq, şərəf və ləyaqətin müdafiəsi hüququ və digər humanizmin təcəssümü olan prinsiplər Əsas Qanunun başlıca mahiyyətini təşkil edir. Bununla bağlı Ümummilli Lider öz çıxışında qeyd etmişdir ki, Konstitusiyanın üçüncü fəsli ilə əhatə olunan 48 maddənin, yəni ümumi mətnin üçdəbirinin insan hüquq və azadlıqlarına həsr edilməsi təsadüfi deyildir. Bu da onu sübut edir ki, bu Konstitusiya ilə insanların azad, sərbəst yaşaması üçün bütün şərait yaradılmış, həm dövlət quruculuğu, həm respublikamızın iqtisadiyyatının qurulmasının əsas prinsipləri, qanunvericilik, icra, məhkəmə hakimiyyətinin səlahiyyətləri və onların müstəqilliyi, qarşılıqlı fəaliyyəti təmin olunmuşdur. Sadəcə, bu, Ümummilli Liderin demokratik dəyərlərə sadiqliyini, insan hüquq və azadlıqlarının qorunmasına verdiyi önəmi, humanist mövqeyini, eləcə də cəmiyyətin inkişafında ümumbəşəri dəyərlərin roluna münasibətini bir daha təsdiqləyir.

Əsas Qanunda insan və vətəndaş hüquq və azadlıqları sistemli şəkildə təsbit olunmuş, həmin hüquq və azadlıqların tanınması və müdafiəsi dövlətin qanunvericilik, icra və məhkəmə hakimiyyəti qollarının əsas konstitusion vəzifəsi kimi müəyyən edilmişdir. Hakimiyyətlərin bölünməsi prinsipinin Konstitusiyada təsbit olunması yeni prinsip və qaydalara uyğun məhkəmə-hüquq sisteminin yaradılması istiqamətində islahatların keçirilməsini zəruri etmişdir. Əsas Qanunda irqindən, cinsindən, milliyyətindən, dinindən, dilindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının qorunması qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qarşısına mühüm vəzifə kimi qoyulmuşdur. Qanunda əks olunan bir sıra müddəalar məhkəmə hakimiyyətinin müstəqilliyinə təminat verərək sonrakı mərhələdə müasir, dövrün tələblərinə cavab verən bir sıra qanunvericilik aktlarının qəbul edilməsinə zəmin yaratmışdır. Həmin dövrdən etibarən həyata keçirilən məhkəmə-hüquq islahatları qanunun aliliyinin təmin edilməsinə, məhkəmələrin nüfuzlu və müstəqil dövlət orqanları kimi formalaşmasına, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, məhkəmə icraatında demokratik prinsiplərin qorunması və şəffaflığın təmin edilməsinə yönəlmişdir.

Vurğulanmalıdır ki, ictimai həyatda baş verən sosial, iqtisadi və siyasi proseslər, dəyişikliklər, eləcə də hüquqi şüurun və hüquqi düşüncənin inkişafı konstitusion normaların təkmilləşdirilməsini və onların müasir dövrün tələblərinə uyğunlaşdırılmasını zəruri etmişdir. Dövlətin əsas qanunu olan Konstitusiya hüquq sisteminin təməlini təşkil etdiyindən onun müddəalarının dəyişən ictimai reallıqlara uyğunlaşdırılması hüquqi dövlət quruculuğunun mühüm şərtlərindən biri hesab olunur.

Bu kontekstdə Azərbaycan Respublikasının Konstitusiyasına 2002-ci il 24 avqust, 2009-cu il 18 mart, 2016-cı il 26 sentyabr ümumxalq səsverməsi əsasında edilmiş əlavə və dəyişikliklər xüsusi əhəmiyyət daşıyır. Konstitusiyaya edilmiş bu əlavə və dəyişikliklər ölkədə gedən ictimai-siyasi proseslərin, hüquqi münasibətlərin inkişafının və dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ehtiyaclarının nəticəsi kimi qiymətləndirilə bilər. Odur ki, Əsas Qanuna edilən əlavə və dəyişikliklər dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və ictimai münasibətlərin konstitusion prinsiplərə uyğun tənzimlənməsi baxımından əhəmiyyətli vasitə kimi çıxış edir.

2002-ci ildə ümumxalq səsverməsi vasitəsilə Azərbaycan Respublikasının Konstitusiyasına edilmiş əlavə və dəyişikliklər konstitusiya ədalət mühakiməsinin inkişafı və insan hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi baxımından mühüm mərhələ olmuşdur. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən bu islahatlar nəticəsində Konstitusiya Məhkəməsinə müraciət etmək səlahiyyətinə malik olan subyektlərin dairəsi genişləndirilmiş, konstitusiya nəzarətinin əlçatanlığının artırılması istiqamətində əhəmiyyətli hüquqi zəmin yaradılmışdır. Həmin islahatların davamı olaraq qəbul edilmiş "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının yeni qanununun 2004-cü il yanvarın 8-də qüvvəyə minməsi konstitusiya hüquqpozmalarına qarşı müdafiə vasitələrinin inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur. Bununla da Azərbaycanda konstitusiya şikayəti institutu formalaşmış, eyni zamanda İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) və məhkəmələrin müəyyənləşdirilmiş qaydada birbaşa Konstitusiya Məhkəməsinə müraciət etməsi üçün hüquqi imkanlar yaradılmışdır.

Qeyd olunmalıdır ki, Konstitusiyanın qanunvericilik sistemində yerinin müəyyən edilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Belə ki, Konstitusiyanın 147-ci maddəsinə uyğun olaraq, Konstitusiya Azərbaycan Respublikasında qanunvericilik sisteminin əsası olmaqla ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Əsas Qanunun 148-ci maddəsi ilə normativ-hüquqi aktların iyerarxiyası təsbit edilərkən də ilk pillədə Konstitusiya müəyyən edilmişdir.

Bu səbəbdən Konstitusiyada nəzərdə tutulan əsas insan hüquq və azadlıqlarının müdafiəsi, habelə onların təmin edilməsinə yönəlmiş konstitusion prinsiplərə riayət olunmasına nəzarət mexanizminin formalaşdırılması mühüm əhəmiyyət kəsb edirdi. Bu zərurət Konstitusiyanın aliliyini təmin edən, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə edən ali konstitusiya ədalət mühakiməsi orqanının - Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin yaradılması ilə nəticələndi. Ölkəmizdə Konstitusiya Məhkəməsi simasında konstitusiya nəzarəti orqanının fəaliyyətə başlaması, eyni zamanda bu orqanın müstəqilliyinin təmin edilməsi və ümumilikdə konstitusionalizm ideyalarının inkişaf etdirilməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının "Keçid müddəaları" hissəsinin 11-ci bəndində Konstitusiya Məhkəməsinin yaradılmalı olması göstərilmişdi. Bu müddəaya uyğun olaraq, 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 1998-ci il iyulun 14-də Azərbaycanda ali konstitusiya ədalət mühakiməsini həyata keçirən orqan kimi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi rəsmi fəaliyyətə başlamışdır. Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquq sistemimizin inkişafında və Konstitusiyanın birbaşa tətbiqinin təmin olunmasında mühüm rolu dövlətimizin başçısı tərəfindən də vurğulanmışdır. Prezident İlham Əliyev bu barədə bildirmişdir: "Ali konstitusiya ədalət mühakiməsi orqanı qismində Konstitusiya Məhkəməsi ölkəmizin hüquq sisteminin inkişafına öz töhfəsini verir, hüquqi tənzimləmə məsələləri üzrə müsbət təcrübə formalaşdırır, konstitusiya nəzarəti funksiyalarını yerinə yetirməklə Konstitusiyanın birbaşa tətbiqini həyata keçirir. Universal dəyərlərə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası bu gün də böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının firavanlığına xidmət edir".

Bu qiymətləndirmə Konstitusiya Məhkəməsinin qərarlarında müəyyən etdiyi hüquqi mövqelərdə də əksini tapır. Konstitusiya Məhkəməsinin fəaliyyəti dövründə qəbul edilmiş qərarlar ölkənin hüquq sisteminin inkişafına mühüm töhfə vermişdir. Həmin qərarlarda Konstitusiyanın fundamental prinsipləri, onun ali hüquqi qüvvəsi və birbaşa tətbiqi, eləcə də insan hüquq və azadlıqlarının üstünlüyü əsas götürülərək əhəmiyyətli hüquqi mövqelər müəyyən edilmişdir. Bu baxımdan cari il ərzində Məhkəmənin Plenumu tərəfindən qəbul edilən bəzi qərarların təhlilini zəruri hesab edirəm.

Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 14.2 və 228.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2026-cı il 23 yanvar tarixli qərarı cinayət qanunvericiliyinin tətbiqində hüquqi müəyyənlik və ədalət prinsiplərinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edilməsinin əsas səbəbi Cinayət Məcəlləsinin 228.1-ci maddəsinə uyğun olaraq, az sayda, xüsusilə bir və ya iki ədəd döyüş sursatını qanunsuz əldə etmə, başqasına vermə, saxlama, daşıma və ya gəzdirmə ilə bağlı əməllərin cinayət hesab olunmasında məhkəmə təcrübəsində fərqli yanaşmaların mövcudluğu olmuşdur.

Məhkəmə qərarda qeyd etmişdir ki, hər hansı əməlin cinayət hesab edilməsi üçün onun Cinayət Məcəlləsində ayrı-ayrı cinayətlərlə bağlı müəyyən edilmiş tərkib əlamətlərini daşıması ilə yanaşı, eyni zamanda ictimai təhlükəli olması da tələb olunur. Yəni ictimai təhlükəlilik cinayət anlayışının müəyyənedici elementlərindən biri kimi çıxış edir. Cinayət Məcəlləsinin 14.2-ci maddəsində də göstərilmişdir ki, cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

Qərarda göstərilmişdir ki, az əhəmiyyətli əməllər elə əməllərdir ki, onlar məhz ictimai təhlükəlilik xüsusiyyətinə malik olmadıqlarına görə cinayət anlayışı ilə əhatə edilmirlər. İctimai təhlükənin mövcudluğu isə yalnız o halda inkar edilə bilər ki, əməl nəinki şəxsiyyətə, cəmiyyətə, yaxud dövlətə zərər yetirməmiş, həm də zərər yetirmək təhlükəsi belə daşımamış olsun və nəticədə cinayət tərkibini müəyyən edən müvafiq hüquq normasının qoruma sahəsindən kənarda qalsın.

Qərarın digər mühüm cəhəti hüquq tətbiq edən orqanların qərar qəbul edərkən işin bütün faktiki və hüquqi hallarını araşdırmalı olması ilə bağlıdır. Belə ki, cinayət məsuliyyətinin tətbiqi zamanı əməlin qanunla nəzərdə tutulan formal əlamətlərinin mövcudluğu ilə kifayətlənilməməli, onun ictimai təhlükəliliyi də işin hallarına uyğun qiymətləndirilməlidir.

Beləliklə, qərarda öz əksini tapmış bu hüquqi mövqelər şəxslərin əsassız olaraq cinayət məsuliyyətinə cəlb olunmasının qarşısının alınması, hüquq və azadlıqlarının müdafiəsi, konstitusion prinsiplərin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşımışdır.

Konstitusiya Məhkəməsinin Plenumunun Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul etdiyi "Azərbaycan Respublikası Konstitusiyasının 28-ci və 60-cı maddələri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 148.6-cı və 447.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2026-cı il 17 aprel tarixli qərarı da əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində xüsusilə vurğulanmalıdır.

Plenum qərarında göstərilmişdir ki, cinayət-prosessual qanunvericilikdə tutulma müddətinin 48 saatla məhdudlaşdırılması, həbs qətimkan tədbirinin seçilməsi məsələsi həll edilənədək cinayət təqibini həyata keçirən orqanlara zəruri sübutları toplamaq və ilkin prosessual-istintaq hərəkətlərini yerinə yetirmək üçün imkan yaradır. Digər tərəfdən bu müddət şəxsin azadlıq hüququnun əsassız məhdudlaşdırılmasının qarşısını almağa yönəlmiş mühüm prosessual təminat kimi çıxış edir. Eyni zamanda vurğulanmışdır ki, Cinayət-Prosessual Məcəllənin 148.6-cı maddəsində məhkəmələr tərəfindən həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı müraciətə təxirə salınmadan baxılması, Cinayət-Prosessual Məcəllənin 447.2-ci maddəsində isə bunun üçün 24 saatlıq müddətin müəyyən olunması həmin normalar arasında uyğunsuzluğun mövcudluğu kimi qiymətləndirilməməlidir. Belə ki, həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı müraciətlərə məhkəmələr tərəfindən təxirə salınmadan baxılmasının müəyyən olunmasında əsas məqsəd şəxsin azadlıq hüququnun əsassız və ya həddən artıq məhdudlaşdırılmasının qarşısını almaq, həmçinin bu məsələnin operativ qaydada məhkəmə nəzarəti çərçivəsində həll edilməsini təmin etməkdir. Digər tərəfdən Cinayət-Prosessual Məcəllənin 447.2-ci maddəsində nəzərdə tutulmuş 24 saatlıq müddət məhkəmələr tərəfindən müraciətlərə baxılarkən onların üzərinə qoyulmuş vəzifələrin icrası üçün məqsədəuyğun şəkildə müəyyən edilmiş maksimal müddət olmaqla, hər bir halda məsələnin təxirə salınmadan həll olunması tələbini istisna etmir və bu tələbin realizəsinə imkan verən ağlabatan müddət olaraq çıxış edir.

Həmçinin plenum qeyd etmişdir ki, məhkəmələr tərəfindən müraciətlərə baxılması üçün 24 saatlıq müddətin müəyyən olunmasında qanunvericinin məqsədi şəxsin azadlıqdan məhrumedilmə müddətini genişləndirmək deyil, əksinə, məhz şəxsin tutulması üçün nəzərdə tutulmuş 48 saatlıq müddət çərçivəsində məhkəmə nəzarətinin tam və vaxtında həyata keçirilməsini təmin etməkdir. Beləliklə, sözügedən qərar tutulma müddətlərinə ciddi əməl olunması, məhkəmə nəzarətinin effektiv həyata keçirilməsi ilə şəxslərin əsassız olaraq azadlıq hüquqlarının məhdudlaşdırılmasının qarşısının alınması baxımından yüksək hüquqi təminat yaradır.

Vurğulamaq istərdim ki, vətəndaşların fərdi şikayətlə Konstitusiya Məhkəməsinə müraciət etmək imkanı Konstitusiyada təsbit olunmuş əsas hüquq və azadlıqların müdafiəsinin effektiv mexanizmi olmaqla yanaşı, onların real təminatının və konstitusion prinsiplərin həyata keçirilməsinin mühüm hüquqi vasitəsi kimi çıxış edir.

Konstitusiya Məhkəməsinin fərdi şikayətlər üzrə qəbul etdiyi son qərar, "A.Şükürovanın şikayəti üzrə Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 14.2-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin III hissəsinə və 71-ci maddəsinin I və II his-



sələrinə uyğunluğunun yoxlanılmasına dair" 2026-cı il 23 iyun tarixli qərarı mülkiyyət hüququnun həyata keçirilməsi ilə mənzil hüququnun, eləcə də çoxmənzilli binada yaşayan şəxslərin hüquq və qanuni mənafelərinin müdafiəsi arasındakı qarşılıqlı əlaqənin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Konstitusiya Məhkəməsinin Plenumu qərarda qeyd etmişdir ki, Konstitusiyanın 43-cü maddəsi ilə nəzərdə tutulan mənzil hüququ şəxslərin mülkiyyət, təhlükəsiz yaşamaq, mənzil toxunulmazlığı kimi digər konstitusion hüquqları ilə sıx bağlı olub, şəxsin öz mənzilində dinc, təhlükəsiz və rahat yaşamaq imkanını ehtiva edir.

Qeyd edilmişdir ki, mənzil hüququnun həyata keçirilməsi baxımından xüsusi əhəmiyyəti nəzərə alınaraq yaşayış sahəsinin təyinatı bilavasitə Mənzil Məcəlləsinin 14.1-ci maddəsi ilə müəyyən edilmiş və göstərilmişdir ki, yaşayış sahəsinin əsas təyinatı həmin sahədə insanların yaşamasıdır. Həmçinin mülkiyyət hüququ əsasında ona məxsus olan yaşayış sahəsi barəsində qanunvericiliklə müəyyən edilmiş hüdudlarda sahiblik, istifadə və sərəncam vermək hüquqlarının məhz yaşayış sahəsinin təyinatına uyğun olaraq həyata keçirilməsi yaşayış sahəsinin mülkiyyətçisinin vəzifəsi kimi müəyyənləşdirilmişdir (Mənzil Məcəlləsinin 29.1-ci maddəsi).

Yaşayış sahəsindən istifadənin hüdudları Mənzil Məcəlləsinin müvafiq normaları ilə dəqiqləşdirilərək göstərilmişdir ki, yaşayış sahəsində qanuni əsaslarla yaşayan fiziki şəxslərə həmin yaşayış sahəsindən peşə fəaliyyətini və ya fərdi sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə istifadəsinə o şərtlə yol verilir ki, bu, digər şəxslərin hüquqlarını və qanuni mənafelərini, habelə yaşayış sahəsi üçün müəyyən edilmiş tələbləri pozmasın. Yaşayış sahələrində sənaye istehsalatlarının yerləşdirilməsinə yol verilmir (14.2 və 14.3-cü maddələr).

Qərarda qeyd olunmuşdur ki, Mənzil Məcəlləsinin 14.2 və 14.3-cü maddələrinin təhlilinə görə qanunverici yaşayış sahəsində istənilən fəaliyyəti deyil, məhz məhdud çərçivəyə malik, təkbaşına xarakter daşıyan peşə və ya fərdi sahibkarlıq fəaliyyətini həyata keçirmək imkanını tanıyır və bunu onunla şərtləndirir ki, sahənin əsas təyinatı faktiki olaraq dəyişdirilmədən yaşamaq üçün istifadə edilsin və belə istifadə nəticəsində başqalarının hüquq və qanuni mənafelərinə xələl gəlməsin. Qanunvericilikdə yaşayış sahəsində fərdi sahibkarlıq və peşə fəaliyyətinin həyata keçirilməsinə müəyyən hallarda icazə verilməsi həmin fəaliyyətlərin yaşayış sahəsinin əsas təyinatı ilə prinsip etibarilə ziddiyyət təşkil etməməsi ilə izah oluna bilər. Nəzərə alınmalıdır ki, şəxs belə hallarda yaşayış sahəsində faktiki olaraq yaşamaqda davam edir və həmin sahənin yaşayış təyinatı mahiyyət etibarilə dəyişmir.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulamışdır ki, hüquqi şəxs yaratmaqla həyata keçirilən sahibkarlıq fəaliyyəti bir qayda olaraq, daha geniş təşkilati xarakter daşıyır. Bu cür fəaliyyətin yaşayış sahəsində həyata keçirilməsi həmin sahənin yaşayış məqsədilə istifadəsinə mane ola, onun ilkin təyinatının dəyişdirilməsini zəruri edə bilər. Bu amilləri nəzərə alan qanunverici yaşayış sahələrində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi imkanlarını məhdudlaşdırmış və bu sahədə yol verilən fəaliyyət növlərini daha məhdud çərçivədə müəyyən etmişdir.

Bu baxımdan Mənzil Məcəlləsinin 14.2-ci maddəsini genişləndirici təfsir edərək mənzil mülkiyyətçisinin yaşayış sahəsini sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi şəxsin istifadəsinə vermək və bununla da həmin sahənin faktiki təyinatını dəyişdirmək hüququna malik olması qənaətinə gəlmək qanunvericinin müəyyən etdiyi hüquqi tənzimləmənin məqsədi ilə uzlaşmır. Bu cür yanaşma yaşayış və qeyri-yaşayış sahələrinin hüquqi statusunun fərqləndirilməsinə xidmət edən qanunvericilik tələblərinin mahiyyətini təhrif edə, habelə yaşayış sahəsinin təyinatı üzrə istifadəsini təmin edən hüquqi mexanizmlərin əhəmiyyətini azalda bilər.

Qərarda həmçinin göstərilmişdir ki, normativ-hüquqi aktın müddəalarının konstitusiya-hüquqi mənası və mahiyyəti ilə bağlı formalaşdırılan hüquqi mövqelər onların fərqli şəkildə tətbiq edilməsini istisna edir. Normanın konstitusiya-hüquqi mənasını aydınlaşdıran qərarın hüquqi qüvvəsi bu normanın artıq həmin mənadan kənara çıxmaqla tətbiqinin mümkünsüzlüyünü, başqa cür şərh və ya fərqli məzmunda tətbiq edilməməli olmasını özündə ehtiva edir.

Onu da qeyd etmək istərdim ki, həmin qərarın digər mühüm əhəmiyyəti onun 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edildiyi dövrə təsadüf etməsi və yaşayış sahəsindən istifadə, mənzil hüquqlarının müdafiəsi ilə bağlı mühüm hüquqi məsələləri əhatə etməsindədir.

Belə ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci il dekabrın 22-də Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında sərəncam imzalanmışdır. Sərəncamda Azərbaycanın İpək yolu üzərində yerləşən Şərq ölkələri ilə sıx əlaqələr qurması, dünya əhəmiyyətli tarix və mədəniyyət abidələri, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz, Əcəmi Naxçıvani, Böyük qayıdış çərçivəsində görülən quruculuq işləri, Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) 2026-cı ildə Azərbaycanda keçirilməsi və s. nəzərdə tutulmuşdur. Azərbaycanın inkişaf strategiyalarının və dayanıqlı şəhərsalma sahəsində əldə etdiyi nailiyyətlərin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə 2026-cı il mayın 17-22-də ölkəmizdə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) keçirilmişdir. Forumun mövzusu "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz, dayanıqlı şəhərlər və yaşayış məskənləri" olmuşdur.

Qeyd olunmalıdır ki, Ümumdünya Şəhərsalma Forumu (WUF) 2001-ci ildə BMT tərəfindən təşkil edilən beynəlxalq platformadır. Forumun əsas məqsədi müasir dövrün mühüm problemlərindən biri olan sürətli urbanizasiya prosesini, eləcə də onun cəmiyyətə, şəhərlərə, dövlətlərə və iqlim dəyişikliyinə təsirini öyrənməkdir. BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) təşkilatçılığı ilə keçirilən bu tədbir dayanıqlı şəhər inkişafı sahəsində mövcud çətinliklərin müzakirəsi və onların həlli yollarının müəyyənləşdirilməsi üçün açıq, inklüziv və yüksəksəviyyəli beynəlxalq platforma rolunu oynayır.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimində Prezident İlham Əliyev qeyd etmişdir: "Bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq".

Forumun əsas nəticələrindən biri "Bakı Fəaliyyətə Çağırış" sənədinin qəbul edilməsi olmuşdur. Bu sənəd qlobal mənzil problemlərinin həlli, Yeni Şəhər Gündəliyində nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi üçün beynəlxalq əməkdaşlığın aparılmasını özündə əks etdirir. Bu çərçivədə dövlətlərin, beynəlxalq təşkilatların, şəhərlərin birgə fəaliyyətinin vacibliyi ön plana çəkilir.

Vurğulanmalıdır ki, Ümumdünya Şəhərsalma Forumunun tarixində ilk dəfə ev sahibi ölkənin təşəbbüsü ilə keçirilən Liderlər Sammitində 27 dövlət və hökumət başçısı iştirak etmişdir. Forumun əsas yenilikləri sırasında Bakı Şəhərsalma Mükafatı, WUF Akademiyasının Kampusu, Biznes və İnnovasiya Mərkəzi xüsusilə qeyd olunmalıdır.

WUF13-ün regionumuzda ən irimiqyaslı tədbirlərdən biri olduğunu əminliklə söyləyərək qeyd etmək istəyirəm ki, bu önəmli tədbirin 2026-cı ildə Bakıda keçirilməsi Azərbaycanın şəhərsalma sahəsində qazandığı uğurların beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyini göstərir. Ölkəmizdə urbanizasiya və şəhərsalma istiqamətində həyata keçirilən köklü dəyişikliklər, genişmiqyaslı inkişaf proqramları və mühüm infrastruktur layihələri bu sahədə yeni imkanlar yaradıb. Bununla yanaşı, Azərbaycanın qlobal şəhərsalma proseslərinə verdiyi töhfələr və dayanıqlı inkişaf prinsiplərinin təşviqində iştirakı ölkənin beynəlxalq mövqeyinin gücləndirilməsində mühüm rol oynayır. Forumun paytaxtımızda təşkili də Azərbaycanın bu istiqamətdə əldə etdiyi irəliləyişlərin və beynəlxalq əməkdaşlığa verdiyi töhfənin əhəmiyyətli göstəricisidir.

Qeyd olunmalıdır ki, cəmiyyətdə baş verən yeniliklər ictimai münasibətlərin dinamikasının dəyişməsi, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, rəqəmsallaşma proseslərinin genişlənməsi, müxtəlif fəaliyyət sahələrində, o cümlədən dövlət orqanlarının fəaliyyətində, məhkəmə-hüquq sistemində müvafiq islahatların aparılmasına zərurət yaratmışdır. Təsadüfi deyil ki, cari ildə rəqəmsal inkişaf və süni intellekt texnologiyalarının tətbiqi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Belə ki, Prezident İlham Əliyevin 2026-cı il 27 fevral tarixli fərmanı ilə Azərbaycanda rəqəmsallaşma, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi, prioritet istiqamətlərin müəyyənləşdirilməsi, innovasiyaəsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi məqsədilə Rəqəmsal İnkişaf Şurası yaradılmışdır. Eyni zamanda Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il fevralın 11-də keçirilmiş müşavirədə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiq edilib. Bu sənəd yaxın üç il ərzində rəqəmsal inkişafın təmin edilməsi, bu istiqamətdə dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində kompleks tədbirləri və strateji hədəfləri özündə birləşdirir. Fəaliyyət Planında müasir texnologiyaların inkişafını təmin etmək üçün dövlət və özəl sektorlar arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir. O cümlədən dövlət orqanları tərəfindən xidmətlərin təqdim olunmasında pərakəndəliyin aradan qaldırılması, "vahid məlumat idarəçiliyi" yanaşmasının tətbiqi, məlumatların dövlət orqanları tərəfindən alınmasında "yalnız bir dəfə" prinsipinin reallaşdırılması, rəqəmsal mühitdə kibertəhlükəsizliyin təmin edilməsi kimi məsələlərin də Fəaliyyət Planı çərçivəsində həll edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də müasir texnoloji inkişaf meyillərini diqqətdən kənarda saxlamamış, xarici ölkələrin Konstitusiya məhkəmələri və bu sahədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulması və bu əlaqələrin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atmışdır.

Belə ki, 2026-cı il oktyabrın 1-2-də Özbəkistanın Səmərqənd şəhərində keçirilən Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyasının VII Konqresində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin nümayəndə heyəti iştirak etmişdir. Rəqəmsallaşma və süni intellekt şəraitində konstitusiya ədalət mühakiməsi mövzusuna həsr olunmuş bu tədbirdə məhkəmə fəaliyyətində süni intellektdən istifadənin hüdudları, rəqəmsal texnologiyaların və süni intellektin konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsində yaratdığı imkanlar, insan hüquq və azadlıqlarının təmin olunması kimi məsələlər müzakirə olunmuşdur.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi TÜRK-AY-ın (Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransı) təsisçi üzvlərindən biridir. Bu təşkilatın fəaliyyəti türk dövlətlərinin konstitusiya məhkəmələri arasında əməkdaşlığın, konstitusionalizm, hüququn aliliyi və insan hüquqlarının müdafiəsi sahəsində qabaqcıl təcrübələrin mübadiləsinin genişlənməsinə istiqamətlənmişdir.

Qeyd olunmalıdır ki, 2026-cı il oktyabrın 20-də Azərbaycanın Konstitusiya Məhkəməsində Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransına üzv ölkələrin nümayəndələrinin iştirakı ilə "Süni intellektin konstitusiya məhkəmələrinin fəaliyyətində rolu" mövzusunda "dəyirmi masa" keçirilib. Bu tədbir konstitusiya ədalət mühakiməsi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, müasir texnoloji yeniliklərin yaratdığı imkanların və hüquqi çağırışların müzakirəsi baxımından əhəmiyyətli olmuşdur.

"Dəyirmi masa" çərçivəsində süni intellekt texnologiyalarının konstitusiya ədalət mühakiməsinə təsiri, məhkəmə fəaliyyətində istifadəsinin mümkün istiqamətləri və müasir texnoloji çağırışlar fonunda konstitusiya ədalət mühakiməsinin qarşısında duran məsələlər ətrafında fikir mübadiləsi aparılmış, iştirakçılar bu mövzuda təcrübələrini bölüşərək rəqəmsal texnologiyaların məhkəmə proseslərinin təkmilləşdirilməsində rolunu və onların tətbiqi zamanı nəzərə alınmalı olan prinsipləri müzakirə etmişlər.

Azərbaycanın müasir dövrdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlər, beynəlxalq sferada mövqeyinin möhkəmlənməsi və davamlı inkişafının təmin olunması ölkədə aparılan uzunmüddətli dövlətçilik siyasətinin nəticəsidir. Bu inkişafın təməlində Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs, onun formalaşdırdığı dövlətçilik konsepsiyası və həmin strateji xəttin Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirilməsi dayanır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində qazanılan böyük Zəfər Azərbaycan tarixinin ən mühüm qələbələrindən biri olmaqla yanaşı, dünya hərb tarixinə də qızıl hərflərlə yazıldı. Ali Baş Komandanın hərbi strategiyası nəticəsində Azərbaycan Ordusu Vətən müharibəsi zamanı şücaət göstərərək, 30 ildən artıq işğal altında olan torpaqlarımızı düşmən əsarətindən xilas edərək Vətən və xalq qarşısındakı şərəfli vəzifəsini layiqincə icra etdi. Nəticədə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin edildi, bir milyona yaxın həmvətənimizin pozulmuş hüquqları bərpa edildi. Vətən müharibəsində qazanılan bu uğur Azərbaycanın yalnız hərbi qüdrətini deyil, o cümlədən siyasi gücünü daha da artırdı, regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması, iqtisadi əlaqələrin genişləndirilməsi, nəqliyyat-kommunikasiya xətlərinin inkişafı və dövlətlərarası əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi üçün əlverişli imkanlar yaratdı.

Qeyd olunmalıdır ki, 44 günlük Vətən müharibəsinin başa çatması ilə ölkəmizdə ərazi məsələləri ilə bağlı istifadə olunan ifadələrdə də mühüm dəyişiklik baş verdi. Belə ki, əvvəllər "işğal altında olan ərazilər" kimi qeyd edilən torpaqlar artıq "işğaldan azad edilmiş ərazilər" adlandırılmağa başladı. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Prezident İlham Əliyev azad olunmuş ərazilərə səfərlər həyata keçirərək həmin bölgələrdə aparılan işlərlə tanış oldu. Bu səfərlər sonrakı illərdə də davam etdirilərək ənənə halını aldı.

Bu şanlı qələbədən sonra Azərbaycanın yeni geosiyasi reallıqlara uyğun siyasət yürütməsi və işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərini həyata keçirməsi üçün geniş imkanlar yarandı. Həmin ərazilərin yenidən qurulması, infrastrukturun inkişaf etdirilməsi və əhalinin doğma torpaqlarına qayıdışının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində 5 milli prioritet göstərilmişdir ki, onlardan biri də məhz işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışdır. Bu prioritetin uğurla həyata keçirilməsi üçün qarşıya iki məqsəd qoyulmuşdur: dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya. Bunun davamı olaraq Prezidentin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmişdir. Həmçinin 2025-ci il mayın 30-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında sərəncam imzalamışdır.

"Böyük qayıdış" proqramı çərçivəsində həyata keçirilən tədbirlər 2026-cı ildə də davam etdirilmiş, işğaldan azad olunan ərazilərdə məskunlaşmanın genişləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bu proses yalnız əhalinin doğma torpaqlarına qaytarılması deyil, eyni zamanda həmin ərazilərdə yaşayış şəraitinin yaxşılaşdırılması, infrastrukturun qurulması, insanların daimi məskunlaşması üçün zəruri imkanların yaradılmasını da əhatə edir.

Qeyd etməyi zəruri hesab edirəm ki, Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı sərəncama əsasən, 2026-cı il fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışı olmuşdur. Memorialın yaradılması Azərbaycan xalqının tarixi yaddaşının qorunması, faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi və Xocalı həqiqətlərinin bütün dünyaya çatdırılmasında vacib rol oynayır. Eyni zamanda memorialın məhz Xocalı şəhərində inşa edilməsi faciə qurbanlarının xatirəsinin onların doğma yurdunda yaşadılması baxımından mühüm məna kəsb edir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları əsrlər boyu zəngin təbii sərvətləri, özünəməxsus landşaftı və biomüxtəlifliyi ilə seçilmişdir. Lakin bu ərazilərin uzun müddət işğal altında qalması nəticəsində təbii mühitə xeyli ziyan dəymiş, nadir bitki və heyvan növlərinin bir qismi məhv edilmişdir. Bu isə regionda ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur.

Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə xüsusi mühafizə olunan ərazilərin yenidən qurulması, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bu çərçivədə Şərqi Zəngəzurun Zəngilan rayonunda yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğunun, Şuşa və Xocalı rayonlarının inzibati ərazilərindəki Daşaltı Dövlət Təbiət Yasaqlığının fəaliyyəti bərpa edilmişdir. Təbii irsin qorunması istiqamətində atılan addımların davamı olaraq, dövlətimizin başçısı İlham Əliyev 2026-cı il oktyabrın 20-də Qarabağ Milli Parkının yaradılması haqqında sərəncam imzalamışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz regionda öz mövqeyini daha da gücləndirərək yeni mərhələyə qədəm qoymuşdur. Ölkənin regional və qlobal proseslərdə fəal iştirak etməsi, yeni sazişlərə imza atması da müasir dövlət quruculuğunun mühüm istiqamətlərindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən xarici siyasət dünya dövlətləri ilə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, dövlətlərarası münasibətlərin inkişafına və regional sabitliyin möhkəmləndirilməsinə yönəlmişdir.

Bu baxımdan cari il fevralın 10-da Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya iki ölkə arasında münasibətlərin inkişafı və əvvəlki dövrdə əldə edilmiş razılaşmaların davamı kimi xüsusi əhəmiyyət daşıyır. Bu tərəfdaşlığın əsası 2025-ci ilin avqustunda Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri və bu səfər çərçivəsində baş tutmuş görüşlər zamanı Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün İşçi Qrupunun yaradılmasına dair Anlaşma Memorandumunun imzalanması ilə qoyulmuşdur.

Xartiyanın əhatə etdiyi məsələlər göstərir ki, tərəfdaşlıq yalnız ənənəvi iqtisadi əlaqələrlə məhdudlaşmır, eyni zamanda iki dövlət arasında enerji və data bağlantısı, nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi, gömrük nəzarəti, sərhəd keçidi və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıların təşviqi, kibertəhlükəsizlik və süni intellekt sahəsində yeni mexanizmlərin yaradılması, o cümlədən müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığı da özündə ehtiva edir. Xüsusilə Orta dəhlizin və TRIPP layihəsinin inkişafına dair müddəalar regional bağlantıların genişləndirilməsi və davamlı əməkdaşlıq imkanlarının artırılması baxımından xüsusilə diqqətəlayiqdir.

Son illərdə Azərbaycan beynəlxalq əhəmiyyətli tədbirlərin, diplomatik müzakirələrin keçirildiyi mühüm mərkəzlərdən birinə çevrilmişdir. Ölkəmizdə təşkil olunan beynəlxalq forumlar və Zirvə görüşləri dövlətlər arasında siyasi dialoqların genişləndirilməsinə, qlobal problemlərin birgə müzakirəsinə şərait yaratmışdır. Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi etməsi onun çoxtərəfli əməkdaşlıq proseslərində iştirakının əhəmiyyətini və beynəlxalq münasibətlər sistemində tutduğu mövqeyini bir daha nümayiş etdirir.

Bu istiqamətdə mühüm hadisələrdən biri 2026-cı il oktyabrın 15-də Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) VII Zirvə Görüşünün keçirilməsi ilə bağlı olmuşdur. Qeyd olunmalıdır ki, bu forum Asiyada sülhün, təhlükəsizliyin təmin olunması istiqamətində əməkdaşlığın gücləndirilməsi məqsədilə yaradılmışdır. VII Zirvə Görüşü zamanı qazanılan mühüm nailiyyətlərdən biri Bakı Bəyannaməsinin, o cümlədən əməkdaşlıq, sağlamlıq və əməyin təhlükəsizliyi üzrə bəyanatın qəbul edilməsi olmuşdur. Bakı Bəyannaməsində BMT Nizamnaməsinin prinsiplərinə, beynəlxalq hüquqa, suveren bərabərliyə, ərazi bütövlüyünə, o cümlədən mübahisələrin sülh yolu ilə həlli prinsiplərinə bir daha toxunulmuş, beynəlxalq nizamın təşviqi, sivilizasiyalararası dialoqun inkişaf etdirilməsi, elm, təhsil və innovasiyalardan istifadənin genişləndirilməsinə, o cümlədən süni intellektin inkişafı nəticəsində yaranan imkanlara, risklərə də xüsusi diqqət yetirilmişdir.

Bu qürurverici gündə - 12 Noyabr - Konstitusiya Günündə xüsusilə vurğulamaq istərdim ki, bu gün Azərbaycan nüfuzlu beynəlxalq tədbirlərə ardıcıl olaraq evsahibliyi edən, dünya dövlətləri arasında söz sahibinə çevrilmiş bir ölkədir. Bu nailiyyətlər isə hər bir Azərbaycan vətəndaşında doğma Vətənə bağlılıq və milli qürur hissini daha da gücləndirir.

Bu gün Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi, hüquqi dövlət quruculuğu sahəsində əsasını qoyduğu ənənələr dövlətimizin başçısı İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Dövlət idarəçiliyində Əsas Qanunun müddəalarını rəhbər tutaraq, ölkənin siyasi, iqtisadi və sosial inkişafının təmin olunması istiqamətində həyata keçirilən genişmiqyaslı dövlət proqramları, iqtisadi islahatlar, sosial layihələr və mədəniyyət sahəsində görülən tədbirlər ölkənin inkişaf strategiyasının mühüm tərkib hissəsini təşkil edir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ali konstitusiya ədalət mühakiməsi orqanı olaraq bu ənənəyə sadiq qalaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək konstitusion norma və prinsiplərin aliliyinin qorunmasını, hüquq normalarının Əsas Qanuna uyğunluğunun təmin edilməsini və insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirir.

Sonda Konstitusiya Məhkəməsi adından bütün Azərbaycan xalqını 8 Noyabr - Zəfər Günü, həmçinin 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edir, xalqımıza xoşbəxt və firavan həyat arzulayırıq.

Fərhad ABDULLAYEV,
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri



Lider-xalq birliyi

Azad torpaqlarda başlayan yeni həyat

"Bu gün biz azad Qarabağda qurub-yaradırıq. Bu gün biz - bu torpaqların sahibləri bütün dünyaya göstəririk ki, bura bizim torpağımızdır. Çünki biz qurub-yaradan xalqıq. İşğal dövründə Ermənistan ancaq bizim təbii sərvətlərimizi talayırdı, meşələrimizi qırırdı, mədənlərimizi qanunsuz olaraq istismar edirdi. Biz isə şəhərləri sıfırdan qururuq. İşğal dövründə bizim bütün şəhər və kəndlərimiz yerlə-yeksan edilmişdir. Bu, misli görünməmiş barbarlıqdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz Ermənistan tərəfindən dağıdıldı və təhqir olundu. İndi genişmiqyaslı quruculuq işləri gedir, "Böyük qayıdış" proqramı icra edilir. Artıq 97 min insan azad edilmiş ərazilərdə yaşayır, təhsil alır, çalışır və hər ay biz keçmiş köçkünlərin öz doğma torpaqlarına qayıtmasının şahidləriyik".

Prezident İlham Əliyevin bu fikirləri Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesinin mahiyyətini aydın şəkildə ifadə edir. Bu gün işğaldan azad olunmuş torpaqlarda yalnız dağıdılmış yaşayış məntəqələri yenidən qurulmur, həm də Azərbaycanın gələcək inkişafına xidmət edən müasir iqtisadi və sosial mühit formalaşdırılır. Uzun illər viran qoyulmuş ərazilərdə reallaşdırılan layihələr dövlətimizin gücünün, xalqımızın qurub-yaratmaq əzminin təcəssümüdür.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra qarşıda duran ən mühüm vəzifələrdən biri doğma yurdlarından didərgin salınmış insanların əzəli torpaqlarına qovuşmasıdır. Bu məqsədlə icra olunan "Böyük qayıdış" proqramı artıq minlərlə ailənin həyatında yeni mərhələnin başlanmasına səbəb olub. Vaxtilə yurd həsrəti ilə yaşayan insanlar indi doğma şəhərlərində, kəndlərində yeni evlərinin qapılarını açır, həyatlarını yenidən qururlar. Bu qayıdış təkcə məskunlaşma prosesi deyil, həm də tarixi ədalətin bərpasının, milli yaddaşın və mənəvi bağlılığın zəfəridir.

Noyabrın 6-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonunun Cahangirbəyli, Cəbrayıl rayonunun isə Soltanlı kəndlərinə səfərləri, hər iki yaşayış məntəqəsinin birinci mərhələsinin açılışında iştirak etmələri quruculuq salnaməsinə yeni səhifə əlavə etdi. Dövlət başçısının və birinci xanımın doğma yurdlarına köçən sakinlərlə görüşləri bu prosesin mərkəzində məhz insan amilinin dayandığını göstərdi. Yeni yaşayış məntəqələrinin salınması keçmiş məcburi köçkünlərin yalnız mənzil təminatı demək deyil. Burada əsas məqsəd insanlar üçün rahat yaşayış və məşğulluq imkanları yaradan müasir kənd mühitinin formalaşdırılmasıdır.

Cahangirbəyli və Soltanlı kəndlərinin yenidən həyata qayıtması Şərqi Zəngəzur və Qarabağda aparılan kompleks tikintilərin bu ərazilərdə yenidənqurma işlərinin davamlı xarakter daşıdığını təsdiqləyir. İşğal dövründə səssizliyə qərq olmuş yaşayış məntəqələrimizdə yenidən həyat canlanır. Bu torpaqlara qayıdan hər bir ailə özü ilə yeni ümidlər, arzular və gələcəyə inam gətirir. Ən əhəmiyyətlisi isə odur ki, artıq yeni nəsillər ata-baba yurdlarını yalnız böyüklərinin xatirələrindən deyil, öz gündəlik həyatlarından tanıyacaqlar.

Qarabağın iqtisadi dirçəlişində Ağdamın yenidən qurulması xüsusi yer tutur. Bir zamanlar genişmiqyaslı dağıntıların simvoluna çevrilmiş şəhər hazırda müasir sənaye və yaşayış mərkəzi kimi inkişaf etdirilir. Prezident İlham Əliyevin noyabrın 7-də Ağdama səfəri zamanı bir sıra istehsal müəssisələrinin fəaliyyətə başlaması bu istiqamətdə görülən işlərin növbəti nəticəsi oldu. Ağdam Sənaye Parkında "ASMC" MMC-nin metal məmulatları istehsalı müəssisəsinin və "Komfy" MMC-nin ortopedik döşək istehsalı müəssisəsinin açılması bölgədə sahibkarlıq fəaliyyətinin genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət başçısının Ağdam Zeytun müəssisəsində yaradılmış şəraitlə tanışlığı bu rayonda da iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına diqqət yetirildiyini nümayiş etdirdi.

Yeni istehsal sahələrinin yaradılması iş yerlərinin açılması, yerli resurslardan səmərəli istifadə və bölgənin iqtisadi fəallığının artırılması üçün geniş imkanlar formalaşdırır. İşğaldan azad edilmiş ərazilərin davamlı inkişafı yalnız yaşayış binalarının tikintisi ilə məhdudlaşmır. İnsanların doğma torpaqlarında daimi məskunlaşması üçün onların sabit gəlir mənbələrinə, peşə fəaliyyətinə və sosial təminata malik olması da vacibdir. Bu baxımdan sənaye parklarının və istehsal müəssisələrinin fəaliyyəti Böyük qayıdışın iqtisadi dayaqlarını gücləndirir. Bölgədə müasir səhiyyə sisteminin qurulması da dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ağdam Rayon Mərkəzi Xəstəxanasının binasında davam etdirilən tikinti işləri əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışının təmin olunmasına yönəlib.

Qarabağ və Şərqi Zəngəzurun gələcəyinə hesablanmış layihələr arasında təhsil infrastrukturu mühüm mövqeyə malikdir. Noyabrın 6-da Zəngilan Şəhər Təhsil Kompleksinin istifadəyə verilməsi bölgədə təhsil imkanlarının genişləndirilməsi istiqamətində növbəti addım oldu. Müasir tədris şəraitinin yaradılması azad edilmiş ərazilərə qayıdan ailələrin övladlarının keyfiyyətli təhsil almasına, intellektual potensialın formalaşmasına xidmət edir. Yeni məktəblər həm də bu torpaqlarda həyatın davamlılığını təmin edən ən mühüm sosial dayaqlardandır. Xankəndidə Qarabağ Universitetinin inkişafı istiqamətində görülən işlər də bölgənin gələcək elmi və intellektual potensialına qoyulan sərmayədir. Universitetin kitabxanasının və İnnovasiya Mərkəzinin binalarının təməlinin qoyulması, klinikanın Təcili tibbi yardım şöbəsinin açılması şəhərin müasir təhsil, elm və səhiyyə məkanına çevrilməsinə xidmət edir. Bu layihələr Xankəndinin yalnız yaşayış məntəqəsi kimi deyil, həm də ölkənin mühüm akademik və ictimai mərkəzlərindən biri kimi inkişafına imkan yaradır. Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin əsaslı təmirdən sonra fəaliyyətə başlaması da bölgənin sosial-iqtisadi inkişafı baxımından əhəmiyyətlidir. Peşə təhsilinin genişləndirilməsi yeni yaradılan müəssisələrin ixtisaslı işçi qüvvəsinə olan tələbatının ödənilməsinə, gənclərin əmək bazarına hazırlanmasına və məşğulluq imkanlarının artırılmasına şərait yaradır.

Noyabrın 7-də yenidənqurmadan sonra Xankəndi Stadionunun açılması isə Qarabağın dirçəlişinin idman və ictimai həyat sahələrini də əhatə etdiyini göstərdi. Müasir idman obyektlərinin istifadəyə verilməsi sağlam həyat tərzinin təşviqinə, gənclərin idmana marağının artırılmasına və şəhərin sosial həyatının canlanmasına mühüm töhfə verəcək. Bu gün Qarabağ və Şərqi Zəngəzurda bir tərəfdən tarixi yaşayış məntəqələri bərpa olunur, digər tərəfdən gələcəyin tələblərinə cavab verən müasir infrastruktur yaradılır. Dövlətin siyasi iradəsi, iqtisadi imkanları və xalqın doğma torpağa bağlılığı bu böyük quruculuq prosesinin əsas hərəkətverici qüvvəsidir.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

Zəfər salnaməsinin əks-sədası

27 sentyabr 2020-ci il... Azərbaycan tarixinin şanlı səhifələrindən birinə çevriləcək 44 günlük Vətən müharibəsinin başladığı gün. Təqvimdə cəmi 44 gün, tarixin yaddaşında isə əsrlərə sığacaq Zəfər salnaməsi!

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatlarına cavab olaraq başlayan Vətən müharibəsi xalqımızı taleyüklü sınaq qarşısında qoydu. Bu, sadəcə, torpaq uğrunda döyüş deyildi, həm də illərlə həsrətində olduğumuz torpaqlara qayıdışın, milli iradənin, tarixi ədalətin bərpasının mübarizəsi idi.

Həmin gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciət etdi. Prezidentin qətiyyətli mövqeyi və Qələbəyə sarsılmaz inamı xalqın mübarizə əzmini daha da gücləndirdi.

Dövlət və xalq bir amal ətrafında birləşdi - Vətən bütövləşməli idi!

Azərbaycan ayağa qalxdı! Minlərlə igid oğul Vətənin müdafiəsinə, torpaqlarımızın azadlığı uğrunda döyüşə yollandı. O günlər səfərbərlik məntəqələrində yaranan izdiham xalqın Vətən sevgisinin, birliyinin və qətiyyətinin təcəssümü idi.

İgidlərimiz ölümün, əbədi ayrılığın, şikəst olmağın və iztirabın mümkün olduğunu bilə-bilə çıxırdılar bu yola: təki torpaqlarımız azad olsun!

Bu 44 gündə əsgərlərimiz təkcə cəbhədə döyüşmürdü, bütün Azərbaycan döyüşürdü. Analar oğullarını cəbhəyə yola salır, atalar övladlarının yolunu gözləyir, həyat yoldaşları, nişanlılar, bacı-qardaşlar ayrılıq ağrısını qələbə ümidi ilə yaşayırdılar. Azərbaycanın hər evində bir cəbhə vardı. Kimisi qan verirdi, kimisi əsgərə yardım göndərirdi, kimisi gecə-gündüz dua edirdi. Silah tutan əsgər səngərdə, milyonlarla insan isə ürəyi və əməli ilə onun yanında idi.

Vətən müharibəsi... Bu, təkcə ordunun müharibəsi deyildi, eyni zamanda dövlətin siyasi iradəsinin, ordunun döyüş qüdrətinin və xalqın sarsılmaz birliyinin tarixi sınağı idi. Oğullarımız təkcə işğal altındakı torpaqları azad etməyə getmirdilər, həm də milli ləyaqətin, tarixi ədalətin, illərlə tapdalanmış milli şərəfin bərpası uğrunda döyüşə atılırdılar. Bilirdilər ki, bu yolda ölüm də var, zəfər də. İgidlərimiz zəfər uğrunda,



Vətən, torpaq yolunda şəhid olmağa hazır idilər. Onların düşüncəsində Vətənin taleyi dayanırdı. Onlar canları bahasına bir həqiqəti təsdiqlədilər - insanın ən böyük mənəvi ucalığı özündən daha böyük amal uğrunda yaşamaq, lazım gəldikdə həyatını fəda etməkdir. "Təki Vətən yaşasın!" - bu, minlərlə igidimizin son nəfəsədək yaşadığı müqəddəs amal idi. Şəhidlər verdikcə millət daha da bütövləşdi.

Müharibə başlanan gündən Ali Baş Komandan İlham Əliyev mütəmadi olaraq cəbhədəki vəziyyət və hərbi əməliyyatların gedişi barədə xalqı məlumatlandırırdı. Cəbhədən gələn qələbə xəbərləri bir-birini əvəz edirdi. 4 oktyabrda Cəbrayıl, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı azad edildi. Hər azad olunan şəhər, qurtarılan kənd illərlə yurd həsrəti çəkən insanların qəlbində yeni bir ümid, yeni bir sevinc oyadırdı. Qazanılan qələbə illərlə davam edən siyasi və diplomatik mübarizənin, Azərbaycan Ordusunun qüdrətinin və xalqımızın qətiyyətinin nəticəsi idi. İllərlə sülh yolu ilə ədalətin bərpasına çalışan Azərbaycan haqqını döyüş meydanında müdafiə etməyə məcbur qalmışdı.

Nəhayət, 8 noyabr 2020-ci il... Azərbaycan tarixinə ən şanlı səhifələrdən biri yazıldı. Şuşa azad edildi! Şuşanın azadlığı milli kimliyimizin, mədəniyyətimizin və mənəvi yaddaşımızın ayrılmaz parçası olan müqəddəs bir şəhərin yenidən Vətənə qovuşması demək idi. Bu, xalqımızın qürurunun, milli ləyaqətinin və tarixi ədalətə inamının təntənəsi idi. Həmin gün Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanından xalqa Şuşanın azad olunduğunu elan etdi. Bu müraciət 44 günlük müharibənin unudulmaz anlarından birinə çevrildi. İllərlə gözlənilən xəbər gerçək olmuşdu. Xalqımız tarixi Qələbəyə qovuşurdu. Bu sevincin arxasında minlərlə insanın canı, qanı, yarımçıq qalmış arzuları, şəhid ailələrinin əbədi nisgili, qazilərin sağalmaz yaraları və gözləri yolda qalan doğmaların həsrəti vardı.

10 noyabr 2020-ci il. Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı üçtərəfli Bəyanatla hərbi əməliyyatlar dayandırıldı. Beləliklə, 44 gün davam edən Vətən müharibəsi qələbəmizlə başa çatdı. Bu tarix uzun illər davam edən münaqişənin hərbi mərhələsinə son qoyulduğu, xalqımızın iradəsinin və ordumuzun qüdrətinin tarixə yazıldığı gün idi. Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində tarixi mərhələ başa çatdı, milli ləyaqətimizin və tarixi ədalətin bərpasında yeni səhifə açıldı.

44 gün...

Bu, sadəcə, bir müharibənin müddəti deyildi, xalqın iradəsinin, ordunun qəhrəmanlığının, millətin birliyinin tarixə çevrildiyi zaman idi. Və bu tarix bir həqiqəti yenidən təsdiq etdi - Vətən uğrunda canından keçənlər də, onların uğrunda döyüşdüyü Vətən də əbədi yaşayır!

Elşən QƏNİYEV,
"Azərbaycan"



"44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Biz haqlı olaraq bu Zəfərlə fəxr edirik. Bütün Azərbaycan xalqı fəxr edir. Gələcək nəsillər də fəxr edəcəklər. Bu şanlı tarix bizim qəlbimizdə əbədi yaşayacaq... ...Vətən müharibəsində Azərbaycan xalqı öz mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi".

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 8 Noyabr - Zəfər Günü münasibətilə Xankəndi şəhərindən ucalan bu tarixi sözləri 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərin mənəvi fəlsəfəsini tam ifadə edir.

Milli birliyimizin təntənəsi

8 Noyabr Zəfəri milli birliyimizin təntənəsi kimi müqəddəs zirvədə dayanır. Otuz ilə yaxın qəlbimizi göynədən işğal nisgilinə 44 gün içində son qoyan Vətən müharibəsi xalqımızın əyilməz iradəsinin və qəhrəmanlıq ruhunun şah əsəridir. Düşmənin illərlə qurduğu keçilməz istehkamlar, siyasi təzyiqlər və maneələr "dəmir yumruğ"a çevrilmiş milli birliyimizin qarşısında aciz qaldı.

İllər boyu münaqişənin dinc yolla həllinə çalışan, lakin heç vaxt torpaqlarının işğalı ilə barışmayacağını qətiyyətlə bəyan edən Azərbaycan döyüş meydanında öz sözünü dedi. Düşmənin arxasında duran havadarların fitnələrinə və beynəlxalq ikili standartlara rəğmən, Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanın ətrafında birləşərək həmrəyliyini ortaya qoydu. Vətən müharibəsinin 44 günü ərzində göstərilən qəhrəmanlıq, torpaqlarımızın bütövlüyü uğrunda əsgər və zabitlərimizin canlarını qurban verərək şəhadət zirvəsinə ucalması təkcə hərbi gücün yox, həm də milli ruhun və vətənpərvərliyin təntənəsi idi.

"...Döyüş meydanında kimin kim olduğunu hər kəs əyani şəkildə gördü. Bir nəfər belə olsun Azərbaycan Ordusundan qaçan, fərarilik edən olmayıb. Halbuki Ermənistan rəhbərliyinin etirafına görə, Ermənistan ordusunda 12 minə yaxın fərari olmuşdur. Bax, fərq bundan ibarətdir. Azərbaycan döyüş meydanında tam üstünlüyü təmin edərək 8 noyabr günündə - Zəfər bayramını qeyd etdiyimiz gündə Şuşanın azad edilməsi faktiki olaraq İkinci Qarabağ müharibəsinin taleyini həll etdi", - deyə 8 Noyabr - Zəfər Günü münasibətilə etdiyi təbrikində qalib Lider İlham Əliyev İkinci Qarabağ müharibəsində döyüşçülərimizin göstərdiyi misilsiz qəhrəmanlıqdan bəhs etdi.

Bu möhtəşəm Qələbənin məntiqi zirvəsi və tamamlayıcı akkordu isə 2023-cü ilin 19-20 sentyabrında həyata keçirilən antiterror əməliyyatı ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi oldu. Məhz bu tarixi qələbə fonunda Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər Günü münasibətilə Xankəndi şəhərində Zəfər abidəsini ziyarət etməsi və oradan xalqımıza ünvanladığı təbrik müraciəti həm keçilən şanlı yolun yekunu, həm də gələcəyə baxışın rəmzinə çevrildi.

Zəfərimizin altıncı ilində Qarabağdan etdiyi təbrikində Prezident İlham Əliyev ordumuzun peşəkarlığını və müasir texnika ilə təchizatını vurğulamaqla yanaşı, Qələbəyə aparan əsas amilin xalqın mənəvi gücü olduğunu xüsusi qeyd etdi.

"Biz elə güclü olmalıyıq ki, bundan sonra Azərbaycana zərər vermək heç kimin ağlına belə gəlməsin!"

Prezident İlham Əliyevin 2019-cu ildə bəyan etdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" kəlamının son işarəsi də məhz Xankəndidə qoyuldu. Ölkəmizin rəhbəri Zəfərin altıncı ili münasibətilə xalqa təbrikində bu mühüm tarixi məqama toxunaraq bildirdi: "O vaxt Ermənistan rəhbərliyinin yersiz açıqlamalarına biz də açıqlamalar vermişdik. Mən bildirmişdim ki, "Qarabağ Azərbaycandır və nida". O nida işarəsini biz 2023-cü il sentyabrın 20-də bax, burada - Xankəndidə qoyduq. Birgünlük antiterror əməliyyatı Ermənistanın işğalçı ordusunun 15 minlik işğalçı korpusunu tamamilə iflic vəziyyətə salmışdır, çox dəqiq və peşəkarcasına aparılmış hərbi əməliyyat nəticəsində Ermənistan məcburən ikinci dəfə təslim olmuşdur".

Bu Zəfər həm də illərlə Azərbaycana qarşı aparılan şər-böhtan kampaniyalarına, təcavüzkar siyasətə verilən ən kəsərli cavab idi. Vaxtilə Xankəndidə oturub separatizmlə məşğul olanlar, Bakını hədələyənlər bu gün öz layiq olduqları cəzanı çəkirlər.

Dövlətimizin başçısı təbrikində həm də Xankəndidəki keçmiş icra hakimiyyətinin binasının - vaxtilə Azərbaycana qarşı təcavüzün beşiyi olan məkanın indi Zəfər muzeyinə çevriləcəyini elan edərək tarixi ədalətin necə bərqərar olduğunu təsirli sözlərlə ifadə etdi: "O, bir şeytan yuvası idi. O binaya mən şanlı Zəfərimizdən sonra - 2023-cü ilin oktyabrında gələndə ilk növbədə binanın pəncərələrini açdım ki, o şeytan ruhu oradan çəkilsin. İndi həmin o binada Zəfər muzeyi yerləşəcək..."

Xankəndidə ucaldılan Zəfər tağı və bərpa olunan tarixi ədalət bir daha sübut edir ki, Azərbaycan torpaqlarında separatizmin və işğalın kökü birdəfəlik kəsilib. Pillələrində Vətən müharibəsinin hər gününün, hər şəhidimizin qanının həkk olunduğu Zəfər tağı keçdiyimiz çətin, lakin şərəfli yolun əbədi şahididir.

İndi Qarabağ və Şərqi Zəngəzurda silah səsləri deyil, genişmiqyaslı quruculuq işlərinin səsləri yüksəlir. "Böyük qayıdış" proqramı çərçivəsində soydaşlarımız öz ata-baba ocaqlarına qayıdır, dağıdılmış şəhər və kəndlərimiz sıfırdan bərpa olunaraq yenidən canlanır. Bu, Azərbaycan xalqının qurucu və yaradıcı olduğunun bariz göstəricisidir.

Qazanılan Zəfərin əbədiliyi isə birliyimizə, azərbaycançılıq ideologiyasına və dövlətimizin hərbi-siyasi qüdrətinə söykənir. Şəhidlərimizin qanı bahasına bərpa olunan bu müstəqillik və suverenlik növbəti nəsillərə ən böyük əmanətdir.

Prezident İlham Əliyevin təbrikində yer alan bu sözlər xalqımızın hər bir üzvünün üzərinə düşən tarixi məsuliyyəti bir daha xatırladır: "Biz elə güclü olmalıyıq ki, bundan sonra Azərbaycana zərər vermək heç kimin ağlına belə gəlməsin! Əminəm ki, belə də olacaq".

Bəli, Şanlı Zəfərimiz əbədi, dövlətimiz müstəqil, xalqımız məğrurdur. Bu Zəfər salnaməsi Azərbaycan var olduqca qəlblərdə yaşayacaq.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Beynəlxalq hüquqi müstəvidə yeni epoxanın ideoloji manifesti

Prezident İlham Əliyevin müraciəti müasir dövlətçilik tariximizdə müstəsna əhəmiyyətə malikdir

Prezident İlham Əliyevin 8 Noyabr - Zəfər Günü münasibətilə Xankəndi şəhərində Zəfər tağını ziyarət edərək önündə səsləndirdiyi proqram xarakterli çıxışı Azərbaycanın müasir dövlətçilik tarixində həm hərbi-strateji, həm geosiyasi, həm də beynəlxalq hüquqi müstəvidə yeni epoxanın ideoloji manifestidir. Dövlətimizin başçısının bu çıxışı yalnız tarixi qələbənin emosional qiymətləndirilməsi deyil, eyni zamanda Cənubi Qafqazda yeni regional təhlükəsizlik arxitekturasının formalaşmasını, beynəlxalq hüququn məcburi icra mexanizmlərinin işə salınmasını və milli suverenliyin tam bərpasını təsbit edən fundamental siyasi-hüquqi sənəddir. Xankəndi şəhərində - vaxtilə separatizmin və işğal siyasətinin mərkəzindən bu mesajların verilməsi və buradakı "inzibati bina"nın Zəfər muzeyinə çevrilməsinin elan edilməsi simvolik dekonstruksiyanın, yəni qondarma qurumların və geosiyasi xülyaların tamamilə məhv edilməsinin geostrateji təsdiqidir.



Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV qəzetimizə açıqlamasında dedi ki, bu nitqin birinci və ən əsas hüquqi aspekti 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilən birgünlük lokal xarakterli antiterror tədbirləri vasitəsilə BMT Təhlükəsizlik Şurasının 822, 853, 858, 874 saylı qətnamələrinin Azərbaycan tərəfindən təkbaşına icra edilməsidir: "Beynəlxalq hüquq nəzəriyyəsində dövlətlərin suveren hüquqlarının və ərazi bütövlüyünün qorunması prinsipləri əsas fundament olsa da, uzun illər ərzində ATƏT-in Minsk qrupu kimi vasitəçilik institutları münaqişəni dondurulmuş vəziyyətdə saxlamağa çalışırdı. Prezident İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq güclərin münaqişənin hərbi həllinin olmadığını iddia etmələri və Azərbaycanı qəbuledilməz güzəştlərə məcbur etməyə çalışmaları açıq-aşkar ikili standartlara söykənirdi. Azərbaycan dövləti 1993-cü ildən etibarən kağız üzərində qalan beynəlxalq sənədlərin icrasını öz gücü ilə təmin etməklə BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş özünümüdafiə hüququnun klassik və qüsursuz tətbiq nümunəsini yaradan presedentə imza atdı. Hərbi-analitik müstəvidə Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə nümayiş etdirdiyi uğurlar müasir müharibə aparma taktikasına və yüksək texnoloji hazırlığa malik olduğunu sübut etdi. Düşmənin 6-7 qat və illərlə ən müasir sistemlər əsasında möhkəmləndirilən istehkam xətlərinin yarılması və 300-dən çox yaşayış məntəqəsinin qısa müddətdə azad edilməsi ilə yanaşı, hərbi zəncirin kulminasiya nöqtəsi olan Şuşanın azad olunması operativ-strateji baxımdan müharibənin taleyini birdəfəlik həll etdi. Çünki Şuşa təkcə mənəvi mərkəz deyil, bütün Qarabağ coğrafiyasına nəzarət imkanı verən hərbi-geosiyasi komanda yüksəkliyi idi. Bu Zəfər noyabrın 10-da Ermənistanın kapitulyasiya aktına imza atmasına, nəticədə Ağdam, Kəlbəcər, eləcə də Laçın rayonlarının bir güllə atılmadan, şəhid verilmədən qaytarılmasına gətirib çıxardı".

Deputat qeyd etdi ki, müharibənin mənəvi-psixoloji və sosial-hüquqi təməli orduların daxili intizamında və dövlət-xalq birliyində özünü bariz göstərdi. Azərbaycan Ordusunda bir nəfər də olsun fərarilik halının qeydə alınmaması müharibənin milli azadlıq və ədalətli xarakterini, yüksək vətənpərvərlik ruhunu sübut etdi. Əksinə, Ermənistan tərəfinin öz ordusunda 12 mindən artıq fərarinin olduğunu etiraf etməsi qarşı tərəfdə ideoloji-siyasi böhranın, dövlət institutlarına inamsızlığın və hərbi intizamın tam çökməsinin göstəricisidir. 2023-cü ilin sentyabrında Xankəndidəki 15 minlik işğalçı korpusun bir gün ərzində tamamilə təslim edilməsi revanşizm imkanlarını sıfırlamış, keçmişdə Azərbaycana qarşı təcavüz planlaşdıran, Bakıya tankla gəlmək xülyasına düşən hərbi cinayətkarların bu gün Bakı həbsxanalarında öz layiqli cəzalarını alması ilə tarixi ədalət öz yerini tapmışdır. "İqtisadi, sosial və humanitar müstəvidə Prezidentin vurğuladığı "Böyük qayıdış" proqramı dövlətin strateji dayanıqlılığının göstəricisidir. İşğal dövründə təbii sərvətlərin talanması, ekosistemin və mədəni irsin məhv edilməsi qarşısında, təbii ki, Azərbaycan dövlətinin sıfırdan şəhər və kəndlər inşa etməsi və kənar maliyyə dəstəyi olmadan öz resursları ilə bölgəni dirçəltməsi unikal inkişaf modelidir. Artıq 100 min insanın azad edilmiş ərazilərdə yaşaması, təhsil alması və çalışması məcburi köçkünlərin pozulmuş fundamental hüquqlarının praktiki təminatıdır. İdeoloji-fəlsəfi aspektdən isə dövlətimizin başçısının nitqində azərbaycançılıq məfkurəsi milli uğurların təməl daşı kimi önə çıxır. Ölkədə yaşayan bütün etnik qrupların və dini konfessiyaların vahid vətəndaşlıq platformasında birləşməsi düzgün dövlət siyasətinin nəticəsi kimi daxili siyasi sabitliyin əsas təminatlarından biri idi", - deyə o əlavə etdi.

B.Məhərrəmov vurğuladı ki, Prezident İlham Əliyevin bu tarixi prosesdəki xüsusi rolu hərbi-strateji planlaşdırma, sarsılmaz siyasi iradə, yüksək diplomatik ustalıq və ideoloji liderliyin nadir sintezini təşkil edir. Zəfər paradiqmasının formalaşması və milli suverenliyin bərpa edilməsi prosesində dövlət başçısının fəaliyyəti sistemli təhlil olunduqda onun prosesin yalnız icraçısı kimi deyil, birbaşa memarı və geostrateji təşəbbüskarı kimi çıxış etdiyi aydın görünür. Beynəlxalq aləmin və böyük dövlətlərin Azərbaycanı "status-kvo" ilə barışdırmaq cəhdlərinə baxmayaraq, Müzəffər Ali Baş Komandan öz gücümüz hesabına Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılmasını və müasir texnologiyalarla təchizatını dövlət siyasətinin prioritetinə çevirib. Prezident İlham Əliyev müharibə dövründə xarici KİV-ə verdiyi 30-dan çox müsahibə ilə qlobal informasiya cəbhəsində aparılan genişmiqyaslı qarayaxma kampaniyalarını şəxsən dəf etmiş, Azərbaycanın haqlı mövqeyini beynəlxalq hüquqi tezislərlə dünya ictimaiyyətinə çatdırmaqla informasiya müharibəsində milli model formalaşdırmışdır. Böyük dövlətlərin açıq və gizli təzyiqlərinə baxmayaraq, "Biz birlikdə güclüyük" konsepsiyası və azərbaycançılıq ideologiyası ilə xalq-ordu-lider üçbucağını unikal monolit gücə çevirib.

Deputat bildirdi ki, Prezident İlham Əliyevin Xankəndi şəhərində səsləndirdiyi bəyanatlar müasir dövlətçilik tariximizdə müstəsna geostrateji və hüquqi-siyasi çəkiyə malikdir: "Məkanın rəmzi və siyasi dekonstruksiyası baxımından bəyanatların Xankəndidən verilməsi misilsiz geosiyasi simvolizm daşıyır. Beynəlxalq hüquqi və status baxımından bu bəyanatlar "Qarabağ Azərbaycandır və nida işarəsi" tezisinin hüquqi və praktiki baxımdan tam yekunlaşdığını nümayiş etdirir, Qarabağda separatizmin, qanunsuz hərbi birləşmələrin və ya "boz zona"ların mövcudluğuna birdəfəlik son qoyulduğunu bütün dünyaya bəyan edir. Yəni dövlət başçısının Xankəndidə bəyan etdiyi Zəfər paradiqması tam mənada Cənubi Qafqazın təhlükəsizlik arxitekturasını kökündən dəyişdirən strateji dönüş nöqtəsidir. Uzun illər tətbiq olunan status-kvo və kənar güclərin təsir rıçaqları sıradan çıxarılıb, geostrateji təşəbbüs bilavasitə regional dövlətlərin özünə qaytarılıb. "3+3" platforması, Şuşa Bəyannaməsi ilə rəsmiləşən Azərbaycan-Türkiyə strateji müttəfiqliyi regionda yeni güc balansı yaradır, Zəngəzur dəhlizi (TRIPP) kimi geoiqtisadi layihələr isə Cənubi Qafqazı qlobal nəqliyyat-logistika qovşağına çevirir. Prezident İlham Əliyevin "Biz elə güclü olmalıyıq ki, bundan sonra Azərbaycana zərər vermək heç kimin ağlına belə gəlməsin" tezisi Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin əsas şərti kimi "güc vasitəsilə sülh" doktrinasını və müstəqil suveren dövlət modelini bərqərar edib".

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

"COP31 Türkiyə və Azərbaycanın iqlim sahəsində əməkdaşlığını beynəlxalq müstəvidə nümayiş etdirir"

"Türkiyə COP31-ə evsahibliyi etməklə Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə sahəsində topladığı təcrübədən bəhrələnir və bu əməkdaşlıq vasitəsilə dünyaya mühüm mesajlar verilir. İqlim dəyişikliyi ayrı-ayrı ölkələrin deyil, bütün dünyanın həll etməli olduğu ümumi problemdir. Türkiyənin COP31-ə evsahibliyi etməsi də BMT platforması çərçivəsində bu məsələnin beynəlxalq gündəmdəki əhəmiyyətini artırmağa, dövlətlərin, elmi dairələrin, vətəndaş cəmiyyəti institutlarının və ictimaiyyətin diqqətini iqlim böhranına çəkməyə xidmət edir".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti professor Muzaffer ŞEKER** ifadə edib.

Professor qeyd edib ki, temperatur dəyişikliklərinin intensivləşməsi, güclü yağıntılar, fırtınalar, meşə yanğınları, daşqınlar və zəlzələlər planetin ekoloji tarazlığına ciddi təsir göstərir. Bu proseslər kənd təsərrüfatı, heyvandarlıq və insanların sağlamlığı üçün də müxtəlif təhlükələr yaradır.

"Bütün bunlar bizi ətraf mühitə daha həssas yanaşmağa, ekoloji cəhətdən təmiz fəaliyyət üsullarına, materiallara və texnologiyalara üstünlük verməyə sövq etməlidir. Yer kürəsinin qorunması, ekosistemin davamlılığının təmin edilməsi və gələcəkdə yarana biləcək problemlərə qarşı birgə tədbirlərin görülməsi ümumi məsuliyyətimizdir.


Sağlam həyat üçün təmiz hava, keyfiyyətli su və təhlükəsiz qida məhsulları xüsusi əhəmiyyət daşıyır. Bu məsələlər "Vahid Sağlamlıq" (One Health) yanaşmasının əsas istiqamətlərindəndir. Alimlər olaraq məqsədimiz mövcud problemlərə elmi əsaslı həll yolları tapmaqdır. Bu baxımdan ətraf mühitin mühafizəsi, səhiyyə, iqtisadiyyat və enerji kimi sahələrdə qarşılaşdığımız ümumi çağırışları müzakirə etmək və onların aradan qaldırılması istiqamətində əməkdaşlıq imkanlarını genişləndirmək istəyirik", - deyə Muzaffer Şeker bildirib.

Azərbaycanla Türkiyənin elmi tədqiqatlar sahəsində əlaqələrinə də toxunan professor bu əməkdaşlığın artıq müsbət nəticələr verdiyini diqqətə çatdırıb.

O, COP31 çərçivəsində Mavi Zonada Azərbaycan və Türkiyə pavilyonlarının bir-birinin yaxınlığında yerləşməsini də rəmzi və əlamətdar hadisə kimi qiymətləndirib: "Azərbaycan və Türkiyə liderlərinin noyabrın 8-də Şuşada görüşməsi bir daha göstərdi ki, ölkələrimiz arasındakı qardaşlıq münasibətləri heç bir maneə ilə sarsıla bilməz. Bu birlik və həmrəylik münasibətlərimizin möhkəmliyini və əbədiliyini nümayiş etdirir. Əminəm ki, Azərbaycan-Türkiyə qardaşlığı bütün Türk dünyası üçün də nümunədir".

ABŞ və Çinin süni intellekt sahəsində əlaqələri dünyaya nə vəd edir?

Müasir dünya siyasətində ABŞ və Çin arasındakı münasibət bütövlükdə təhlükəsizliyin və dünya iqtisadiyyatının gələcək taleyini müəyyən edən əsas amildir. Dünyanın ən böyük iki iqtisadiyyatı qlobal ÜDM-in təxminən 40 faizindən çoxunu təmin etdiyi üçün onların atdığı hər bir addım bütün beynəlxalq maliyyə və ticarət sisteminə təsir göstərir. Son dövrün texnoloji inkişafı, xüsusən də süni intellektin həyatın bütün sahələrinə sürətli inteqrasiyası tərəflər arasında yeni əməkdaşlıq və risklərin idarə olunması zərurətini ön plana çıxarır.



ABŞ-nin xəzinədarlıq naziri Skott Bessent ABŞ-Çin Əlaqələri Milli Komitəsinin qala gecəsindəki çıxışında Vaşinqton və Pekinin süni intellekt sahəsindəki riskləri idarə etmək üçün birgə addımlar atacağını açıqlayıb. İki ölkə arasında yeni bir dialoqun başladıldığını vurğulayan nazir bildirib ki, bu təşəbbüs ABŞ Prezidenti Donald Trampın birbaşa tapşırığı ilə formalaşdırılıb və tərəflər arasında ola biləcək yanlış anlaşılmaların qarşısını almaq və qlobal riskləri nəzarətdə saxlamaq məqsədi daşıyır.

Əməkdaşlıq çərçivəsində tərəflər arasında birbaşa operativ əlaqə kanalı yaradılacaq. Bu sistem qabaqcıl süni intellekt modellərinin istifadəyə verilməzdən əvvəl qiymətləndirilməsini və kompleks sınaqlardan keçirilməsini təmin edəcək. Eyni zamanda prosesdə insan nəzarətinin qorunması və fövqəladə hallarda çevik məlumat mübadiləsi nəzərdə tutulur. Xüsusilə hərbi və mülki infrastruktura inteqrasiya olunan süni intellekt texnologiyalarının gözlənilməz texniki xətalar səbəbindən münaqişələrə yol açmaması üçün belə proseslərin varlığı önəm kəsb edir. Texnologiyanın sürətlə inkişaf etdiyi indiki dövrdə təhlükəsizlik standartlarının müəyyənləşdirilməsi vacibdir. Bu, bütün bəşəriyyətin təhlükəsizliyi üçün mühüm zəmanətdir.

Skott Bessent çıxışında iki nəhəng dövlət arasındakı iqtisadi münasibətlərə də toxunub. O bildirib ki, Vaşinqtonun əsas məqsədi riskləri minimuma endirməkdir. Bu yaxınlarda ABŞ Prezidenti Donald Tramp ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin Şençjen şəhərində görüşəcəklər. Bu ali səviyyəli dialoq tərəflərin iqtisadi və texnoloji sahələrdə əməkdaşlığı davam etdirmək əzmində olduğunun göstəricisidir.

Bu proseslərdən bir daha aydın olur ki, geosiyasi rəqabətə baxmayaraq, Vaşinqton və Pekinin ortaq məxrəcə gəlməsi olduqca sevindirici haldır. İki nəhəng gücün təhlükəsizlik və süni intellekt riskləri qarşısında həmrəylik nümayiş etdirməsi böyük ümidlər yaradır. Çünki bu iki dövlət təkcə iqtisadiyyatda deyil, süni intellekt üzrə qlobal ixtiraların və elmi tədqiqatların böyük əksəriyyətinə nəzarət edir. Dialoqun qorunub saxlanılması dünya üçün sabit gələcək vəd edir. Bu addım həm də proqnozlaşdırıla bilən qlobal mühitin formalaşması baxımından müsbət bir təkan olacaq.

Təhminə VERDİYEVA,
"Azərbaycan"



Dublindən Bakıya: Azərbaycanın Avropa siyasi məkanında artan rolu və fəal dialoq diplomatiyası

"Avropa Siyasi Birliyi"nin Dublin Sammiti Azərbaycanın Avropa ölkələri ilə siyasi dialoqunun, enerji və nəqliyyat sahələrində tərəfdaşlığının, eləcə də regional sülh təşəbbüslərinin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır. 2028-ci ildə bu platformanın növbəti sammitinə Bakının evsahibliyi etməsi isə ölkəmizin çoxtərəfli diplomatiyada artan rolunu və müxtəlif geosiyasi məkanlar arasında fəal dialoq qurmaq imkanlarını ön plana çıxarır.

AZƏRTAC Dublin sammitinin gündəliyinə, Azərbaycanın Avropa ilə tərəfdaşlığına və 2028-ci ildə Bakıda keçiriləcək Zirvə görüşünün əhəmiyyətinə qısa nəzər salır.

Noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində keçiriləcək "Avropa Siyasi Birliyi"nin (ASB) 9-cu sammiti Avropa qitəsinin dövlət və hökumət başçılarını ümumi siyasi və strateji məsələlərin müzakirəsi üçün bir araya gətirəcək. "Avropa - güclü, təhlükəsiz və əlaqəli" mövzusuna həsr olunan budəfəki sammitin gündəliyində rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, innovasiyaların təşviqi, nəqliyyat bağlantılarının inkişafı, əlçatan enerji, eləcə də demokratik Avropanın təhlükəsizliyi və müdafiəsi məsələləri yer alır. Builki sammitdə 50-yə yaxın dövlət və hökumət başçısının iştirakı nəzərdə tutulur. Bu, Avropa ölkələrinin üzləşdiyi çağırışların geniş coğrafi müstəvidə müzakirəsi və ortaq maraqlar üzrə siyasi dialoqun davam etdirilməsi baxımından mühüm platforma deməkdir.

Azərbaycan üçün isə Dublin sammitinin əhəmiyyəti təkcə tədbirin gündəliyi ilə məhdudlaşmır. Ölkəmiz "Avropa Siyasi Birliyi"nin əvvəlki görüşlərində də fəal iştirak edib, platforma çərçivəsində regional təhlükəsizlik, enerji və bağlantılar məsələlərinə dair mövqeyini irəli sürüb. 2028-ci ildə sammitin Azərbaycanda keçirilməsi barədə qərar isə bu əməkdaşlığa yeni perspektiv əlavə edir.

"Avropa Siyasi Birliyi" nədir və Azərbaycan bu platformada niyə iştirak edir?

2022-ci ilin oktyabrında Praqada təsis edilən "Avropa Siyasi Birliyi" Avropa İttifaqına üzv olan və olmayan ölkələri ümumi siyasi və strateji məsələlər ətrafında birləşdirən qeyri-rəsmi hökumətlərarası dialoq platformasıdır. Onun əsas məqsədi siyasi məsləhətləşmələri genişləndirmək, ortaq çağırışlara münasibətdə əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyinə, sabitliyinə və rifahına töhfə verməkdir.

ASB-nin mahiyyətini müəyyən edən başlıca xüsusiyyət onun qeyri-rəsmi və məşvərətçi xarakter daşımasıdır. Platforma dövlət və hökumət başçılarına ortaq maraq doğuran məsələləri formal institusional prosedurların yaratdığı çərçivələrdən kənarda müzakirə etmək imkanı verir. Bu formatın səmərəliliyi yeni qərar qəbuletmə strukturu yaratmaqdan daha çox, mövcud beynəlxalq mexanizmlər arasında siyasi dialoqu və qarşılıqlı anlaşmanı gücləndirmək imkanları ilə bağlıdır.

Azərbaycanın ASB-yə münasibətində də bu məqam xüsusi əhəmiyyət daşıyır. Ölkəmiz Avropa məkanında açıq siyasi dialoqu və qarşılıqlı məsləhətləşmələri dəstəkləyir. Eyni zamanda platformanın yeni beynəlxalq təşkilata çevrilməsinə və əlavə institusional strukturlar yaradılmasına ehtiyac olmadığı mövqeyindən çıxış edir. Bu yanaşma ASB-nin ilkin məqsədləri ilə bağlı mühüm prinsipial məsələ ilə üst-üstə düşür. Platformanın üstünlüyü onun çevikliyində, geniş təmsilçilik imkanlarında və müxtəlif siyasi mövqelərə malik ölkələri eyni müzakirə məkanında bir araya gətirməsindədir. Avropada artıq müxtəlif sahələr üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatların mövcudluğu şəraitində yeni institusional mexanizmlər yaratmaq əvəzinə, mövcud formatların potensialından səmərəli istifadə olunması xüsusi əhəmiyyət daşıyır.

Praqada keçirilən ilk sammitdən başlayaraq platformanın gündəliyi enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq, miqrasiya, nəqliyyat, innovasiya və müdafiə məsələlərini əhatə edib. Dublin sammitinin gündəliyində də həmin istiqamətlərin bir-biri ilə qarşılıqlı əlaqəsi aydın görünür. Deməli, ASB-nin əsas funksiyası Avropanın üzləşdiyi mürəkkəb çağırışlara dair siyasi məsləhətləşmələri davam etdirmək və dövlətlər arasında dialoq üçün əlavə imkanlar yaratmaqdır. Azərbaycanın bu platformada iştirakı da məhz belə bir yanaşmanın tərkib hissəsidir. Ölkəmiz üçün ASB həm milli maraqların Avropa liderləri səviyyəsində təqdim olunması, həm də regional və qlobal məsələlər üzrə tərəfdaşlarla birbaşa təmasların inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

Azərbaycanın Avropa gündəliyində yeri: enerji, bağlantılar və etibarlı tərəfdaşlıq

Dublin sammitinin əsas müzakirə istiqamətlərindən birinin rəqabətqabiliyyətli Avropanın qurulması olması təsadüfi deyil. Müasir dövrdə iqtisadi rəqabət qabiliyyəti texnoloji innovasiyalarla yanaşı, enerji resurslarının etibarlı təchizatından, nəqliyyat infrastrukturunun səmərəliliyindən və təchizat zəncirlərinin dayanıqlılığından da asılıdır. Son illərdə Avropa ölkələrinin Azərbaycana marağının artması, həmçinin Prezident İlham Əliyevin yüksək şəxsi nüfuzu, ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsi, regional və qlobal məsələlərin həllində rolunun genişlənməsi ilə bağlıdır. Bu maraq dövlət və hökumət başçılarının, Avropa İttifaqının yüksəkvəzifəli nümayəndələrinin Azərbaycana səfərlərində, Prezident İlham Əliyevlə görüşlərində və yeni əməkdaşlıq təşəbbüslərində özünü göstərir.



Diqqətçəkən məqamlardan biri Prezident İlham Əliyevin beynəlxalq platformalarda keçirdiyi bir sıra ikitərəfli görüşlərin qarşı tərəfin müraciəti və sorğusu əsasında təşkil edilməsidir. Davosda, Münxendə və digər platformalarda keçirilən görüşlərin məhz bu qaydada baş tutması dövlətimizin başçısının şəxsi nüfuzunu, ölkəmizin artan gücünü və etibarlı dialoq tərəfdaşı kimi mühüm rolunu göstərən nümunələrdəndir.

Avropa İttifaqının yüksəkvəzifəli nümayəndələrinin Azərbaycana səfərləri də münasibətlərin dinamikasını əks etdirir. 2025-ci ildə Aİ-nin ali nümayəndəsi Kaya Kallas və genişlənmə üzrə komissarı Marta Kos Bakıda Prezident İlham Əliyevlə görüşüblər. 2026-cı ilin martında isə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgensen Azərbaycana səfər edərək dövlətimizin başçısı ilə danışıqlar aparıblar. Bütün bunlar Azərbaycanın Avropa üçün necə mühüm əhəmiyyət daşıdığını göstərən məqamlardır.

Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti, ilk növbədə, enerji təhlükəsizliyi ilə bağlıdır. 2022-ci ildə Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya təbii qaz tədarükü genişlənib. Təsadüfi deyil ki, bu gün Azərbaycan 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə qaz ixrac edir və bu coğrafiya genişlənməkdədir.



"Yaşıl enerji" sahəsində də əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Xəzər dənizinin külək enerjisi potensialı, günəş enerjisi layihələri, Mərkəzi Asiya ilə "yaşıl enerji" dəhlizləri və Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi Avropa bazarları ilə əlaqələrin genişləndirilməsinə xidmət edir. 2026-cı ilin martında Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 12-ci və Yaşıl Enerji Məşvərət Şurasının 4-cü nazirlər iclaslarında 27 tərəfdaş hökumətin, 60 beynəlxalq təşkilat və şirkətin nümayəndələrinin iştirakı Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlıq platforması kimi rolunu göstərib.

Nəqliyyat və logistika sahəsində Orta dəhliz, "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutları Azərbaycanın Avropa ilə Asiya arasında mühüm tranzit mərkəzi kimi əhəmiyyətini artırır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, dəmir yolu infrastrukturunun inkişafı və Naxçıvan dəmir yolu bağlantısı üzrə əməkdaşlıq Avropa ilə Mərkəzi Asiya arasında daşımaların genişləndirilməsi baxımından əhəmiyyətlidir. Avropa İttifaqının "Global Gateway" təşəbbüsü çərçivəsində Azərbaycanda səfərbər edilmiş investisiyaların həcminin 130 milyon avronu ötməsi də iqtisadi tərəfdaşlığın konkret nəticələrindəndir.

Beləliklə, Avropanın Azərbaycana marağı ayrı-ayrı diplomatik görüşlərlə məhdudlaşmır. Enerji təhlükəsizliyi, "yaşıl keçid", nəqliyyat bağlantıları, investisiyalar və regional sabitlik bu marağın əsasını təşkil edir. Qarşı tərəfin təşəbbüsü ilə keçirilən yüksəksəviyyəli görüşlər, Avropa rəsmilərinin Bakıya səfərləri və birgə layihələr Azərbaycanın Avropa üçün etibarlı və strateji əhəmiyyətli tərəfdaş kimi rolunun genişləndiyini göstərir.



Orta dəhliz - Avropa ilə Asiyanı birləşdirən strateji marşrut

Dublin sammitinin gündəliyində bağlantıların yaxşılaşdırılmasının ayrıca yer tutması Azərbaycanın nəqliyyat-logistika potensialı baxımından da diqqətəlayiqdir. Qlobal ticarət marşrutlarının dəyişdiyi, təchizat zəncirlərinin dayanıqlılığının artan əhəmiyyət qazandığı bir şəraitdə alternativ nəqliyyat dəhlizlərinin inkişafı dövlətlərin iqtisadi və strateji prioritetlərindən birinə çevrilib. Azərbaycanın coğrafi mövqeyi, Xəzər dənizindəki liman infrastrukturu, dəmir və avtomobil yolları ölkəmizə Avropa ilə Asiya arasında tranzit əlaqələrinin inkişafında mühüm imkanlar yaradır. Orta dəhliz isə bu imkanların reallaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Çindən və Mərkəzi Asiyadan Xəzər dənizi, Azərbaycan və Cənubi Qafqaz vasitəsilə Türkiyəyə və Avropaya uzanan bu marşrut beynəlxalq yükdaşımaların şaxələndirilməsinə xidmət edir. Onun potensialının tam reallaşdırılması üçün infrastrukturun genişləndirilməsi ilə yanaşı, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi, gömrük sistemlərinin rəqəmsallaşdırılması, tariflərin rəqabətqabiliyyətli olması və müxtəlif nəqliyyat sistemləri arasında uzlaşmanın artırılması da vacibdir. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi layihələr ölkəmizin regional iqtisadi əlaqələrdə rolunu genişləndirir. Nəqliyyat bağlantılarının inkişafı, eyni zamanda Avropa ilə Mərkəzi Asiya arasında ticarətin, investisiyaların və iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün imkanlar yaradır. Enerji və nəqliyyat amillərinin bir araya gəlməsi Azərbaycanın Avropa ilə münasibətlərində uzunmüddətli strateji əməkdaşlıq üçün zəmin formalaşdırır. Dublin görüşünün gündəliyi də göstərir ki, Avropanın rəqabət qabiliyyətinin artırılması üçün enerji təhlükəsizliyi və bağlantıların inkişafı birindən ayrı nəzərdən keçirilə bilməz.

Cənubi Qafqazda sülh üçün yeni imkanlar

"Avropa Siyasi Birliyi"nin gündəliyində təhlükəsizlik məsələləri xüsusi yer tutur. Ukrayna-Rusiya müharibəsinin davam etməsi, hibrid və kibertəhdidlər, mühüm infrastrukturun qorunması və demokratik institutların dayanıqlılığı Avropa ölkələrinin ortaq müzakirə mövzularıdır.

Azərbaycan üçün təhlükəsizlik gündəliyinin mühüm istiqamətlərindən biri Cənubi Qafqazda davamlı sülhün və regional əməkdaşlığın təmin edilməsidir. Regionda sabitliyin möhkəmlənməsi yalnız siyasi münasibətlərə deyil, həm də ticarət əlaqələrinə, nəqliyyat marşrutlarının inkişafına və investisiya mühitinə təsir göstərir.

Prezident İlham Əliyevin 2026-cı ilin mayında ASB-nin İrəvan sammitində videobağlantı vasitəsilə etdiyi çıxış bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısı Azərbaycanın sammitlərdən birinin ölkəmizdə keçirilməsi təşəbbüsünün qəbul olunduğunu bildirməklə yanaşı, Azərbaycan-Ermənistan münasibətlərində əldə olunmuş irəliləyişlərə və sülhün əhəmiyyətinə toxundu. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi Cənubi Qafqazda yeni əməkdaşlıq imkanlarının yaranması baxımından mühüm əhəmiyyət daşıyır. Bununla belə, davamlı sülhün möhkəmlənməsi əldə edilmiş razılaşmaların ardıcıl icrasını, qarşılıqlı etimadın gücləndirilməsini və praktiki əməkdaşlığın genişləndirilməsini tələb edir. Bu prosesin uğuru regionun beynəlxalq nəqliyyat və iqtisadi əlaqələrə inteqrasiyasına da müsbət təsir göstərə bilər. Cənubi Qafqazda sülhün möhkəmlənməsi Avropa ilə Asiya arasında bağlantıların inkişafı, regional ticarətin genişlənməsi və yeni iqtisadi layihələrin reallaşdırılması üçün əlverişli şərait yarada bilər.

Azərbaycan üçün regional sülh məsələsi yalnız siyasi münasibətlərin normallaşdırılması ilə məhdudlaşmır. Bu, həm də ölkəmizin nəqliyyat, enerji və iqtisadi əməkdaşlıq sahələrindəki strateji prioritetlərinin reallaşdırılması baxımından əhəmiyyətlidir.

Dublindən Bakıya: 2028-ci il sammitinin siyasi əhəmiyyəti

Azərbaycanın 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin Sammitinə evsahibliyi etməsi ölkəmizin çoxtərəfli diplomatiyasında mühüm mərhələdir. Prezident İlham Əliyev 2026-cı il mayın 4-də İrəvanda keçirilən 8-ci Zirvə görüşündə çıxışında Azərbaycanın namizədliyinin qəbul edildiyini və ölkəmizin 2028-ci ilin mayında ASB iştirakçılarını qəbul edəcəyini bildirdi. Dövlətimizin başçısının bu çıxışı "Avropa Siyasi Birliyi"nin fəaliyyətində ölkəmizin gələcək rolunu müəyyənləşdirən mühüm siyasi hadisədir. Sammitə evsahibliyi etmək Azərbaycana yalnız genişmiqyaslı beynəlxalq tədbirin təşkili imkanını deyil, həm də Avropa ölkələri ilə siyasi dialoqun inkişaf etdirilməsi üçün əlavə platforma təqdim edir. Bakı görüşü dövlət və hökumət başçılarını, eləcə də Avropa institutlarının rəhbərlərini bir araya gətirərək ümumi siyasi məsələlərin müzakirəsinə, ikitərəfli təmasların genişləndirilməsinə və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə şərait yaradacaq.

Dublin sammiti bu baxımdan Azərbaycan üçün xüsusi hazırlıq mərhələsidir. Ölkəmiz 2028-ci ildə ev sahibi kimi platformanın gündəliyini, müzakirə mexanizmlərini və iştirakçıların ortaq prioritetlərini yaxından izləmək imkanı əldə edir. Bu təcrübə gələcək toplantının təşkilati və siyasi baxımdan səmərəli keçirilməsinə töhfə verəcək. Bununla yanaşı, Bakının sammitə evsahibliyi etməsi Azərbaycanın Avropa ilə münasibətlərində enerji və nəqliyyat məsələləri ilə yanaşı, daha geniş siyasi dialoqun da əhəmiyyətini artırır. Bu format ölkəmizə fərqli mövqelərə malik dövlətlər arasında ünsiyyətin təşviqi, ortaq maraqların müəyyənləşdirilməsi və praktiki əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradır.

Azərbaycan - müxtəlif siyasi məkanlar arasında dialoq körpüsü

Azərbaycanın beynəlxalq gündəliyi Avropa ilə münasibətlərdən daha geniş coğrafiyanı əhatə edir. Mərkəzi Asiya, MDB məkanı və islam dünyası ilə əlaqələrin inkişafı ölkəmizin xarici siyasətinin digər mühüm istiqamətləridir. Son illərdə bu coğrafiyalarda əməkdaşlığın institusional əsaslarının genişləndirilməsi, Azərbaycanın beynəlxalq təşkilatlarda rəhbər mövqelərə gəlməsi və böyük tədbirlərə evsahibliyi etməsi ölkəmizin diplomatik fəaliyyətinin miqyasını genişləndirir.

Bu nümunələrdən daha biri bu yaxınlarda - 2026-cı il oktyabrın 15-də Bakının Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə toplantısına evsahibliyi etməsidir. Sammitdə üzv dövlətlərin dəstəyi ilə Azərbaycanın təşkilata sədrliyinin 2028-ci ilədək uzadılması ölkəmizin Asiya məkanında dialoq və etimad quruculuğuna verdiyi töhfənin göstəricisidir. Bu sədrliyin əhəmiyyəti yalnız siyasi təmsilçiliklə məhdudlaşmır. Nəqliyyat bağlantıları, rəqəmsallaşma, iqtisadi əməkdaşlıq, təhlükəsizlik və davamlı inkişaf kimi istiqamətlər Azərbaycanın Asiya dövlətləri ilə əlaqələrinin genişləndirilməsi üçün əlavə imkanlar yaradır.

İslam dünyası ilə münasibətlərdə də qarşıdakı dövr mühüm hadisələrlə əlamətdar olacaq. Belə ki, 2027-ci ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısının keçirilməsi və Azərbaycanın təşkilata sədrliyi ölkəmizə üzv dövlətlər arasında siyasi koordinasiyanın, iqtisadi və humanitar əməkdaşlığın inkişafına töhfə vermək imkanı yaradacaq. Bu, Azərbaycanın islam dünyasındakı mövqeyinin və beynəlxalq təşəbbüslərdə iştirakının daha da genişlənməsi baxımından əhəmiyyətlidir.

Mərkəzi Asiya regionu Azərbaycanın xarici siyasətində getdikcə daha mühüm yer tutur. 2025-ci il noyabrın 16-da Daşkənddə keçirilən Mərkəzi Asiya dövlət başçılarının yeddinci Məşvərət Görüşündə Azərbaycanın platformaya tamhüquqlu iştirakçı statusunda qoşulması barədə qərar qəbul edilib. 2026-cı il oktyabrın 8-də Türkmənbaşıda keçirilən səkkizinci görüşdə isə ölkəmizin 2027-ci ildə platformaya ilk dəfə sədrlik edəcəyi açıqlanıb. Bu qərarlar Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında siyasi, iqtisadi və nəqliyyat-logistika əməkdaşlığının genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Belə bir şəraitdə Azərbaycanın qarşısında daha geniş diplomatik perspektiv də açılır. 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin 12-ci Zirvə toplantısının Bakıda keçirilməsi barədə razılıq ölkəmizin Avropa siyasi dialoqunda artan iştirakının mühüm göstəricisidir. AQEM-ə sədrliyin davam etdirilməsi, İƏT-ə rəhbərlik və "Avropa Siyasi Birliyi"nin Sammitinə evsahibliyi eyni dövrə təsadüf etməklə Azərbaycanın müxtəlif geosiyasi mərkəzlərlə əlaqələrini vahid diplomatik məkanda uzlaşdırmaq imkanlarını genişləndirir. Bu kontekstdə rəsmi Bakının beynəlxalq dialoq və vasitəçilik üçün "yeni Vyana" və ya "yeni Cenevrə" kimi tanınması perspektivi də diqqətəlayiqdir.

Dublin sammitinin gündəliyi ilə Azərbaycanın beynəlxalq fəaliyyətinin kəsişdiyi məqam da məhz budur. Avropanın təhlükəsizlik, enerji təchizatı, iqtisadi rəqabətqabiliyyətliliyi və nəqliyyat bağlantıları ilə bağlı prioritetləri ölkəmizin xarici siyasətinin əsas istiqamətləri ilə bir sıra sahələrdə üst-üstə düşür. "Cənub qaz dəhlizi", Orta dəhliz, Xəzər üzərindən inkişaf etdirilən bağlantılar və Cənubi Qafqazda davamlı sülhün təmin olunması Avropa ilə əməkdaşlığın həm iqtisadi, həm də geosiyasi əsaslarını təşkil edir. Bakıda keçiriləcək "Avropa Siyasi Birliyi"nin Sammiti isə bu dialoqun daha geniş siyasi platformaya daşınmasına şərait yaradacaq.

Əslində, qarşıdakı illərdə Azərbaycanın diplomatik gündəliyini fərqləndirən əsas cəhət coğrafi istiqamətlərin çoxluğu deyil, onların vahid strateji xətt üzrə birləşdirilməsidir. Avropa ilə enerji və nəqliyyat tərəfdaşlığı, Asiya ilə etimad və bağlantıların gücləndirilməsi, islam dünyası ilə siyasi koordinasiya, Mərkəzi Asiya ilə iqtisadi inteqrasiya ölkəmizin beynəlxalq münasibətlər sistemindəki rolunu müxtəlif istiqamətlərdən tamamlayır. Dublindən Bakıya uzanan bu siyasi xətt Azərbaycanın yalnız regional proseslərin iştirakçısı deyil, müxtəlif geosiyasi məkanlar arasında dialoqun və əməkdaşlığın inkişafına töhfə verən tərəfdaş olmaq iddiasını ifadə edir.

Hər bir xalqın mənəvi sərvətini qoruyan, tarixi yaddaşını yaşadan, elmi və mədəni irsini gələcək nəsillərə ötürən şəxsiyyətlər var. Onlar ömürlərini yalnız seçdikləri peşəyə deyil, bütövlükdə cəmiyyətin maariflənməsinə, milli-mənəvi dəyərlərin qorunmasına və inkişafına həsr edirlər. Belə insanların həyat yolu şəxsi uğurların hüdudlarını aşaraq xalqın mədəniyyət salnaməsinin ayrılmaz hissəsinə çevrilir.

Elmə və milli-mədəni irsə həsr olunan ömür

Azərbaycan kitabxanaşünaslıq elminin tanınmış nümayəndəsi, Əməkdar mədəniyyət işçisi, professor, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirovun 75 illik yubileyi münasibətilə onun zəngin həyat və fəaliyyət yoluna nəzər salarkən ilk növbədə belə bir qənaətə gəlirsən: bu, kitaba, elmə, mədəniyyətə və Vətənə xidmətə həsr olunmuş mənalı ömürdür.

Kərim Tahirov 1973-1978-ci illərdə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində ali təhsil almışdır. 1979-cu ildə M.F.Axundov adına Azərbaycan Dövlət Respublika Kitabxanasında əmək fəaliyyətinə başlamış, burada müxtəlif vəzifələrdə çalışaraq kitabxana işinin nəzəri və praktiki əsaslarını dərindən mənimsəmişdir. Sıravi kitabxanaçıdan rəhbər vəzifəyədək keçdiyi peşəkar yol onun zəngin təcrübəsinin, idarəçilik və təşkilatçılıq bacarıqlarının formalaşmasında mühüm rol oynamışdır. Lakin onun fəaliyyətini yalnız tutduğu vəzifələrlə səciyyələndirmək doğru olmazdı. Çünki Kərim Tahirovun həyat və fəaliyyətində əsas müəyyənedici cəhət vəzifədən daha çox missiyaya sədaqətdir. O, kitabxanaçılığı, sadəcə, informasiya xidmətinin təşkili deyil, xalqın intellektual potensialının inkişafına, milli yaddaşın qorunmasına və mədəni irsin yaşadılmasına xidmət edən mühüm ictimai fəaliyyət sahəsi kimi qəbul edir.

Kərim Tahirov 1983-2000-ci illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin aparatında çalışaraq Kitabxana və Muzey İşləri Baş İdarəsinin rəisi vəzifəsinədək yüksəlmişdir. 2000-2005-ci illərdə o, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının metodik və nəşriyyat işləri üzrə direktor müavini vəzifəsində fəaliyyət göstərmiş, 2005-ci ildən bu günədək həmin mötəbər mədəniyyət müəssisəsinə rəhbərlik edir.

Professor Kərim Tahirov beynəlxalq kitabxana əməkdaşlığının inkişafında da fəal iştirak edir. O, Beynəlxalq Kitabxana Assosiasiyaları və Müəssisələri Federasiyasının (IFLA), Avropa Milli Kitabxanaları Konfransı Təşkilatının (CENL), İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanaları Direktorlar Şurasının, 2003-cü ildən Avrasiya Kitabxanalar Assambleyasının (BAE) üzvüdür. 2023-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tarix və Antropologiya elmləri üzrə Ekspert Şurasının üzvü, Türk Dünyası Milli Kitabxanaları Birliyinin yaradıcısı və 2024-cü ildən isə sədridir.

Azərbaycan Milli Kitabxanasına rəhbərlik edən professor Kərim Tahirovun fəaliyyəti bu mədəniyyət ocağının inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Milli Kitabxana xalqın tarixini, ədəbiyyatını, elmini və mədəniyyətini özündə yaşadan mənəvi xəzinədir. Burada qorunan hər bir kitab, əlyazma, dövri mətbuat nümunəsi və digər informasiya daşıyıcısı keçmişlə gələcək arasında qurulan mənəvi körpüdür. Belə bir müəssisəyə rəhbərlik etmək yüksək peşəkarlıqla yanaşı, böyük məsuliyyət, geniş dünyagörüşü və dövlətçilik düşüncəsi tələb edir.

Kərim Tahirov azərbaycançılıq və dövlətçilik ənənələrinə sadiq ictimai xadim olaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki mərhələsində kitaba, kitabxana sahəsinə diqqət və qayğısının araşdırıcılarından biri olaraq öz şəxsi müşahidələrini qələmə almışdır. "Heydər Əliyev və Milli Kitabxana" adlı monoqrafiyasında böyük şəxsiyyətin kitab və kitabxana haqqında dahiyanə fikirlərini, habelə ötən əsrin çox çətin olan 90-cı illərində dəfələrlə milli kitabxanada olmasını və bu elm məbədinə göstərdiyi yüksək münasibəti, Ulu Öndərin irsinin təbliğinə həsr olunmuş "Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin biblioqrafik göstəriciləri", "Heydər Əliyev. Biblioqrafiya" kitablarının elmi redaktoru olmuşdur.



Kərim Tahirov Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin ideyalarının həyata keçirilməsində yaxından iştirak edən ziyalı kimi, dövlət başçısının rəhbərliyi altında mədəniyyət sahəsində qazanılan uğurlarımızın da fəal təbliğatçılarındandır. Dünyanın 22 ölkəsinin milli kitabxanalarında "Azərbaycan ədəbiyyatı guşələri"nin təşkili və onların mütəmadi olaraq yeni ədəbiyyatla təmin olunması da cənab Prezidentimizin 44 günlük Vətən müharibəsində tarixi qələbəmizə və ərazi bütövlüyümüzün bərpa edilməsi yolunda qazandığı uğurların və azad Qarabağda həyata keçirdiyi dinc bərpa-quruculuq işlərinin geniş təbliğinə yönəlmişdir.

Kərim Tahirovun rəhbər kimi fəaliyyətinin başlıca xüsusiyyətlərindən biri ənənə ilə müasirliyin vəhdətinə nail olmaqdır. O, Milli Kitabxananın zəngin ənənələrini qorumaqla yanaşı, onun fəaliyyətinin müasir informasiya cəmiyyətinin tələblərinə uyğunlaşdırılmasına xüsusi diqqət yetirmişdir.

Elektron kitabxana xidmətlərinin inkişafı, rəqəmsal resursların yaradılması, kitabxana fondlarının elektron mühitdə təbliği, beynəlxalq əlaqələrin genişləndirilməsi və oxuculara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi bu istiqamətdə həyata keçirilən işlərin mühüm tərkib hissəsidir. Onun rəhbərliyi dövründə Milli Kitabxana yalnız zəngin kitab fondlarının mühafizə edildiyi müəssisə kimi deyil, həm də elmi-mədəni tədbirlərin, kitab təqdimatlarının, yubiley mərasimlərinin, sərgilərin, beynəlxalq görüşlərin və intellektual müzakirələrin keçirildiyi nüfuzlu ictimai məkana çevrilmişdir. Dünyanın aparıcı kitabxana və informasiya mərkəzləri ilə əməkdaşlığın inkişafı, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin xarici ölkələrdə tanıdılması istiqamətində görülən işlər də bu fəaliyyətin mühüm nəticələrindəndir.

Kərim Tahirovun rəhbərliyi ilə 2019-cu ildən həyata keçirilən "Milli-mənəvi dəyərlərin Vətənə qayıdışı" layihəsi xüsusi əhəmiyyət daşıyır. Layihənin əsas məqsədi xarici ölkələrin kitabxana və muzeylərində mühafizə olunan Azərbaycanla bağlı nəşrlərin və əlyazmaların müəyyənləşdirilməsi, sənədləşdirilməsi və elmi dövriyyəyə daxil edilməsidir.

Bu istiqamətdə dünyanın müxtəlif milli kitabxana və muzeylərində qorunan Azərbaycan klassiklərinin qiymətli əlyazmaları araşdırılmış, onların elektron surətlərinin Milli Kitabxanaya gətirilməsi təmin edilmişdir. Milli Kitabxanada Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Nəsirəddin Tusi və digər Azərbaycan mütəfəkkirlərinin əsərlərinin əlyazma nüsxələri əsasında elektron məlumat bazası yaradılmışdır. Hazırda bazada 560 əlyazmanın elektron nüsxəsi mövcuddur. Onlardan 200-nün elektron nüsxəsi nəşr edilərək Milli Kitabxananın nadir kitablar fonduna verilmişdir. Layihə çərçivəsində Məhəmməd Füzulinin "Hədiqətüs-süəda" əsərinin nadir əlyazma nüsxəsinin 11 dekabr 2025-ci ildə Azərbaycan Milli Kitabxanasına hədiyyə edilməsi də milli-mədəni irsimizin qorunması baxımından əlamətdar hadisə olmuşdur.

Hər bir rəhbərin fəaliyyəti yalnız qəbul etdiyi qərarlarla deyil, insanlarla münasibəti, kollektivdə yaratdığı mənəvi mühit və əməkdaşlarına aşıladığı məsuliyyət hissi ilə də ölçülür. Kərim Tahirovun şəxsiyyətini səciyyələndirən mühüm xüsusiyyətlərdən biri zəngin peşəkar təcrübəsini ümumi işin inkişafına yönəltməsidir. Bilik, intellekt və mənəvi dəyərlər üzərində qurulmuş kitabxana kimi bir müəssisədə rəhbərin özünün də daim öyrənməyə, axtarışa və yeniliyə açıq olması xüsusi əhəmiyyət daşıyır. Onun həyat və fəaliyyət yolu göstərir ki, əsl rəhbərlik yalnız idarə etmək deyil, həm də inkişaf üçün şərait yaratmaq, kollektivin potensialını üzə çıxarmaq, peşəkar təşəbbüsləri dəstəkləmək və insanları ümumi məqsəd ətrafında birləşdirmək bacarığıdır. Ziyalılıq insanın yalnız biliyi və elmi dərəcəsi ilə deyil, daşıdığı məsuliyyət, mənəvi mövqeyi, sözünə və əməyinə münasibəti ilə müəyyən olunur. Bu baxımdan, professor Kərim Tahirovun çoxillik fəaliyyəti onun həyat amalının elmə, kitaba və mədəniyyətə xidmət olduğunu nümayiş etdirir.

Professor Kərim Tahirov eyni zamanda Azərbaycan kitabxanaşünaslıq elminin inkişafına mühüm töhfələr vermiş tanınmış alimdir. Onun elmi yaradıcılığının əsas istiqamətlərindən birini Azərbaycan Milli Kitabxanasının tarixi, inkişaf mərhələləri və kitabxana işinin nəzəri-praktiki problemlərinin araşdırılması təşkil edir.

Alimin "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923-2008-ci illər)" monoqrafiyası milli kitabxana tariximizin öyrənilməsi baxımından əhəmiyyətli elmi əsərlərdən biridir.

Azərbaycanda ilk kitabxana ensiklopediyasının hazırlanmasına rəhbərlik etməsi və onun baş redaktoru olması da Kərim Tahirovun elmi təşkilatçılıq qabiliyyətinin və kitabxanaşünaslıq sahəsinə verdiyi töhfələrin bariz nümunəsidir.

150-dən artıq kitab və kitabçanın müəllifi, tərtibçisi və redaktoru, 250-dən çox elmi məqalənin müəllifi olan professorun yaradıcılığı zəngin mövzu dairəsi və praktik əhəmiyyəti ilə seçilir. Onun əsərlərində kitabxanaların cəmiyyətdəki rolu, informasiya resurslarının təşkili, milli kitabxana ənənələrinin qorunması və müasir kitabxana xidmətlərinin inkişafı kimi aktual məsələlər geniş əksini tapır. Kərim Tahirovun çoxşaxəli fəaliyyətində pedaqoji iş də xüsusi yer tutur. Bakı Dövlət Universitetindəki elmi-pedaqoji fəaliyyəti, gənc mütəxəssislərin hazırlanmasında iştirakı, kitabxanaşünaslıq sahəsində yeni elmi yanaşmaların təbliği onun müəllim-alim kimi xidmətlərinin göstəricisidir. 2013-cü ildə professor elmi adına layiq görülməsi onun elmi və pedaqoji fəaliyyətinə verilən yüksək qiymətin ifadəsidir.

Professor Kərim Tahirovun Azərbaycan mədəniyyətinin və kitabxana işinin inkişafı sahəsindəki xidmətləri dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmişdir. O, 2008-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2013-cü ildə Azərbaycan Respublikasının 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, 2021-ci ildə kitabxana işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli "Əmək" ordeninə, 2024-cü ildə isə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalına layiq görülmüşdür.

Bu təltiflər onun uzun illər ərzində göstərdiyi səmərəli fəaliyyətə, milli mədəniyyətimizin qorunması və inkişafına verdiyi töhfələrə dövlət səviyyəsində göstərilən ehtiramın ifadəsidir.

75 yaş insan həyatında yalnız yubiley tarixi deyil. Bu, illərin topladığı təcrübənin, zəhmətin bəhrəsinin, qazanılmış nüfuzun və mənəvi dəyərlərin daha aydın göründüyü bir mərhələdir. Professor Kərim Tahirovun ömür yolu bir daha sübut edir ki, həqiqi ziyalı öz həyatını əməli ilə mənalandırır.

O, kitabı qorumağı xalqın yaddaşını qorumaq, elmi inkişaf etdirməyi cəmiyyətin gələcəyinə xidmət göstərmək, mədəniyyətə qayğını isə milli kimliyə sədaqət kimi qəbul edən ziyalılardandır. Bu gün Azərbaycan Milli Kitabxanasının rəhbəri kimi qarşısında duran vəzifələr nə qədər məsuliyyətlidirsə, illər ərzində qazandığı təcrübə və formalaşdırdığı peşəkar baxış da bir o qədər əhəmiyyətlidir.

Kərim Tahirovun 75 illik yubileyi münasibətilə onun həyat və fəaliyyətinə nəzər salarkən bir həqiqəti xüsusi vurğulamaq lazımdır: kitabın işığına həsr olunmuş ömür heç vaxt yalnız bir insanın şəxsi taleyi olaraq qalmır. Belə ömürlər bütöv bir nəslin yaddaşında yaşayır, elm və mədəniyyət tariximizdə özünəməxsus iz buraxır.

Hörmətli Kərim müəllimi 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, tükənməz enerji və yeni yaradıcılıq uğurları ilə yanaşı, zəngin təcrübəsi və ziyalı mövqeyilə Azərbaycan Milli Kitabxanasının inkişafına, milli-mənəvi sərvətlərimizin qorunmasına və kitabxanaşünaslıq elmimizin tərəqqisinə yorulmadan xidmət etməyi arzulayırıq.

Anar İSGƏNDƏROV,
Milli Məclisin Elm və təhsil komitəsinin sədri,
tarix elmləri doktoru, professor

12 Noyabr Konstitusiya Günüdür

Dövlət suverenliyimizin və davamlı inkişafımızın hüquqi qarantı



Azərbaycan xalqı əsrlər boyu öz dövlətçilik ənənələrini qoruyub saxlamış, milli kimliyini, dilini, mədəniyyətini və mənəvi dəyərlərini yaşatmaq uğrunda mübarizə aparmışdır. Bu baxımdan, XX əsrin sonlarında dövlət müstəqilliyimizin bərpası xalqımızın çoxəsrlik arzularının yenidən gerçəkləşməsi idi. Ancaq müstəqilliyin əldə olunması qədər onun qorunması, möhkəmləndirilməsi də böyük siyasi iradə, uzaqgörənlik və tarixi məsuliyyət tələb edirdi.

Dövlət idarəçiliyində sabitliyin bərqərar edilməsi, milli dövlətçilik institutlarının formalaşdırılması, hüquqi və demokratik cəmiyyət quruculuğunun təmin olunması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər ölkəmizin gələcək tərəqqisi üçün möhkəm zəmin yaratmalı idi. Belə bir vaxtda yeni Konstitusiya layihəsi üzərində ciddi iş başlandı. Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə 1995-ci ilin mayında Konstitusiya Komissiyası formalaşdırıldı. Xalqımızın müstəqillik iradəsinin, milli dövlətçilik ənənələrinin, suverenliyinin və hüquqi dövlət quruculuğu əzminin təcəssümü olacaq Azərbaycan Respublikasının Konstitusiyası haqqında Ümummilli Lider Heydər Əliyev demişdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

1995-ci ilin oktyabrında layihə ümumxalq müzakirəsinə verildi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Seçicilərin 86 faizi referendumda iştirak etdi. Onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Həmin il noyabrın 27-də dövlətin Əsas Qanunu qüvvəyə mindi. 1996-cı il fevralın 6-da isə Prezident Heydər Əliyevin sərəncamı ilə noyabrın 12-si Konstitusiya Günü elan edildi. Beləliklə, 1995-ci ilin noyabrında müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu.

Referendum yolu ilə Konstitusiyaya ilk əlavə və dəyişikliklər 2002-ci ilin avqustunda, 2009-cu ilin martında, son əlavə və dəyişikliklər isə 2016-cı ilin sentyabrında edildi. Bu dəyişikliklər dövlət idarəçiliyinin müasirləşdirilməsi, hüquq və azadlıqların müdafiəsi mexanizmlərinin inkişafı və konstitusion münasibətlərin daha da təkmilləşdirilməsi baxımından əhəmiyyətli oldu.

Xalqın iradəsi ilə qəbul edilmiş Konstitusiya dövlət müstəqilliyimizin hüquqi əsaslarını möhkəmləndirdi, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun başlıca istiqamətlərini müəyyən etdi. Konstitusiyamızda xalqımızın dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətini formalaşdırmaq, qanunun aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsinə nail olmaq kimi ali niyyətləri öz əksini tapdı. Bu məqsədlər Konstitusiyanın yalnız öz dövrünün deyil, həm də gələcək nəsillərin qarşısında dayanan strateji vəzifələrin hüquqi ifadəsi olduğunu göstərir.

Konstitusiyamızın birinci maddəsinə əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Bu müddəa xalq suverenliyinin mahiyyətini ifadə etməklə yanaşı, demokratik idarəetmənin prinsipini təsbit edir. Dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə bölünməsi isə hakimiyyət sistemində tarazlığın, qarşılıqlı fəaliyyətin və hüquqi məsuliyyətin təmin olunmasına xidmət edir.

Konstitusiyada insan hüquqlarının toxunulmazlığı, qanun qarşısında bərabərlik, şəxsi toxunulmazlıq, mülkiyyət, təhsil, əmək, sosial təminat, fikir və söz azadlığı, vicdan azadlığı kimi fundamental hüquqlar təsbit edilib. Çünki güclü dövlət ilk növbədə hüquqları qorunan, azad düşünən, sosial rifahı təmin olunan və gələcəyə inamla baxan vətəndaşların yaşadığı dövlətdir. Konstitusiyanın mahiyyəti də dövlətlə vətəndaş arasında hüquq və məsuliyyətə əsaslanan münasibətlərin formalaşdırılmasında, cəmiyyətdə ədalət və qanunçuluq prinsiplərinin möhkəmləndirilməsində ifadə olunur.

Azərbaycanın müasir dövlətçilik tarixində ən mühüm hadisələrdən biri də ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasıdır. Uzun illər ərzində torpaqlarımızın 20 faizinin Ermənistanın işğalı altında qalması xalqımızın milli yaddaşında silinməz iz qoymuşdu. O səbəbdən Azərbaycanın əzəli əraziləri olan Qarabağ və Şərqi Zəngəzurun yağıların əsarətindən azad edilməsi dövlətimizin qarşısında tarixi vəzifə kimi dayanırdı.

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər Azərbaycan xalqının milli birliyini, ordumuzun qəhrəmanlığını və dövlətimizin gücünü bütün dünyaya nümayiş etdirdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan Zəfər respublikamızın ərazi bütövlüyünün bərpasında həlledici mərhələ oldu. 2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirləri nəticəsində isə ölkəmizin suverenliyi tam bərpa edildi.

İşğaldan azad edilmiş ərazilərimizdə bu gün aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, müasir infrastrukturun yaradılması, yeni yaşayış məntəqələrinin salınması, sosial obyektlərin tikilməsi və "Böyük qayıdış" proqramının həyata keçirilməsi dövlətimizin gələcəyə yönəlmiş inkişaf strategiyasının mühüm istiqamətlərindəndir. Doğma yurdlarına qayıdan insanların həyatının yenidən qurulması, tarixi torpaqlarımızın dirçəldilməsi milli iradənin, dövlət gücünün və xalq-dövlət birliyinin təntənəsidir.

Konstitusiyanın qəbulundan ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin iqtisadi potensialı güclənib, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə mühüm islahatlar həyata keçirilib. Bu nailiyyətlərin hüquqi əsasını təşkil edən Konstitusiya ölkəmizin davamlı inkişafının başlıca dayaqlarından biridir.

Müasir dövrdə qloballaşmanın genişləndiyi, beynəlxalq münasibətlərin mürəkkəbləşdiyi bir şəraitdə hər bir dövlət üçün milli maraqların qorunması, hüquqi sabitliyin təmin edilməsi və cəmiyyətin birliyinin möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Konstitusiyası bu baxımdan dövlətimizin strateji inkişaf istiqamətlərini müəyyən edən, milli həmrəyliyi və ictimai sabitliyi möhkəmləndirən fundamental hüquqi sənəd kimi çıxış edir. Bu baxımdan, 12 Noyabr - Konstitusiya Günü həm də dövlətə bağlılığımızın, milli həmrəyliyimizin və hüquqi dəyərlərə sədaqətimizin ifadəsidir.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Qazaxıstanın Aktau şəhərində Zəfər Günü qeyd olunub

Azərbaycanın Aktaudakı baş konsulluğunda 8 Noyabr - Zəfər Gününün altıncı ildönümü münasibətilə bayram tədbiri keçirilib. AZƏRTAC **baş konsulluğa istinadla xəbər verir ki, iştirakçılar əvvəlcə Vətən müharibəsini əks etdirən fotosərgi ilə tanış olublar.**



Sonra Azərbaycanın Aktaudakı baş konsulu Ayxan Süleymanlı və "Dostluq" Etnomədəni Birliyinin üzvü Yusif Quliyev çıxış ediblər. Çıxışlar zamanı baş konsulluğun Vətən müharibəsi ilə bağlı hazırladığı slayd-şou nümayiş etdirilib.

Çıxışlardan sonra Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin rəşadətindən bəhs edən və Şuşa əməliyyatına həsr olunmuş qısametrajlı sənədli film nümayiş etdirilib.

Təşkil olunan ziyafət zamanı isə 2025-ci ildə Bakının Azadlıq meydanında keçirilmiş Zəfər paradından görüntülər nümayiş etdirilib.

Danimarkada Zəfər Gününə həsr olunmuş tədbir təşkil edilib

Danimarka Azərbaycan Vətən Cəmiyyətinin təşkilatçılığı ilə Kopenhagendə 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Cəmiyyətin sədri Mehriban Səfər Əliyeva və sədr müavini Amid Hüseynov çıxışlarında 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyətindən, həmin dövrdə Danimarkada yaşayan azərbaycanlıların nümayiş etdirdikləri həmrəylikdən, eləcə də Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində görülən işlərdən danışıblar.



Daha sonra Zəfər Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib. Tədbir çərçivəsində iştirakçılar arasında "Kahoot" platforması vasitəsilə Azərbaycan tarixinə dair bilik yarışması təşkil olunub.

Tədbirin sonunda iştirakçılar üçün ziyafət təşkil edilib.



29 il əvvəl "Əsrin müqaviləsi" çərçivəsində ilkin neft hasil olundu

Bu gün AÇG fəaliyyətinin yeni dövrünü yaşayır



29 il əvvəl noyabrın 12-də "Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi layihəsi çərçivəsində ilkin neft alındı. Hasilat "Çıraq" platformasından əldə olundu.

Bu münasibətlə platformada təntənəli mərasim keçirildi və Ulu Öndər Heydər Əliyev həmin tədbirdə iştirak etdi. Əslində, AÇG-nin ilkin nefti müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni neft və qaz strategiyamızın ilk və böyük təntənəsi idi. Bu həm də vaxtilə həmin möhtəşəm layihə barədə bədgüman olanlara, hətta hər cəhdlə maneəçilik törətməyə çalışanlara tutarlı cavab idi.

AÇG ötən illər ərzində fasiləsiz və təhlükəsiz fəaliyyət göstərərək öz uğur hekayəsini yazdı. Bir zamanlar tənəzzülə uğramış iqtisadiyyatımızın dirçəlməsində misilsiz rol oynadı. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, "Azəri-Çıraq-Günəşli" Azərbaycan iqtisadiyyatının əsas gəlir mənbəyidir.

Bu gün AÇG müqavilə sahəsində 7 hasilat platforması fəaliyyət göstərir. İndiyədək "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq" və ACE platformalarından birlikdə 4,6 milyard bareldən artıq neft hasil olunub.

Ötən illər ərzində AÇG blokundan çıxarılan səmt qazı müqavilənin şərtlərinə uyğun şəkildə təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilib. Bü günədək təhvil verilən qazın həcmi 63 milyard kubmetrdən çox təşkil edir. Əslində, bu, ayrıca bir layihə həcmində əldə olunan qaz ehtiyatları qədərdir.

Lakin hazırda blokun ehtiyatlarının tükəndiyi barədə tez-tez fikirlər səslənir. Doğrudan da belədirmi?

Şübhəsiz ki, AÇG özünün pik hasilat dövrünü yaşayıb. Bu danılmazdır və istənilən yatağın öz yetkin mərhələsinə çatdıqdan sonra hasilatının azalması labüddür.

Bununla belə, AÇG yenə də ahəngdar işləyərək neft və səmt qazı verir. Cari ilin ötən üç rübü ərzində blokdan ümumi hasilat - "Çıraq" (18 mln 800), "Mərkəzi Azəri" (84 mln 600), "Qərbi Azəri" (72 mln), "Şərqi Azəri" (45 mln 700), "Dərinsulu Günəşli" (46 mln 700), "Qərbi Çıraq" (25 mln 300) və ACE (26 mln 900) platformalarından birlikdə gündə orta hesabla 320 min barel və ya ümumilikdə təxminən 87 milyon barel, yəni 12 milyon ton olub. AÇG-də 154 neft hasilatı, 50 su injektor və 11 qaz injektor quyusu istismardadır.

BP-nin Xəzər, Mərkəzi Asiya və Türkiyə regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bildirir ki, bu gün AÇG təxminən 95 faiz əməliyyat səmərililiyi və 99 faizə yaxın qurğu etibarlılığı göstəriciləri ilə fəaliyyət göstərir. Bu da dünyada çox az ölkədə və çox az layihədə olan göstəricidir.

Hazırda hasilatın uzunmüddətli dayanıqlılığının təmin edilməsinin innovativ yanaşmalar və yeni texnologiyalar vasitəsilə nail olunmasına səy göstərilir. Əsas məqsəd hasilatın azalma tempini idarə etmək və maksimum neft hasilatına nail olmaqdır. Bunun üçün br neçə istiqamətdə iş davam edir.

Bu ilin iyun ayında AÇG-də sərbəst təbii qaz hasilatı əməliyyatlarının başlanması ilə blokun işlənməsində yeni mərhələyə qədəm qoyulub və ilk kommersiya qaz hasilatına start verilib.

B.Aslanbəyli bildirir ki, ilk sərbəst təbii qaz hasilatı əməliyyatı Qırmakıaltı Qumlu lay dəstində başlanıb və ilkin dövr hasilatı olmaqla yanaşı, birinci quyuda və lay dəstində sınaq işlərinin aparılması da həyata keçirilir. Qarşıdan gələn dövrlərdə bu quyudan alınan qaz və kondensatı mövcud AÇG infrastrukturu neft-qaz işlənməsi sistemlərinə inteqrasiya yolu ilə Səngəçal terminalına, oradan da ixrac infrastrukturları ilə bazarlara çatdıracaq. Artıq AÇG-dən xam neftlə bərabər kommersiya qazının da, sərbəst təbii qazın da ixracına nail olunacaq.

Xatırladaq ki, blokun çıxarıla bilən sərbəst təbii qaz ehtiyatlarının xeyli iri həcmdə - 4 trilyon kubfutadək olduğu düşünülür. Deməli, AÇG öz ömrünün növbəti bir dövrünü yaşayır.

Flora SADIQLI,
"Azərbaycan"

● Yeni aqrar inkişaf dövlət proqramı yerinə yetirilir

Firavanlıq bolluqdan başlayır

Ağcabədidə bu məlum həqiqəti bilməyən fermer yoxdur

Pambıq bu yerlərin əzəli sərvətidir. Qarabağın bərəkətli torpaqları yüz illərboyu çəkilən zəhmətin, axıdılan alın tərinin qarşılığında yetirdiyi bol məhsulla bu qədim yurdun sahiblərinə xoş güzəran, firavan həyat bəxş edib.

Zaman-zaman ictimai quruluşlar, idarəçilik üsulları dəyişsə də, mayası halallıq olan torpağın özəl xüsusiyyətləri bir zərrə də dəyişmir. Yay, qış demədən nazını çəkənləri, başına pərvanə kimi dolananları heç vaxt ümidsiz qoymur, ona əyiləni ucaldır, elin-obanın hörmət-izzət sahibinə çevirir, firavanlığa qovuşdurur.

Qızıl payızın bu oğlan çağında ana təbiət Qarabağ torpağında zənginliyi ilə hər kəsdə məmnunluq doğuran geniş bir bərəkət süfrəsi açıb. Ağcabədinin ağ örpəyə bürünmüş pambıq tarlaları bu günlər əsl hünər meydanına çevrilib. Böyük zəhmət bahasına hasilə gələn məhsulu tez və itkisiz yığıb tədarük etmək üçün bütün qüvvələr səfərbər edilib. Havaların şıltaqlığı üzündən məhsul yığımının sürətini artırmaq üçün mövcud imkanlardan maksimum səmərəli istifadə olunur.

Bu il rayonun təsərrüfatlarında 8291 hektarda pambıq əkilib. Becərmədə aqrotexniki tələblərə ciddi əməl olunması hesabına tarlalarda bol məhsul yetişib. Artıq pambıq tarlalarının yarıdan çoxunun məhsulu yığılıb. Orta məhsuldarlıq hələlik 34,5 sentnerdir. Birinci üz yığımı üçün bu, yaxşı nəticə sayılır. İkinci üz yığımına da xeyli məhsul var. Ağcabədinin təcrübəli pambıqçıları İsgəndər Hüseynovun, İsa Mürşüdovun, Eyvaz Hüseynovun rəhbərlik etdikləri fermer təsərrüfatlarında daha yüksək nəticələr qazanılıb - hektardan 45-50 sentner.

Dövlətin aqrar sektor üçün müəyyən etdiyi yeni hədəflər, qarşıya qoyduğu yeni vəzifələr ağcabədili fermerlər üçün də əsas fəaliyyət istiqamətidir. Rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynovla bu yöndə söhbətimiz maraqlı alındı:

- Dövlət üzərinə düşən vəzifəni hər zaman yüksək səviyyədə yerinə yetirir. Regionların davamlı sosial-iqtisadi inkişafı, bölgələrdə qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının dünyanın qabaqcıl ölkələrinin təcrübəsi, müasir texnologiyalar, innovativ üsullar əsasında yüksəlişi üçün dövlət əhəmiyyətli proqramlar qəbul edir, onları reallaşdırmaq üçün sərmayələr ayırır. Məqsəd, hədəf ölkə iqtisadiyyatını gücləndirmək, xalqın, xüsusilə kəndlərdə yaşayan əhalinin həyat səviyyəsini, güzəranını yaxşılaşdırmaqdır. Hazırda bütün ölkəboyu yeni fəaliyyət istiqamətini müəyyən etmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr həyata keçirilir. Bu gün kürəyində dövlətin güclü əlini hiss edən Ağcabədi kəndlisi çox məmnundur. Onların üzləşə biləcəkləri hər hansı çətinlik və problemi həll etmək üçün rayonun bütün qurumları səfərbərdir. Hər bir məmur gündəlik fəaliyyətində özünü halal zəhməti ilə bolluq, firavanlıq yaradan sadə əmək adamlarının xidmətçisi sayır. Bu qayda Prezident İlham Əliyevin bizə qiymətli tövsiyəsidir, ölkədə vətəndaş məmnunluğu yaratmağın əsas şərtidir, ana xəttidir.

İndi təsərrüfat işlərinin qızğın çağıdır, tarlalarda məhsul yığımı davam edir. Pambıqçılar çalışırlar ki, əlverişli keçən hər saatdan səmərəli istifadə edərək yığımı başa çatdırsınlar.

Qabaqcıl təcrübənin ünvanına çevrilmiş "Ağcabədi taxıl" Aqroparkında mütərəqqi texnologiyalar, innovativ üsullar yaradıcılıqla tətbiq olunur. Hazırda təsərrüfatda pambıq yığımı davam edir. Bizdə olan son məlumata görə, 457 hektardan 1643 ton pambıq yığılıb. Cari ilin hədəfi məhsuldarlığı 40 sentnerə çatdırmaqdır. Bu, çox real görünür.

Ümumi sahəsi 2445 hektar olan aqroparkda taxılçılığa da böyük önəm verilir. Bu il 236,6 hektarda buğda, 195 hektarda arpa yetişdirilmişdir. Buğda zəmilərində orta məhsuldarlıq 57,3, arpa sahələrində 55,2 sentner oldu. İndi təsərrüfatda taxıl səpininə son hazırlıq işləri görülür.

Aqroparkın ərazilərində intensiv bağçılığa da geniş yer verilir. Bu il badam, nektarin bağlarından bol məhsul götürülüb, əlavə 100 hektardan çox ərazidə xurma bağı salınıb. Meyvə bağlarının ümumi ərazisi 500 hektardan artıqdır. Aqroparkda işçi sayı 180 nəfərdir, amma mövsümi işlərlə əlaqədar işçi sayı 400 nəfərə qədər artır.

Ölkədə aqrar sektorun inkişafında öndə gedən ağcabədili fermerlərin məqsədi, niyyəti yüksəliş, tərəqqi, bolluq və firavanlıqdır. Dövlətin müəyyən etdiyi bu hədəfin onları aydın sabahla qovuşduracağına inamları yenilməzdir.

Ağcabədidən xoş təəssüratlarla ayrıldıq. Dövlətin yetərli qayğı və diqqətindən güc alıb, taleyini torpağa bağlayan, halal zəhmətinə güvənən sadə əmək adamlarının qurub-yaratmaq əzmi bizdə məmnunluq doğurmuşdu.



Lazım QULİYEV,
"Azərbaycan"

Sumqayıt daha abad və yaşıl olur

Sumqayıtda abadlıq-quruculuq tədbirləri çərçivəsində şəhərin estetik görkəminin daha da yaxşılaşdırılması, yolkənarı ərazilərin abadlaşdırılması, müasir infrastrukturun yaradılması və yaşıllıq sahələrinin genişləndirilməsi istiqamətində kompleks işlər davam edir.

Şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə Bakı-Quba magistral avtomobil yolunun Sumqayıt ərazisindən keçən hissəsində genişmiqyaslı abadlıq və yaşıllaşdırma işləri həyata keçirilir, o cümlədən yolkənarı ərazilərdə torpaqlama və hamarlama işləri aparılır, mövcud hasarlar yenilənir, ətraf sahələr səliqəyə salınır. Eyni zamanda yolboyu infrastrukturun müasirləşdirilməsi istiqamətində tədbirlər görülür, yeni sərnişin dayanacaqları quraşdırılır.

Bakı-Quba avtomobil yolu ölkənin mühüm nəqliyyat magistrallarından biri olmaqla paytaxtı şimal bölgələri ilə birləşdirən strateji əhəmiyyətli nəqliyyat dəhlizidir. Gündəlik olaraq çoxsaylı nəqliyyat vasitələrinin və sərnişinlərin istifadə etdiyi bu magistralın Sumqayıt ərazisindən keçməsi yolboyu ərazilərin abadlaşdırılmasını və müasir infrastrukturun yaradılmasını xüsusi əhəmiyyətli edir. Bu baxımdan həyata keçirilən tədbirlər həm nəqliyyat infrastrukturu ətrafında əlverişli şəraitin yaradılmasına, həm də şəhərin giriş-çıxış istiqamətlərinin daha səliqəli və baxımlı görkəm almasına xidmət edir.

Aparılan işlərdə ekoloji amillərə xüsusi diqqət yetirilir. Sumqayıtın ölkənin mühüm sənaye mərkəzlərindən biri olması nəzərə alınaraq şəhərdə yaşıllıq sahələrinin artırılması, ekoloji tarazlığın qorunması və sağlam ətraf mühitin formalaşdırılmasının mühüm əhəmiyyəti var. Bu məqsədlə magistral yol boyunca yeni ağaclar əkilir, yaşıllıq zolaqları salınır, müxtəlif landşaft və yaşıllıq kompozisiyaları yaradılır. Həyata keçirilən tədbirlər sənayenin inkişafı ilə ekoloji mühit arasında tarazlığın qorunmasına, şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına və ətraf mühitin mühafizəsinə xidmət edir.

Abadlıq işləri çərçivəsində yolkənarı ərazilərin memarlıq və landşaft görünüşünün yenilənməsinə də xüsusi önəm verilir. Ərazilərin vahid abadlıq konsepsiyası əsasında yenidən qurulması, müasir landşaft həllərinin tətbiqi və yaşıllıq kompozisiyalarının yaradılması magistral boyunca estetik baxımdan cəlbedici və funksional mühitin formalaşdırılmasına imkan verir.

Sumqayıtda son illər genişmiqyaslı abadlıq-quruculuq və infrastruktur layihələri də həyata keçirilir. Şəhərin küçə və prospektlərində, yaşayış massivlərində, park və istirahət zonalarında, eləcə də əsas nəqliyyat magistralları boyunca aparılan işlər şəhər mühitini müasirləşdirir, sakinlərin yaşayış şəraitini yaxşılaşdırır. Şəhərdə abadlıq, təmizlik və yaşıllaşdırma tədbirlərinin bundan sonra da mərhələli və sistemli şəkildə davam etdirilməsi nəzərdə tutulur. O cümlədən Sumqayıtın qəsəbələrində də abadlıq işləri aparılması qərara alınıb. Corat və Hacı Zeynalabdin Tağıyev qəsəbələrində artıq küçələrin asfaltlanmasına başlanılıb.

Akif ƏLİYEV,
"Azərbaycan"

● Ötən həftənin iqtisadi icmalı

KOSMİK Akademiyanın uğuru, "AIREX 26" sərgisinin sorağı, "İstisu"yun Şanxay səfəri

Həftənin ilk günü Bakıda Milli Süni İntellekt Mərkəzi ilə ABŞ-nin Nyu York Dövlət Universitetinin Buffalo kampusunun İdarəetmə Məktəbinin əməkdaşlığı çərçivəsində beynəlxalq praktiki təlim proqramı keçirilib. İkigünlük proqramda dövlət və özəl sektoru təmsil edən 180-dən çox rəhbər və mütəxəssis iştirak edib.

❖ ❖ ❖

Məlumdur ki, sosial məsuliyyət və qadınların müdafiəsinə yönələn təşəbbüslər beynəlxalq səviyyədə diqqət qazanır. Bu istiqamətdə həyata keçirilən layihələr cəmiyyətin diqqətini vacib sosial problemlərə yönəldir ki, bu da beynəlxalq platformalarda təqdir olunur. "Azercell"in zorakılıqla üzləşən və ya risk altında olan qadınlara dəstək məqsədi daşıyan "Oflayn Qadınlar" layihəsi iki beynəlxalq yaradıcılıq festivalında ümumilikdə beş mükafata layiq görülüb.

Daşkənddə keçirilən "TAF!26" festivalında layihə bir qızıl və iki gümüş, Batumidə təşkil olunan "Ad Black Sea" festivalında isə gümüş və bürünc mükafat qazanıb. Mükafatlar təşəbbüsün sosial təsirini, kreativ strategiyasını və yaradıcı həllərini əhatə edib.

❖ ❖ ❖

Həftənin bənzər hadisələrindən biri də budur: kosmik sahədə beynəlxalq əməkdaşlıq və təhsil imkanlarının genişləndirilməsi istiqamətində Azərbaycanın təşəbbüsləri beynəlxalq mükafatla qiymətləndirilib. "Azərkosmos"un nəzdində fəaliyyət göstərən KOSMİK Akademiya kosmik təhsilin və insan kapitalının inkişafına verdiyi töhfələrə görə "APRSAF Kosmik Nailiyyət Mükafatı"na layiq görülüb.

Mükafat noyabrın 3-də Tailandın Banqkok şəhərində Asiya-Sakit Okean Regionu Kosmik Agentlikləri Forumunun 32-ci sessiyası çərçivəsində təqdim olunub. Qeyd edək ki, KOSMİK Akademiya 2024-cü ildən forumun dörd beynəlxalq kosmik təhsil layihəsində Azərbaycanın iştirakını təmin edir. Bu təşəbbüslər gənclərin kosmik elmlərə marağının artırılmasına, praktiki bilik və bacarıqlarının inkişafına xidmət edir.

❖ ❖ ❖

Daşınmaz əmlak, memarlıq və tikinti sektorunda yeni əməkdaşlıq imkanlarının yaradılması baxımından I Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisi - "AIREX 2026" ötən həftə diqqət mərkəzində olub. "PASHA Property Management" şirkətinin təşkilatçılığı ilə keçirilən sərgidə 47 yerli və 14 xarici şirkət olmaqla ümumilikdə 61 şirkət iştirak edib.



2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi fonunda təşkil olunan sərgi əmlak bazarının iştirakçılarını, investorları və sektorun peşəkarlarını bir araya gətirərək yeni əməkdaşlıq imkanları və təcrübə mübadiləsi üçün platforma yaradır.

❖ ❖ ❖

Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişləndirilməsi və ixracın artırılması istiqamətində də işlər davam edib. Noyabrın 6-da Şanxayda keçirilən 9-cu Çin Beynəlxalq İdxal Sərgisində "Made in Azerbaijan" brendi ilə 12 yerli şirkətin və "İstisu"



mineral su zavodunun məhsulları nümayiş olunub. Sərgidə Azərbaycanın iqtisadi, turizm və investisiya imkanları da təqdim edilib.

Bundan başqa, Azərbaycan nümayəndə heyəti Bişkekdə SPECA çərçivəsində keçirilən iqtisadi forumda və rəhbər qurumların iclaslarında iştirak edib. Tədbirlərdə regional ticarət və nəqliyyat əlaqələrinin genişləndirilməsi, Trans-Xəzər dəhlizinin inkişafı və gömrük prosedurlarının rəqəmsallaşdırılması müzakirə olunub. İnvestisiya imkanları və region ölkələri arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi də diqqətdən kənarda qalmayıb.

❖ ❖ ❖

Aqrar sahədə fermerlərin dövlət dəstəyi imkanlarından yararlanması və keyfiyyətli toxumla təminatı istiqamətində Yevlax rayonunda maarifləndirici tədbir və sərgi-satış yarmarkası keçirilib. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Yevlax Rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi panel müzakirəsində fermerlərə subsidiya, sığorta, güzəştli kreditlər, sertifikatlı toxumlarla təminat və toxumçuluq sahəsindəki yeniliklər barədə məlumat verilib.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Zaqatalada Vətən Müharibəsi Qəhrəmanının büstünün açılış mərasimi olub

Zaqatala şəhərindəki Şixamir Qaflanov adına Humanitar Fənlər Gimnaziyasında Vətən Müharibəsi Qəhrəmanı, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə böyük şücaət göstərərək şəhidlik zirvəsinə ucalan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının zabiti, mayor Şixamir Qaflanovun büstünün açılış mərasimi keçirilib.



Bu barədə AZƏRTAC-a Şəki-Zaqatala Regional Təhsil İdarəsindən məlumat verilib.

Bildirilib ki, mərasimdə Vətən Müharibəsi Qəhrəmanının ailə üzvləri, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Milli Məclisin deputatı Asif Əsgərov, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin struktur bölmə rəhbərləri, rayon polis şöbəsinin və digər hüquq-mühafizə orqanlarının əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, şəhid ailələrinin üzvləri, qazilər, təhsil işçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Mərasimdə çıxış edənlər Şixamir Qaflanovun şərəfli döyüş yolundan, Vətənə sədaqətindən və göstərdiyi qəhrəmanlıq nümunələrindən danışıblar.

Daha sonra tədbir iştirakçıları qəhrəmanın büstü önünə əklil və gül dəstələri qoyaraq onun əziz xatirəsini ehtiramla yad ediblər.

Qeyd edək ki, mayor Şixamir Qaflanov Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olub. O, Vətən müharibəsində peşəkarlığı və döyüş şücaəti ilə seçilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

"ŞURABAD BROYLER" ASC-nin səhmdarlarının nəzərinə

"ŞURABAD BROYLER" ASC-nin (VÖEN: 7800052731) səhmdarlarının növbədənkənar ümumi yığıncağı 14 dekabr 2026-cı il saat 11:00-da keçiriləcəkdir.

Yığıncağın gündəliyinə daxil olan məsələlər:

1. "Şurabad Broyler" ASC-nin mülkiyyətində olan Xızı rayonunun Şurabad qəsəbəsində yerləşən əmlak kompleksinin satılması barədə.

Yığıncağın keçiriləcəyi ünvan: Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi, 574-cü məhəllə, ev 111, 113, 99, 101, 103, 105, 107, 109, mənzil 12.
Telefon: (055-70) 747-78-19

"ŞURABAD BROYLER" ASC

BEYNƏLXALQ HƏYAT

KTMT sammitində Ermənistanın səsvermə hüququndan məhrum edilməsi barədə qərar qəbul olunub

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Moskvada keçirilən sammitinin iştirakçıları Ermənistanın təşkilatda səsvermə hüququndan və onun orqanlarında məsul vəzifələrə öz nümayəndələrini təyin etmək hüququndan məhrum edilməsi barədə qərar qəbul ediblər. Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib.



AZƏRTAC xəbər verir ki, Kremlin nümayəndəsi jurnalist Aleksandr Yunaşevə açıqlamasında qərarın KTMT-nin nizamnaməsinə uyğun olaraq qəbul edildiyini bildirib. D.Peskovun sözlərinə görə, buna əsas kimi Ermənistanın bir neçə il ərzində təşkilat qarşısında öhdəliklərini yerinə yetirməməsi göstərilib.

Bundan əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistanın iki ildən artıq üzvlük haqlarını ödəmədiyini bildirmişdi.

Avstriya Aİ-ni qanunsuz miqrasiyaya qarşı daha sərt tədbirlər görməyə çağırıb

Avstriyanın daxili işlər naziri Gerhard Karner Avropa İttifaqını (Aİ) qanunsuz miqrasiyaya qarşı daha sərt tədbirlər görməyə çağırıb.

AZƏRTAC xəbər verir ki, insan qaçaqmalçılığı şəbəkələri tərəfindən təşkil olunan kütləvi və mütəşəkkil miqrant axını hallarında sığınacaq müraciətləri araşdırılmadan miqrantların sərhəddən geri qaytarılması da təklif edilir. Nazir Avropa qanunvericiliyinin təkmilləşdirilməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, bu, üzv dövlətlərə öz sərhədlərini daha effektiv qorumağa və kütləvi miqrasiya dalğalarına qarşı daha təsirli mübarizə aparmağa imkan verməlidir.

Bildirilir ki, cari ilin ilk doqquz ayında Avstriyada sığınacaq müraciətlərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 45 faiz azalıb. Belə ki, bu ilin yanvar-sentyabr aylarında 7397 müraciət qeydə alınıb. Ötən ilin eyni dövründə isə bu göstərici 13 min 347 olub.



Hindistanda 147 sərnişinin olduğu təyyarədə qaçırılma xəbərdarlığı aşkarlanıb

Hindistanın Kalkutta hava limanında Mumbaya uçmağa hazırlaşan "Air India" aviaşirkətinə məxsus sərnişin təyyarəsində qaçırılma xəbərdarlığı aşkarlanıb.



AZƏRTAC Hindistan mediasına istinadla xəbər verir ki, uçuşa az qalmış kabin heyəti üzvləri təyyarənin sanitar qovşağındakı güzgünün üzərində qaçırılma ilə bağlı xəbərdarlıq yazısı aşkar ediblər. Hadisədən sonra göyərtəsində 147 sərnişinin olduğu təyyarə təhlükəsizlik yoxlaması üçün xüsusi əraziyə aparılıb, sərnişinlər təyyarədən endirilib. Yoxlamalara təhlükəsizlik əməkdaşları, yanğınsöndürənlər və bomba mütəxəssisləri cəlb olunub.

Hazırda aidiyyəti qurumlar tərəfindən hadisə ilə bağlı araşdırma aparılır.

Konqoda "Ebola" virusundan ölənlərin sayı 5,4 minə yaxınlaşıb

Konqo Demokratik Respublikasında "Ebola" virusuna yoluxanların təsdiqlənmiş sayı 11 mini ötüb, ölənlərin sayı isə 5,4 minə yaxınlaşıb.

AZƏRTAC xəbər verir ki, bu barədə "Reuters" Agentliyi hökumət məlumatlarına istinadla məlumat yayıb. Bildirilib ki, ölkədə "Ebola" epidemiyası 2026-cı ilin may ayından davam edir. Bu, Konqo Demokratik Respublikası tarixində 17-ci və ən ölümcül epidemiya hesab olunur.

Ölkənin şərqində davam edən silahlı toqquşmalar və əhali arasında tibbi qurumlara inamsızlıq xəstəliyə qarşı mübarizəni və tibbi yardımın göstərilməsini çətinləşdirir.



Hava əsasən yağmursuz olacaq

Azərbaycanda noyabrın 12-də gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək.



Havanın temperaturu gecə 5-9°, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunu, nisbi rütubət isə 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 11-16° isti, dağlarda gecə 2-7°, yüksək dağlıq ərazilərdə 9-14° şaxta, gündüz 3-8° isti olacaq.

İdman



Azərbaycan güləşçiləri Qazaxıstanda 8 medal qazanıblar

Qazaxıstanın Kökşetau şəhərində Əməkdar məşqçi Axmetjan Kazımbetovun xatirəsinə həsr olunan sərbəst güləş üzrə yeniyetmələr arasında ənənəvi turnir keçirilib.



Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, memorialda U-17 millinin böyük məşqçisi Hacı Əliyev və məşqçi Allahverdi Vəliyevin rəhbərliyi altında 8 güləşçimiz fəxri kürsüyə qalxıb.

Belə ki, Yusif Abdullayev (45 kiloqram), Süleyman Şirinov (51 kiloqram), İbrahim Həsənov (55 kiloqram) və Elcan Həsənov (65 kiloqram) qızıl, Hüseyn Rzazadə (55 kiloqram), Elvin Nəcəfzadə (92 kiloqram) gümüş, Tunar Hüseynov (48 kiloqram) və Nicat Mustafayev (110 kiloqram) isə bürünc medal qazanıblar.

Azərbaycan cüdoçusu Bakıda Avropa çempionu olub

Azərbaycanın eşitmə məhdudiyyətli cüdoçusu Coşqun Əliyev Bakıda keçirilən Avropa çempionatında qızıl medal qazanıb.

AZƏRTAC xəbər verir ki, 60 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı finalda polşalı Yakub Qlenski ilə üz-üzə gəlib.

Rəqibinə qalib gələn təmsilçimiz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Azərbaycan boksçusu Yeniyetmələrin Yay Olimpiya Oyunlarında finala yüksəlib

Azərbaycan boksçusu Gülər Hüseynova Seneqalın paytaxtı Dakarda keçirilən Yeniyetmələrin IV Yay Olimpiya Oyunlarında növbəti qələbəsini qazanıb.



AZƏRTAC xəbər verir ki, 51 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı yarımfinalda Kanada təmsilçisi ilə qarşılaşıb. Hər üç raundda üstün döyüş nümayiş etdirən Hüseynova rəqibini məğlub edərək adını finala yazdırıb.

Bu qələbə ilə ən azı gümüş mükafatı təmin edən boksçu noyabrın 12-də qızıl medal uğrunda həlledici döyüşə çıxacaq. Onun finaldakı rəqibi Venesuela təmsilçisi olacaq.

Azərbaycanın iki güləşçisi Qazaxıstanda medal qazanıb

Qazaxıstanın Şımkent şəhərində Əməkdar məşqçi, akademik Mərdan Saparbayevin xatirəsinə yunan-Roma güləşi üzrə beynəlxalq turnir keçirilib.



Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən məlumatan görə, ənənəvi yarışda U-20 milli komandanın məşqçisi Akif Əliyevin rəhbərliyi altında iki güləşçimiz fəxri kürsüyə qalxıb.

77 kiloqramda baş tutan Azərbaycan finalında qardaşı Cavad Məmmədova 3:1 hesabıyla qalib gələn Davud Məmmədov çempion olub. Belə ki C.Məmmədov isə gümüş medala sahib çıxıb.

Azərbaycanlı voleybol hakimi beynəlxalq oyuna təyinat alıb

Azərbaycanın beynəlxalq dərəcəli hakimi Kəmalə Əsgərova kişi voleybolçular arasında keçirilən Çelenc Kubokunun 1/32 final mərhələsinin oyununa təyinat alıb.



Voleybol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, o, Xorvatiyanın "Ribola" və Avstriyanın "Holdinq" komandaları arasında keçiriləcək qarşılaşmada birinci hakim olacaq. Kəmalə Əsgərovaya bolqarıstanlı Boyan Zelev kömək edəcək.

Qarşılaşma bu gün Xorvatiyada təşkil olunacaq.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynovaya həyat yoldaşı

İSAQ HƏSƏNZADƏNİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Famil Mehman oğlu Hacıyev Şəmkir Rayon İcra Hakimiyyəti başçısının sabiq birinci müavini

TARİYEL MƏMMƏDOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

İba Həsənov, Vaqif Məhərrəmov, Rafiq Hüseynov, İlham, Vüqar və Eldəniz İbrahimovlar, Hidayət və Orxan İsmayılovlar "Bakı Tikiş Evi" ASC-nin sədri Fidail Rəhimova əzizi

RƏŞİD SALEH OĞLU MANAFOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə Nazirliyinin kollektivi Cəbrayıl rayon icra və probasiya şöbəsinin rəisi

CAHANGİR ALIYEVİN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Ceyhun Xudaverdiyevə atası

ƏMRAH XUDAVERDİYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Məhəmməd Ağayevə atası

AQİL AĞAYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj **3277**
Sifariş **1497**

Qiyməti 60 qəpik